

Deputat Qüdrət Həsənquliyev hökuməti sərt tənqid edərək dedi ki...

Səh: 2-də



DGK nə üçün yeni inzibati binaya köçmür?

Səh: 4-də



Qoşqar Təhməzlinin ailə şirkətinin Ağdamda tikdiyi evlərin tavanı su içində

Səh: 7-də

**Azərbaycan Qarabağ - Qarabağ Azərbaycandır!**


www.tezadlar.az

# TƏZADLAR

tezadlar@gmail.com





№04 (2392) * 22 aprel 2025-ci il * İctimai-siyasi hüquq qəzeti * Qəzet 1993-cü ildən çıxır * Qiyməti 50 qəpik

# "İcra məmuru Vadim Əliyev qanunları saya salmırsa"...

*Şikayətçi Şahverənov Namik Natik oğlu Abşeron rayon icra və probasiya şöbəsindən ədliyyə naziri Fərid Əhmədova şikayət yazdı"*



Bax: səh.4

Fərid Əhmədov, Ədliyyə naziri



"Onun vəfatı xəbərini dərin sarsıntı hissi ilə qarşıladıq"

Bax səhifə 2

## AQTA rəsmisi "Venetsiya"nın fəaliyyətini biabır etdi ✓2

## Hacı Qalib milyarder Fərhad Əhmədovun 700 min dollarını neyləyib? ✓3-10

## "Happy Birthday", yoxsa Ad Günün Mübarək? ✓4

## İlham Əliyevə sədaqət andı... ✓6

## "Şoka girdim, dilim tutuldu, şəkərim 450-yə yüksəldi!" ✓7

## Xocalı qatilləri məhkəmədə özlərinin "əl işinə" təsirləndilər, amma... ✓10

Bax səh.2

## Bakı merinin diqqətinə: niyə hər dəfə eyni subasma təkrarlanır, amma tədbir görülmür???

Bax səhifə 3



Hər yağan yağışın girovuna çevrilən Bakı və bakılılar...

Bax səhifə 12-13



Bir kahramanın hikayesi: "Şehit Albay Orhan Ekberov" - Türkiyədən Asif Mərzilinin kitabına istinadlı yazı

## "Təzadlar" qəzetinin 32 yaşı tamam oldu! ✓9



"Meyvəli" gömrük məntəqəsində nə baş verir? ✓5



Heyvanların qeyri-adi «istedadı»: elm daha nəyi sübut edə bilmir? ✓11

# “Onun vəfatı xəbərini dərin sarsıntı hissi ilə qarşıladıq”



**Azərbaycan Prezidenti İlham Əliyev Roma Papası Fransiskin vəfatı ilə əlaqədar Müqəddəs Roma Kilsəsinin Kamerlenqosu Kardinal Kevin Farrell Həzrətlərinə başsağlığı verib.**

“Tezadlar.az” xəbər verir ki, başsağlığı məktubunda qeyd edilir:

**“Müqəddəs Taxt-Tacın başçısı, zəmanəmizin görkəmli din xadimi Roma Papası Zati-müqəddəsləri Fransisk Həzrətlərinin vəfatı xəbərini dərin sarsıntı hissi ilə qarşıladıq.**

**Roma Papası Fransiskin simasında beynəlxalq birlik və dünya katolikləri həyat amalı bəşəriyyətin əmin-amanlığı naminə fədakarcasına xidmət olan parlaq din xadimini, yüksək mənəvi keyfiyyətlərə malik böyük şəxsiyyəti itirdi.**

**Roma Papası Fransisk bütün həyat və fəaliyyətini ümumbəşəri dəyərlərin qorunub saxlanmasına, dinlərarası və mədəniyyətlərarası anlaşmanın və humanizm ideallarının təşviqinə həsr etmiş, insanlar arasında qarşılıqlı anlaşma, birlik və həmrəylik münasibətlərinin bərqərar olması naminə yorulmadan çalışmışdı. Dərin məzmunlu və şərəfli ömür yolu ilə örnək olan Roma Papası Fransisk bəşəri dəyərlərin fövqündə duran nəcib əməlləri, insanlara mərhəmət, şəfqət və mənəvi ucalığa çağırışları, xeyirxahlığı və fədakarlığı ilə bütün dünyada böyük rəğbət, dərin hörmət və ehtiram qazanmışdır.**

**Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında və möhkəmlənməsində Zati-müqəddəsləri Fransisk Həzrətlərinin misilsiz xidmətləri olmuşdur. Onunla görüşlərimi, səmimi ünsiyyətimizi həmişə ən xoş təssüratlarla xatırlayacağam. Roma Papası Fransiskin əziz xatirəsi və zəngin mənəvi irsi qəlblərdə və hafizələrdə daim yaşayacaqdır.**

**Bu ağır itkinin kədərini bölüşür, Sizə, Müqəddəs Taxt-Taca və bütün həmməzhəblərinizə şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm”.**

# Deputat Qüdrət Həsənquliyev hökuməti sərt tənqid edərək dedi ki...



**“Vəziyyət ağırdır, üzücüdür, dərin təəssüf hissi və narahatlıq yaradır. Hökumət demək olar ki, vəziyyəti dəyişmək üçün ciddi heç bir iş görmür, fəaliyyətsizdir.**

Artıq bu acınacaqlı durum dəfələrlə təkrar olunsa da, bu istiqamətdə ciddi işlər görülmür”. Tezadlar.az xəbər verir ki, bu sözləri Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiyasının sədri, millət vəkili Qüdrət Həsənquliyev güclü yağışdan sonra Bakı şəhərində bəzi yolların bağlanması və digər problemlərin yaranmasına münasibət bildirərkən deyib.

Q.Həsənquliyev xatırladıb ki, digər deputat həmkarları ilə bu məsələni baş nazirin iştirak etdiyi hökumətin hesabatı zamanı da qaldırıblar: “Azərbaycana hökumət üzvlərinin və mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin, icra başçılarının eşidəcəyi güclü və təşəbbüskar baş nazir lazımdır. Əli müəllim savadlı və yaxşı insan olaraq, Prezidentin köməkçisi kimi daha çox iş görə bilirdi. Hazırkı şəraitdə Birinci vitse-prezident həm də baş nazir postunu tutsa, bu, çox faydalı olardı”.

Q.Həsənquliyev əlavə edib ki, geniş səlahiyyətlərə malik Bakı şəhər bələdiyyəsi yaradılmalıdır: **“Hökumət qısa zamanda ciddi qərarlar qəbul edib işə başlamalı və bu barədə əhalini məlumatlandırmalıdır. Təəssüf ki, heç kim təşəbbüs göstərmir, hamı Prezidentdən tapşırıq gözləyir. Yaranmış vəziyyət idarəetmədə islahatların aparılmasını qaçılmaz edir”.**

# Ömrünün müdriklik çağını yaşayan el ağsaqqalı- TƏBRİK!



**Uzun illər Astara rayonunun nəqliyyat sistemində rəhbər sahədə çalışmış el ağsaqqalı Əliyev Tofiq Musa oğlunun 80 illik yubileyidir.**

Astaradan olan Mahmud adlı köhnə tanışların birindən Tofiq müəllim haqqında bilgi-məlumat soruşduq. Dərhal tanıdı və ürək dolusu xoş sözlər söylədi. Və məlum olurdu ki, Tofiq Əliyev uzun illər Astara rayonunda nəqliyyat sahəsinə rəhbərlik edib, amma ən vacibi, onu tanıyanların yaddaşında rəis, məmur kimi deyil, sadə, səmimi və müdrik insan kimi iz qoyub.

Bu gün onun 80 yaşı tamam olur. Astaradan olan və uzun illər təhsil sahəsində çalışmış, məktəb direktoru olmuş Həbib müəllim isə “Təzadlar”a göndərdiyi təbrik məktubunda yazır: “Tofiq müəllim Astarada elə bir hörmət sahibidir ki, orta və yaşlı nəslin nümayəndələrindən kimə müraciət edilsə, onun haqqında ən xoş sözləri deyəcək. Çünki Tofiq Əliyev bunu öz əməyi, insanlara qarşı xoş münasibəti ilə qazanıb. Onun amalı həmişə Vətənə, dövlətə və dövlətçiliyə, insanlara xidmət olub. Bütün astaralılar adından ən xoş arzularımı və təbrikimi çatdırıram. Arzu edirəm ki, Tofiq müəllim 100 yaşını qeyd etsin!”.

Biz də dəyərli el ağsaqqalını ürəkdən təbrik edirik, sağlam və uzun ömür arzulayırıq!

**Y.Məmmədli**

# Bakı merinin diqqətinə: niyə hər dəfə eyni subasma təkrarlanır, amma tədbir görülmür???

**Problem dərindir: Bakının küçələri adi yağışlarda su altında qalır, amma hər qarışını göydələnlərə satanlar susur, yollarını parklamalara və velosipedləşdirmələrə ayıranlar dinmir” Səbəb isə birdir: rəhbər məsuliyyəti yoxdur!**

Bakıya qaz vurub qazan doldurma meydanı- bazarı kimi baxanların fəaliyyətinin sonu belədir!



Dünən dı Bakı eyni aqibəti yaşadı. Ölkənin rəsmi və yarırəsmi TV- ləri biabırçı mənzərələri göstərdi, sosial media paylaşdı. Bu hal hər yağış yağanda təkrarlanır. Amma tədbir görülmür. Aidiyyəti qurumlar Bakının kanalizasiya və ya suötürmə problemi qarşısında acizdir! Paytaxtın şəhərsalma Agentliyi isə köhnə tikililərin sökülüb məmur MTK- larına satılması ilə məşğuldur. Tikənlər isə bu qədim şəhərin kanalizasiya xətlərinin su tutumunu öyrənmir, öyrənmək istəmir və nə istəyir, onu da edirlər. Bakı indi tikinti meydanıdır, üstü tikilir, altından kimsənin xəbəri yoxdur” Elə buna görə də idarəedilməz haldadır!

Ötən günlərdə isə Fövqəladə Hallar Nazirliyinin qüvvələri tərəfindən qeyri-sabit hava şəraiti ilə əlaqədar yaranan fəsadların aradan qaldırılması istiqamətində zəruri və təxirəsalınmaz tədbirlər davam etdirilib. Nazirlikdən tezadlar.az- a bildirildi ki, hazırda Bakı şəhərində, həmçinin Ağstafa və Qusar rayonları üzrə müxtəlif istiqamətlərdə su basmış ərazilərdən suyun çəkilərək kənarlaşdırılması və digər zəruri təhlükəsizlik tədbirlərinin görülməsi fasiləsiz olaraq davam etdirilir. Həmçinin, Fövqəladə Hallar Nazirliyinin qüvvələri tərəfindən görülən tədbirlər nəticəsində bir sıra ərazilərdə, o cümlədən Bakı şəhərinin ayrı-ayrı istiqamətlərində, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan şəhərləri və Xaçmaz, Şabran, Qusar, Xızı, Siyəzən, Samux rayonlarında suçəkmə və təxliyə işləri yekunlaşıb. Əməliyyat nəticəsində su basmış yerlərdə köməksiz vəziyyətdə qalmış 33-ü uşaq olmaqla ümumilikdə 135 nəfər vətəndaş təxliyə olunub. Və yaranan fəsadların aradan qaldırılması tədbirlərinə Fövqəladə Hallar Nazirliyinin 450 nəfərə yaxın şəxsi heyəti və 150-yə yaxın texnikası cəlb edilib.

**Rayonları və dağlıq əraziləri başa düşdük, yaxşı, bəs Bakıya nə olub? Bakıda dağ çayları var?**

**A.Məmmədli**

# AQTA rəsmisi “Venetsiya”nın fəaliyyətini biabır etdi



**Dünən axşam “Venetsiya” Şadlıq Sarayındakı biabırçılıq qida təhlükəsizliyini bir daha aktual edir... Belə ki, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) şöbə müdiri Mansur Piriyev bu gecə Bakıda 51 nəfərin toyda zəhərlənməsi məsələsi ilə bağlı əhaliyə və sahibkarlara müraciət edib.**

Tezadlar.az xəbər verir ki, şöbə müdiri AQTA tərəfindən müntəzəm keçirilən tədbirlərə baxmayaraq hələ də öz işinin məsuliyyətini dərk etməyən sahibkarlıq subyektlərinə rast gəlindiyini deyib. Onun sözlərinə görə, ictimai iaşə müəssisələrində xüsusilə, kütləvi qidalanma məkanlarında qida təhlükəsizliyi tələblərinin gözlənilməsi, həmçinin bu cür hadisələrin baş verməməsi üçün davamlı olaraq ciddi tədbirlər həyata keçirilməkdədir. Sitat: **“Təkcə son günlər ərzində onlarla kütləvi qidalanma məkanlarında, şadlıq evində aparılan yoxlamalar zamanı aşkarlanmış nöqsanlar və bununla bağlı görülən inzibati cəza tədbirləri barədə ictimaiyyətə məlumatlar təqdim olunub. Nöqsanlar aşkarlanan və bu cür halların baş verməsinə birbaşa olaraq cavabdeh olan şadlıq evləri sahiblərinə rəsmi xəbərdarlıqlar olunub. Amma təəssüf ki hələ də öz işinin məsuliyyətini dərk etməyən sahibkarlıq subyektlərinə rast gəlinməkdədir”.**

M.Piriyev onu da qeyd edib ki, aşkarlanan nöqsanların təhlili bər-bəzəkli zallara, daha çox müştəri cəlb etmək üçün reklamlara diqqət ayıran bəzi şadlıq evləri sahiblərinin əsas diqqət olunmalı məsələyə biganədirlər: Və sitat: **“Sözügedən sahibkarlar məhsulların emal sahələrinə, xammalın qəbulu zamanı təhlükəsizlik tələblərinə, mətbəxlərə, sanitar gigiyenik vəziyyətə, işçi heyətin sağlamlığına dırnaqarası yanaşırlar. Təəssüf ki, bu cür yanaşma sonda xoşagəlməz halların yaşanmasına, kütləvi zəhərlənmələrin baş verməsinə şərait yaradır. Bu sahədə ictimai nəzarətin gücləndirilməsi üçün istehlakçılar da diqqətli olmalı və xidmət zamanı hər hansı şübhəli məqam və ya nöqsan gördükləri zaman Agentliyin 1003 Qaynar xəttinə məlumat verməleri xahiş olunur. Agentlik tərəfindən bu istiqamətdə nəzarət və tənzimləmə tədbirləri bundan sonra da qətiyyətlə davam etdiriləcək”.**

Beləliklə, “Venetsiya”nın zəhərlənmə “aksiyası” toya gedən əhalimizə son xibərdarlıq olmalıdır. Nə yaxşı ki, ortada ölüm halları yoxdur...

**A.Məmmədli**

# İlham Əliyev: Tarix yazan sərkərdə

*İlham Əliyevin hakimiyyətə gəldiyi zaman qarşısında duran ən ümdə vəzifə Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad olunması idi*

**Tarix boyu Azərbaycan xalqı çətin dövrlərdən keçmişdir. Ölkəmiz müxtəlif dövrlərdə qonşular tərəfindən hücuma məruz qalmış və torpaqlarımız işğal olunmuşdur. Rusiya imperiyası dövründə Qarabağda artıq ermeniləşdirmə siyasəti aparılmış, azərbaycanlılar müxtəlif ərazilərə sürgün edilmişdir. 1988-1994-cü illər ərzində - Birinci Qarabağ müharibəsi dövründə xalqımız on bir mindən çox şəhid vermiş, bir milyondan çox soydaşımız öz doğma torpaqlarından didərgin salınmışdır.**



Dağlıq Qarabağ və ətraf yeddi rayon Ermənistan tərəfindən işğal olunmuşdur. Bu çətin dövrdə xalq Heydər Əliyevin hakimiyyətə gəlməsini tələb etdi. Ulu Öndərin hakimiyyəti dövründə müstəqilliyimiz möhkəmləndi və bir sıra beynəlxalq qurumlara üzv olunmuş respublikamız bir çox sahədə inkişaf dövrünə keçmişdir.

İlham Əliyevin hakimiyyətə gəldiyi zaman qarşısında duran ən ümdə vəzifə Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad olunması idi. ATƏT-in Minsk Qrupu başda olmaqla digər bir sıra beynəlxalq qurumların ciddi iş görməməsi, Ermənistanın tez-tez təxribatlar törətməsi Vətən müharibəsinin başlanmasına gətirib çıxartdı. Prezident İlham Əliyev hakimiyyətinin ilk vaxtlarından hərbi gücün möhkəmlənməsi üçün bir çox sahədə dəyişikliklər etdi. Cənab Prezidentin məqsədyönlü siyasəti nəticəsində ordumuz daha güclü və müasir texnologiyaya sahib oldu, hərbi sənaye hesabına Azərbaycanda mindən çox hərbi təyinatlı məhsullar istehsal edilməyə başlandı. Yaxın ölkələrlə hərbi sahədə əməkdaşlıq həyata keşirildi, birgə təlimlər və tədbirlər gerçəkləşdi.

> *"Dövlətləri dünyaya tanıdan onların mədəniyyəti, təbii sərvətləri ilə yanaşı, dünya siyasətində mühüm rol oynayan fenomen şəxsiyyətləridir"*

Uzun illər münaqişənin sülh yolu ilə həll etmək üçün danışıqlar aparılırdı. Amma çox təəssüf ki, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi yalnız kağız üzərində qalmışdır. Artıq səbir kasası dolmuşdur. 2020-ci ilin 27 sentyabr tarixində Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobudcasına pozaraq, Azərbaycan silahlı qüvvələrinin cəbhə xətti boyunca yerləşən mövqelərini, həmçinin Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərini iriçaplı silahlar, minaatanlar və artilleriyadan istifadə edərək intensiv şəkildə atəşə tutmaqla Azərbaycana qarşı yeni bir təcavüz aktına başlamışdır. Hücum Azərbaycanın mülki əhalisi və hərbi qulluqçuları arasında itkilərə səbəb olmuşdur. Çoxsaylı evlərə və digər mülki infrastruktura ciddi ziyan vurulmuşdur.

Müzəffər Ali Baş Komandanımız İlham Əliyev Azərbaycan xalqının illərlə gözlədiyi "İrəli!" əmrini verdi. Nəticədə, cəbhə xətti boyunca əks-hücum əməliyyatına başlanıldı. Döyüşlərin başladığı andan etibarən xalqımız həyəcan içində cənab İlham Əliyevin çıxışlarını gözləyirdi. Kiçikdən-böyüyə hamı işğaldan azad olunmuş rayonlarımızın, kəndlərimizin adını eşidib sevinc göz yaşları tökürdü. Xalqımız Ali Baş Komandanın ətrafında sıx birləşib, dəmir yumruq kimi bir olaraq, həm ordumuzun, həm də xalqımızın gücünü, eyni zamanda cənab İlham Əliyevə olan inancını bütün dünyaya göstərdi. 44 gün ərzində Azərbaycan torpaqları işğaldan azad edildi. 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən antiterror tədbirlərinin məntiqi yekunu isə Xankəndidə Dövlət Bayrağımızın dalğalanması oldu.

Bütün bunlar ilk növbədə möhtərəm prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu illər ərzində apardığı uğurlu siyasət və həyata keçirdiyi işlər nəticəsində mümkün oldu. Artıq Azərbaycanın amalı, niyyəti daha səmərəli, faydalı işlər görməyə yönəlib. Ötən illər ərzində Azərbaycan gücləndi, dünya miqyasında özünə layiq yerini tutdu. Qarabağ və Şərqi Zəngəzurda gözəlliklər yaratmaq, bərpa-quruculuq işləri həyata keçirmək, dünyaya sülh, rifah və təhlükəsizliyi üçün çalışmaq əsas meyardır. Ulu Öndərin və Qarabağın azadlığı uğrunda canını əsirgəməyə şəhidlərimizin ruhu şaddır!

Dövlətləri dünyaya tanıdan onların mədəniyyəti, təbii sərvətləri ilə yanaşı, dünya siyasətində mühüm rol oynayan fenomen şəxsiyyətlərdir. Məhz belə fenomen şəxsiyyətlərdən biri də tarixə adı "Tarix Yazan Sərkərdə" kimi yazılan cənab Ali Baş Komandanımız İlham Əliyevdir. Dövlət başçımız müsahibələrində Azərbaycan həqiqətlərini, tarixi ədaləti bərpa etməyimizi vətənpərvərlik və diplomatik peşəkarlıqla bəyan edirdi. O, düşməni həm döyüş meydanında, həm də siyasi arenada diz üstə çökdürdü.

**(Davamı 10-cu səhifədə)**



## Hacı Qalib milyarder Fərhad Əhmədovun 700 min dollarını neyləyib?

**Milyarder kimi tanınan Fərhad Əhmədov maraqlı layihəyə könül verib... Eşidəndə adamın inanmağı gəlmir. Əsl sensasiyadır! Bu barədə jurnalist Bahəddin Həzi maraqlı status paylaşıb. Sitat: "Milyarderimiz də belə getdi. Fərhad Əhmədovu deyirəm. Onu qiyabi tanıyıram; şəkildə, televizorda görmüşəm. Qarşıma çıxsa, Allah eləməsin, desəm: "Fərhad müəllim yeni kitabım nəşriyyatdadır, kömək edin, 1000 nüsxə çap etdirib, havayı paylayacam oxuculara", cavabında oturub ağlayacaq ki, əli aşağıdır, krizisdir. Amma 1 milyon dolları gətirib gör kimə və nə üçün verib?!**

Bəli, milyarder o pulu Şeyxin oliqarx qudası Hacı Qalib Salahzadəyə verib ki, camaatı Həcc ziyarətinə aparsın. Hacı da xəsislik eləməyib: milyonun üstündən 300 min dolları götürüb, bir xeyli adamı aparıb Həccə. Özü belə deyib. Ancaq qalan 700 min dollar hara gedib? Bu haqda məlumat verməyib.

Heç olmasa, o bir milyondan bir yoxsul tələbənin təhsilhaqqını verib?! Yox! Avropaya, ya da nə bilim, Amerikaya, Yaponiyaya - elmi konfransa gedəsi bir gənc alimin uçuş biletini alıb?! ! Yenə yox! Bir əlaçı məktəbliyə heç olmasa bircə dənə tablet bağışlayıb?! Yox e, yox! Bəlkə bir rəssamın sərgisinə əl atıb?! Haşa!

Qısası, elmə, ədəbiyyata mədəniyyətə, sənətə deyil, ətalətə, cəhalətə dəstək verib. Millətin gözünü açmağa yox, kor eləməyə həmişə pul tapılır.

Milyarderə bax da sən!

Bu cür arxaik təfəkkürlü adamların milyarder olması özü ən böyük ədalətsizlikdir. Onun düşüncəsində millətin lokomotivi Hacı Qalibdir. Şair demişkən: "Sahibi-zərdə kərəm yoxdur, kərəm əhlində zər"

Paraq Hannanın "Yeni orta əsrlər" əsərini bir daha xatırladım.

Professor Saleh Məmmədovun ömrü uzun olsun! Bu mövzuda da çox doğru fikirlər söyləyir. Düz deyir...".

Professor Saleh Məmmədov nəyi düz deyir, bu barədə növbəti yazıda qeyd ediləcək...

**A. Məmmədli**

# Hər yağan yağışın girovuna çevrilən Bakı və bakılılar...

*"Yenə bayırda yağış yağır. Yenə əksəriyyət qayğılanır: görəsən, uşağı məktəbə, bağçaya necə aparacam - yollar açıq olacaqmı, tıxac probleminə görə işə gecikib yenə də rəhbərlikdən tənbeh eşidəsi olmayacağam ki, evimin həyətinə yağış suları dolmayacaq ki, kanalizasiyalar dolub-daşıb küçələri keçilməz hala gətirməyəcək ki?! Və sair və ilaxır"*



**Əslində isə yağışın yağması bizi bu qədər əndişələndirməməlidir. Təbiət öz işin görür - bahar fəslinin olmazsa olmazı yağışdır! Göydən bərəkət yağır!**

**Amma biz yağışın yağmasaına belə sevinə bilmirik" Səbəbi məlumdur".**

Bəli, ötən günlərdə bir neçə saat ərzində həmin bu məlum səbəblərə görə sevə bilmədiyimiz yaz yağışına görə Bakının magistral yolları, küçələri, yeraltı keçidləri, bəzi körpülər, eləcə də bir çox sahələr tamamilə iflic olub desək, heç də yanılmarıq.

Dəhşətlisi isə odur ki, əksər ərazilərdə, hətta yağış suyunun axması üçün drenaj xətləri yox dərəcəsindədir.

Bir çox telekanalların xəbər proqramlarında səslənən fikirlərə görə, paytaxt Bakının bəzi ərazilərində mərkəzləşdirilmiş kanalizasiya sistemi yoxdur. Belə bir xoşagəlməz hal isə sözün həqiqi mənasında biabırçılıqdır. Daha nə deyək ki?! Görəsən, nə ad verək olar bəzi məmurların məsuliyyətsizliyinə görə yağışdan sonra yaranan bu biabırçılığa, bu utancverici hallara?

Bir çox fərdi yaşayış evlərini, həmçinin vətəndaşların həyətyanı sahələrini yağış suyu basıb, sərnişin daşıyan avtobusların salonu yağan yağış nəticəsində yolun, küçənin suyu ilə dolub, əksər yollar çox keçilməz olaraq gölməçələrə dönüb.

Bəs belə günlərdə Bakının və Bakıətrafı kəndlərin sakinlərinin çarəsizcə boyun əydiyi bu biabırçı vəziyyətə görə kim cavab verməlidir? İllərdir vətəndaşların dözüdüyü bu problemləri kim çözməlidir?" Kimdir bunun cavabdehi, günahkarı?..

Uzun illərdir yüksək vəzifə kreslosunda əyləşən məmurlar, bəlkə hansınızsa bu sualı cavablandırasınız?

Çox-çox təəssüflər olsun ki, işinə səhlənkar yanaşan hansısa məmur vəzifəsindən azad edilmir, yaxud da cavabdeh olduğu işinə çox məsuliyyətsiz yanaşan hər hansı bir vəzifəli şəxsə, hətta töhmət də verilmir.

Paytaxt Bakıda intensiv yağan bir neçə saatlıq yağışın törətdiyi fəsadlar bir daha sübut edir ki, Bakı Şəhər İcra Hakimiyyətinin fəaliyyətində çox böyük nöqsanlar var.

Şair-jurnalist kimi düşünürəm ki, Bakı Şəhər İcra Hakimiyyətinin Başçısı hörmətli Eldar Əzizov paytaxt Bakıda, eləcə də Bakıətrafı qəsəbə və kəndlərdə baş vermiş bu biabırçı, utancverici, xoş olmayan hallarla bağlı nə fikirləşir bəs?

Sözün bitdiyi andı!

**P.S. Bir sözlə, Bakı qışa, qara, yağışa heç vaxt hazır olmur. Səbəb nədir axı? Bilən varmı?**

**XATİRƏ ƏZİZ Rəhimli**
**şair-publisist**

# "İcra məmuru Vadim Əliyev qanunları saya salmırsa"...

## Şikayətçi Şahverənov Namik Natik oğlu Abşeron rayon icra və probasiya şöbəsindən ədliyyə naziri Fərid Əhmədova şikayət yazdı"

**Bakı şəhəri sakini Şahverənov Namik Natik oğlu Abşeron rayon icra və probasiya şöbəsinin Icra məmurunun qanunsuz hərəkətlərindən və ya hərəkətsizliyindən Azərbaycanın ədliyyə naziri Flərid Əhmədova şikayət məktubu ünvanlayıb. Surəti "Təzadlar" qəzetinə ünvanlı şikayətdə deyilir:**



-Çox hörmətli cənab nazir! Bildirirəm ki, mən-Şahverənov Namik Natik oğlu, məhkəmə qətnaməsi ilə təsbit edilmiş hüquqlarımın icrasının icra məmurunun qanunsuz hərəkəti və hərəkətsizliyi səbəbindən uzun müddətdir təmin olunmur. İcra məmuru Vadim Əliyev hər dəfə bir bəhanə uydurur, qanuni məhkəmə qərarının icrasına imkan vermir.

Bildirirəm ki, Bakı Şəhər Nizami Rayon Məhkəməsinin 22.08.2017-ci il tarixli qətnaməsi ilə övladımla ünsiyyət haqqım tanınmışdır. Abşeron Rayon Məhkəməsinin 08.01.2024 tarixli e-2(012)-95/2024 saylı qətnaməsi bu hüququ bir daha təsdiqləmiş və övladımla görüş müddətləri dəqiq müəyyən edilmişdir. Lakin borclu tərəf davamlı olaraq məhkəmə qətnaməsinin icrasına mane olmuş, icra məmuru Vadim Əliyev isə qanunun tələblərinə zidd olaraq bu qanunsuzluğa göz yummuşdur. Hətta dəfələrlə şahidiyəm ki, icra məmuru qəsdən bu problemə şərait yaradır. Bunun üğün Vadim Əliyev bir neçə dəfə mənə bildirib ki, qətnaməyə əlavə izahat tələb olunur. Lakin bu süni bəhanə də Abşeron Rayon Məhkəməsinin 07.05.2024-cü il tarixli və Sumqayıt Apellyasiya Məhkəməsinin 27.06.2024-cü il tarixli qərardadları ilə təkzib edilib, birinci instansiya məhkəməsinin məlum qətnaməsinin icrası ilə bağlı əlavə izaha ehtiyac olmadığını açıq şəkildə təsdiqləmişdir.

Beləliklə, İcra məmuru Vadim Əliyev borclunun diqtəsi ilə və məqsədli şəkildə qətnamənin icra edilməsinə qəsdən mane olmaqla, əksinə, borcluya qarşı da heç bir inzibati tədbir görməmiş, indiyədək bir dəfə də olsun məcburi icra mexanizmlərini tətbiq etməmişdir.

**Cənab nazir!**

Onu da qeyd edim ki, 14 oktyabr 2024-cü il tarixdə icra məmurunun hərəkətsizliyi ilə bağlı məhkəməyə müraciət etmişəm. Məhkəmənin 28.11.2024-cü il tarixli, 8(012)-514/2024 saylı qətnaməsi ilə icra məmurunun hərəkətsizliyi qanunsuz hesab edilmişdir. Məhkəmə qərarında bir daha uşağımın mənə öyrəşməsi üçün psixoloji yardım göstərilməsinə şərait yaradılmalı olduğu bildirilsə də, icra məmuru Vadim Əliyev bu müddəanı qərəzli şəkildə yerinə yetirməmiş, öz təşəbbüsü ilə "Ümidli Gələcək" ictimai birliyinə müraciət etmiş, lakin iki ay sonra məlum olmuşdur ki, bu təşkilatda psixoloq yoxdur. Mən tanıdığım ixtisaslı psixoloqun yardım göstərə biləcəyini bildirsəm də, icra məmuru bu təklifimi də əsasız olaraq və qəsdən rədd etmişdir. Hesab edirəm ki, İcra məmurunun bu addımları qətnamənin icrasına mane olmaq məqsədi güdür və borclu tərəfin mənafeyinə uyğun hərəkət etdiyini göstərir.

Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsinə əsasən, məhkəmə qərarlarının icrası məcburidir. Eləcə də "İcra haqqında" Qanunun 12.1, 82.1, 82.3, 26-cı maddələrinə əsasən, icra məmuru məhkəmə qətnaməsinin icrasını təmin etməli və borclunun icranı pozması halında onu qanunda nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb etməlidir. "İcra məmurları haqqında" Qanunun 11-ci maddəsinə əsasən, icra məmurları öz hərəkət və hərəkətsizliklərinə görə məsuliyyət daşıyırlar.

Cənab nazir, Sizdən xahiş edirəm, Abşeron Rayon İcra və Probasiya Şöbəsinin icra məmuru Vadim Əliyevin qanunsuz hərəkətləri və hərəkətsizliyi araşdırılsın və barəsində qanuni tədbirlər görülsün. Qətnamənin icrasını süni şəkildə uzadan və qanunsuz şəkildə borclunun mənafeyinə xidmət edən icra məmurunun barəsində intizam tədbiri görülsün. Eləcə də məhkəmə qətnaməsinin icrası üçün icra məmuru borclunun məcburi icra tədbirləri ilə üzləşməsini təmin etsin və qanunun bütün mexanizmlərini işə salsın.

**Hörmətlə:**

**Şahverənov**
**Namik Natik oğlu.**

**REDAKSİYADAN: şikayətçi Şahverənov Namik Natik oğlunun redaksiyaya təqdim etdiyi məhkəmə aktları və digər sənədlər tərəfimizdən araşdırıldı və icra məmurunun qanunsuz hərəkətləri və hərəkətləri bir daha redaksiyanın Araşdırma Qrupu tərəfindən də təsdiqləndi. İnanırıq ki, bu problem tezliklə qanuni həllini tapacaq.**

**"Təzadlar"**



# DGK nə üçün yeni inzibati binaya köçmür?

## *İşin içində böyük iş varmış!*

**Multi Media Mərkəzinin rəhbəri Osman Gündüz bu və ya digər maraqlı suallara belə aydınlıq gətirir:**

-Uzun müddətdir ki, Dövlət Gömrük Komitəsinin inzibati binasının tikintisi başa çata bilmir. Azərbaycan reallığında olub ki, bir mərkəzi icra qurumunun hesabına tikilən inzibati binaya başqası sahib çıxıb. Odur ki, DGK-nın da hansısa qurumlarla birləşəcəyi fikirləri gündəmdən düşmürdü. Az qala sabiq sədr Səfər Mehdiyevin dövründən hazır olan binaya köçün ləngiməsi səbəbləri ilə maraqlandıqda müəmmalı bir mənzərə ilə rastlaşdım. "Qlobal Uptime" İnstitutunun rəsmi internet resursundan görsənir ki, sən demə, DGK yeni inzibati binada həm də Tier III səviyyəli nəhəng bir Data Mərkəz qururmuş. "Uptime" İnstitutu Data Mərkzələrin performansını, etibarlılığını və səmərəliliyini artırmağa yönəlmiş qlobal bir təşkilatdır. Data Mərkəzlərin dizaynı, tikintisi və fəaliyyəti üçün beynəlxalq səviyyədə qəbul edilmiş Tier Standartı da bu quruma məxsusdur. İndi bu qurum deyir ki, DGK Tier III standartlı data Mərkəz qurur. Maraqlı tərəf isə ondan ibarətdir ki, DGK-nın bu addımı Prezidentin Hökumət Buludu ilə bağlı Fərmanı ilə daban-dabana ziddir. Həmin Fərmana görə, səmərəlilik və optimallaşma, xərclərin azaldılması və təhlükəsizlik baxımından dövlət resursları vahid bir Hökumət Buludunda saxlanılmalıdır. Son zamanlar da dövlət büdcəsindən Hökumət Buludunun operatoru olan "AzİnTelecom" şirkətinə hökumətin Tier III səviyyəli Data Mərkəzinin inkişafı üçün yetərincə vəsaitlər ayrılıb. Elə bu günlərdə bu qurum, ölkədə 2-ci olan süni intellekt əsaslı "Superkompüter" Mərkəzinin qurulması ilə bağlı 7.5 milyonluq bir tender də elan edib. Yəni, görünən odur ki, Prezidentin məlum fərmanında qarşıya qoyulan optimallaşma və səmərəlilik nəinki əldə edilib, əksinə, dövlət büdcəsinin bu istiqamətdəki xərcləri daha da artıb.

Maraqlıdır ki, "AzİnTelecom" də, RİNN də bu məsələyə münasibət bildirməyib. Tier III standartı tələb edir ki, Data Mərkəzin mütləq backup (ehtiyat) Mərkəzi də qurulmalıdır. Yəqin bu yaxınlarda eşidərik ki, DKG Yevlaxda, yaxud Hacıqabulda daha bir Mərkəz də quracaq"

Nə deyək, xeyirli olsun!

Ümid edirəm Prezident fərmanlarının icrasına nəzarət edənlər də bu baş verənlərin fərqindədir"

**Osman GÜNDÜZ**

# "Happy Birthday", yoxsa Ad Günün Mübarək?

## Axı nə üçün Azərbaycan dilində oxumayaq?

**"Təzadlar" qəzetinin kollektivilə bir yerdə ad günümüzü qeyd edirdik. Gözəl bir restoran, xoş ab-hava, doğma üzlər... Amma təbrik zamanı qonşu masadan səslənən "Happy Birthday" mahnısı bu doğmalığın içində yad bir nöqtə kimi diqqətimi çəkdi. Və düşündüm: biz doğum günlərimizi belə xarici dillərdə qeyd ediriksə, milli kimliyimiz hara gedir?**

...Bəs bu sadəcə bir vərdişdirmi, yoxsa ana dilimizə qarşı diqqətsizliyin simvoludur?

Əslində isə, bu sualın cavabı elə öz mədəniyyətimizin içində gizlənir. Biz- Azərbaycan xalqı zəngin musiqi və poeziya ənənəsinə malikik. Elə "Ad günün mübarək!" ifadəsi özü belə kifayət qədər doğma, səmimi və melodik səslənir...

***

Bir gün bir uşaq bağçasının yanından keçirdim. İçəridəki uşaqlar səs-küylə kiminsə doğum gününü qeyd edirdilər. Qulaq kəsdirdim. "Happy Birthday to you..." səsləri havaya qarışmışdı. Fikrimdən tək bir sual keçdi: bəs bizim "Ad günün mübarək"imiz hanı? Niyə uşaqlarımızın qulağını indidən "Happy Birthday to you..." ilə doldururlar???

Artıq uzun illərdir ki, uşaq bağçalarında, məktəblərdə, restoranlarda və doğum günü tədbirlərində tanış səslər eşidilir: "Happy Birthday to you...". Əcnəbi ovqatlı bu mahnı bir çoxları üçün ad gününün ayrılmaz hissəsinə çevrilib. Bəs bu sadəcə bir vərdişdirmi, yoxsa ana dilimizə qarşı diqqətsizliyimiz???

"Happy Birthday to You" - dünyada ən çox ifa olunan mahnı-sədalardan biridir. Sadə melodiyası və universal mesajı ilə bütün yaş qruplarında qəbul olunur. Lakin bu məşhurluğun arxasında bəzi mədəni və musiqi baxımından tənqidə açıq tərəflər mövcuddur. Mahnının melodiyası olduqca sadədir - yalnız bir neçə notdan ibarət quruluşu var. Bu sadəlik, əlbəttə ki, onun yadda qalmasını və asan ifa olunmasını təmin edir, lakin eyni zamanda bədiilik baxımından zəif hesab edilə bilər. Mahnının nə melodik inkişafı, nə də harmoniya baxımından dərinliyi yoxdur. "Happy Birthday" mahnısı dünyanın hər yerində oxunsa da, onun bu qədər yayılması fərdi və milli ad günü ənənələrini arxa plana keçirir. Yerli musiqi formalarının əvəzində bu mahnının seçilməsi bəzən mədəni homogenləşməyə səbəb ola bilər.

***

"Axı nə üçün Azərbaycan dilində oxumayaq?". Bu sual təkcə bir dilin seçimi ilə bağlı deyil - bu, kimliyimizin, mədəniyyətimizin gündəlik həyatdakı yerinə dair bir çağırışdır. Ad günü - insanın doğumunun, ailə və dostları ilə birlikdə qeyd etdiyi ən şəxsi anlardan biridir. Bəs niyə bu qədər özəl bir günü başqa bir xalqın melodiyası və dilində qeyd edirik?

Azərbaycan musiqisi zəngin folkloruna, bayatılara, laylalara və xalq mahnılarına malikdir. Bu qədər gözəl musiqi irsimiz varkən, nəyə görə ad günü təbrikimiz "Happy Birthday to You" olmalıdır? Bəlkə də biz artıq öyrəşmişik, amma sual açıq qalır: Axı nə üçün Azərbaycan dilində oxumayaq?

Bu məsələ təkcə mahnı ilə də məhdudlaşmır - bu, bir cəmiyyətin mədəni seçimi, dilə verdiyi dəyər və gələcək nəsillərə ötürdüyü mirasla bağlıdır. Uşaqlarımız ad günü mahnısını ingilis dilində öyrəndikcə, Azərbaycan dili bir addım daha arxa planda qalır. Halbuki ad günü təkcə şirin tort və rəngli şarlar deyil, həm də mədəniyyətin ötürülməsi üçün bir fürsətdir.

Elə buna görə də, biz, Azərbaycan xalqı, zəngin musiqi və poeziya ənənəsinə malikdir və elə "Ad günün mübarək!" ifadəsi özü belə kifayət qədər doğma, səmimi və melodik səslənir. Hətta bəzi müğənnilərimiz bu mövzuda gözəl mahnılar da ifa ediblər. Bəlkə daha populyarını yazıb ifa edək?! Burada məsələ təkcə mahnıda deyil, ümumi dil siyasətində və mədəni prioritetlərdədir. Uşaqlar bağçaya gedərkən, ilk ad günü sevincini yaşayarkən beyninə yerləşdirilən bu melodiyalar onların ilk musiqi yaddaşında iz buraxmış olar. Bu izin Azərbaycan dilində deyil, başqa dildə olması isə, dolayısı ilə milli kimliyin formalaşmasına dağıdıcı təsir edir.




***

Dil- sadəcə ünsiyyət vasitəsi deyil, o, həm də kimlik-dövlətçilik göstəricisidir. Gündəlik həyatımızda ana dilimizin yerini daraldan hər bir təzahür, fərqində olmadan bizi öz köklərimizdən uzaqlaşdırır. Bu səbəbdən, cəmiyyət olaraq bu məsələyə diqqət yetirməliyik. Uşaq bağçalarında, məktəblərdə və ictimai tədbirlərdə "Happy Birthday" mahnısının yerinə "Ad günün mübarək!" kimi milli versiyaların istifadə olunması təşviq edilməlidir. Əgər bu istiqamətdə maarifləndirmə aparılarsa, cəmiyyətin də bu dəyişikliyi dəstəkləyəcəyinə şübhə yoxdur.

Dilimizə sahib çıxmaq, öz musiqimizi, öz sözümüzü önə çəkmək - milli şüurun bir parçasıdır. Unutmayaq ki, "Ad günün mübarək!" demək də bir mədəniyyətdir-dövlətçiliyə, xəlqiliyə-türklüyə sahiblikdir!

**Elşad FƏRMANOGLU**



# "Meyvəli" gömrük məntəqəsində nə baş verir?

## Şikayətçi Mahmudov Vüqar Bayraməli oğlunun başına gələnlər əsl komediyadır...

**Bakı şəhər sakini Mahmudov Vüqar Bayraməli oğlu «Təzadlar" qəzeti redaksiyasına göndərdiyi şikayət məktubunda Dövlət Gömrük Komitəsinin «Meyvəli" Gömrük məntəqəsi kimi tanınan qurumda başına gətirilənlərdən şikayətçidir. Məsələ ondadır ki, onu aldadanlar barədə Qaradağ rayon Polis İdarəsində təhqiqat da aparılıb, lakin müstəntiq ona qarşı qanunsuz əməllər törətmiş şəxsi istintaqa cəlb etsə də, sonradan müəmmalı şəkildə həmin şəxs sərbəst buraxılıb, şikayətçi tərəfə isə heç bir prosessual cavab verilmədən.**

Şikayətçinin Azərbaycan daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova ünvanlı şikayətinin surətini redaksiyamıza təqdim edib. Əvvəlcə onun özü ilə əlaqə saxladıq və məlum oldu ki, bizə müraciətinə səbəb isə odur ki, dəfələrlə Qaradağ RPİ-nin rəhbərliyinə, eləcə də DİN-nin 102 xidmətinə şikayət etsə də, heç bir tədbir görülməyib.

Həmçinin şikayətçi Mahmudov Vüqar Bayraməli oğlu redaksiyaya dəvət edildi və o, başına glənləri nəinki müvafiq maddi sübutlarla təsdiqlədi, həmçinin bir sıra cərt ittihamlarını qeyd etdi, hansı ki, bu xüsusatların aidiyyəti dövlət orqanlarında araşdırılmasına zərurət vardır. Bu barədə sonra məlumat veriləcək.

***

Beləliklə, şikayətçi Mahmudov Vüqar Bayraməli oğlu cənab nazir Vilayət Eyvazova ünvanlı müraciətində yazır:

Azərbaycan Respublikasının daxili işər nazir, general-polkovnik cənab Vilayət Eyvazova!

Bildirirəm ki, hazırda xəstə anamla birlikdə yaşayıram. Vəziyyətinin ağırlığı səbəbindən iki alı təhsilim və dövlət idarəsində işim olmasına baxmayaraq ərizəmlə işdən çımağa məcbur oldum. İstədim ki, özümü və anama baxmaq üçün Dübaydan bir avtomobil gətirib taksi kimi fəaliyyət göstərim. Azərbaycana sifarişlə gətizdirdiyim «Toyota Corolla Filder" markalı avtomobilin "Meyvəli" bazarın yanındakı gömrük məntəqəsində sənədləşdirmək üçün «Tik tok" vasitəsilə tanış olduğum Hacıyev Elşən Namiq oğlu ilə əlaqə qurub avtomobilimin gömrük və DYP işlərinin rəsmiləşdirilməsində köməklik göstərməsini xahiş etdim. O bu işin daha tez və sərfəli qiymətə həll edilməsi üçün gömrükdə söz və nüfuz sahibi olan, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, ev 60, mənzil 30-da yaşayan Babayev Eyvaz İman oğlu ilə əlaqə saxlamağı məsləhət gördü. Mən Eyvazla telefonda danışıb görüşmək istədim. O isə bidirdi ki, mənim adamım Sadıxzadə Aslan İlqar oğlu ilə görüş. Mənə həmin şəxsin telefonunu verdi və dedi ki, razılaşdığımız pulları ona ver. Razılaşdım və sbahı günü, yəni 26 mart 2025-ci il tarixində "Meyvəli"dəki gömrüyün həyətinə gəlib Eyvazın dediyi 6800 manat pulu sayıb makler qrupunun digər üzvü olan Sadıxzadə Aslan İlqar oğluna kameraların altında ona verdim. Əlavə olaraq 500 manat da Eyvaz Babayevin bank kartına köçürmüşəm. Aprelin 1-də mənə məlum oldu ki, verdiyim pullar gömrük sənədləşməsi üçün köçürülməyib və birbaşa mənbimsənilib. Mən DİN-nin 102 Xidmətinə maklerlərlə bağlı şikayət etdim. Şikayətim ərazi aidiyyatı üzrə Qaradağ Rayon Polis İdarəsinin 10-cu PB-də təhqiqatçı, polis mayoru Cəmşid Əliyevin icraatına verildi. Bölmədə oldum, izahat yazdım və qısa müddətdə nağdı pulu verdiyim Sadıxzadə Aslan Yasamal rayon ərazisində saxlanılaraq PB-nə gətirildi. Təhqiqatçı onun barəsində cinayət işinin açılmasını tövsiv edən qərar qəbul edərək istintaq araşdırılması üçün materialları Qaradağ RPİ-nə göndərdi. İstintaq Şöbəsinin müstəntiqi, polis mayoru Elnur Həsənov (Nehrəmli) mənə qarşı 6800 manat pulumu alaraq mənimsəmiş Sadıxzadə Aslanla ilə gizli sövdələşmə edərək onu azadlığa buraxdı. Səbəbini soruşduqda isə cavab verir ki, biz bu işdə əsas rəhbər olan Babayev Eyvazı tapıb istintaqa cəlb etməliyik ki, sonra Aslanı da həbs edək. Guya Aslan izahatında bildirib ki, o Vüqardan, yəni məndən aldığı 6800 manat pulu Eyvaza verib. Polis mayoru Elnur Həsənov da dələduzun sözünə inanıb onu azad edib və guya Eyvazı axtarmaqla işi qeyri-müəyyən vaxtadək dondurub. Guya əsas adam Eyvazdır və onu tuta bilmirlər və s. Halbuki, mən pulu Aslana vemişəm. Eyvaz nə vaxtsa istintaqa gəlsə də yazacaq ki, mən zərəçəkmiş Vüqardan əlbəəl bu pulu almamışam. Özü də, təhqiqatçı Cəmşid Əliyev mənə etiraf edirdi ki, Eyvaz-Aslan qruplaşması məndən əvvəl daha 5 nəfərə də ümumuilikdə 43000 manat ziyan vurub, pullarını sənədləşmə işləri görmək adı altında mənimsəmişdir və həmin şəxslər də bu dəstədən şikayətçidir. Beləliklə, hazırda Eyvaz Babayev axtarışdadır.

Cənab Nazir! Şəxsən apardığım araşdırmalardan mənə məlum olmuşdur ki, Eyvaz Babayev bizim kimi sadə adamlara özünü həmişə «Rəfi" kimi təqdim edir və ona məxsus 050-7787579 nömrəsi yeni "müştərilərə" daima açıqdır. Eləcə də dələduz qrupun digər üzvləri olan Aslan və Elşən olmaqla. Nəticəyə gəlirik ki, bu dələduz qrup hazırda da gömrüyün ərazisində öz qanunsuz əməllərini yeni-yeni adamlar tapmaqla davam etdirirlər. Və onlara "qaşın üstə gözün var" deyən kimsə yoxdur. Onlar da bu cəzasızlıq mühitindən bəhrələnərək ictimai təhlükəli şəxslər kimi qanunsuz əməllərini davam etdirməkdədirlər. Nəticədə mən də bu dələduzlara ayrı-ayrılıqda verdiyim 6800 və 500 manat olmaqla yanaşı, avtomobilimin sənədləşməsi üçün də əlavə 1800 manat dəbbə pulu və avtomobilimin dayanacaqda saxlanmas üçün günü 10 manatdan olmaqla 190 manat əlavə ziyana da düşmüşəm.

**Cənab Nazir!**

Sizə müraciət edərək çox xahiş edirəm ki, avtomobilimin sənədləşməsi üçün məcbur olub Eyvaz-Aslan qruplaşmasına verdiyim 7300 manatın qaytarılması, eləcə də onların ictimai təhlükəli fəaliyyətinin qarşısının alınması üçün Qaradağ rayon Polis İdarəsinin rəhbərliyinə tapşırıq verilsin. Eləcə də şəxsən bu işdə hərəkətsizlik edən müstəntiqi Elnur Həsənovun barəsində tədbir görülsün. Əvvəlcədən Sizə dərin minnətdarlığımı bildirirəm.

**REDAKSİYADAN: əməkdaşımız hazırda Qaradağ RPİ-nin məsul rəhbər şəxsləri ilə əlaqə saxlamaqdadır. İnanırıq ki, bu problem tezliklə öz qanuni həllini tapacaq, vətəndaşın pozulmuş hüquqları bərpa ediləcək.**

**"Təzadlar"**

# NƏĞMƏKAR ANANIN OĞLUNA VƏSİYYƏTİ

*Xalq artisti, əvəzsiz səs sahibi, unudulmaz sənətkar Şövkət Ələkbərovanın, ömrünün son günlərində, ağır xəstə olmasına baxmayaraq, musiqisiz sonuncu dəfə oxuduğu iki mahnı, Qu quşunun sonuncu nəğməsi kimi, hələ də yaddaşımdadır...*

**1993-cü ilin soyuq qış günü idi. İşdən çıxıb yol maşınıyla evə gedirdim. Bayırda şıdırğı yağış yağırdı. El dilincə desək: elə bir yağış ki, "tut ucundan göyə çıx!..". Silicilər maşının qabaq şüşəsini silib təmizləməyi çatdırmırdı. Yol boyu çox həyəcan keçirirdim... Yaxşı ki, sürücü naşı deyildi. Yoxsa, bu cür yağmurlu havada qəza qaçılmaz ola bilərdi... Sürücü maşını binamızın qarşısında dayandırdı. Blokun ağzında iki nəfər məni saxladı. Onlar mənimlə salamlaşdılar. Biri dedi:**

- Doktor, haqqınızda eşidib gəlmişik. Sizi tanıyanlar dedilər ki, klinikada cərrah işləməklə bərabər, ev şəraitində də sünnət edirsiniz.

Dedim:

- Bəli, elədir ki, var.

Tanış olduq, öyrəndim ki, onun adı Bəşirdir. (O, mənim adımı haqqımda məlumat verən dostlardan öyrənmişdi). Dedi:

- Doktor, Fuad adlı aman-zaman bir oğlum var. Onu bu gün sünnət etmək lazımdır.

Dedim:

- Əvvəla, Allah mübarək eləsin! İkinci də, sünnət havası deyil axı... Görmürsünüzmü, sel-su adamı aparır!.. Qaçhaqaçdı bəyəm? Gün çıxsın, yer-yurd da bir özünə gəlsin, eləyərik.

Bəşir dedi:

- Həkim, havanın yağışlı, ya da qarlı olması bizim qərarımızı poza bilməz! Yerin altı üstünə çevrilsə də, oğlumun sünnəti bu gün olmalıdır!!! Onu məhz bu gün sünnət etdirməyimin səbəbi var. Belə ki, dünən anam can verirdi... Həkimlər sübhədək onun keşiyində dayanıblar. Sağ qalması üçün dəridən-qabıqdan çıxıblar... Anamın qapanmış gözləri səhərə yaxın açıldı... Elə bildim ki, yuxu görürəm... Onu qucaqlayıb, üzündən öpdüm. Dedim:

- Allah, sənə şükür!..

Anam yorğun gözləri ilə mənə baxaraq dedi:

- Bəşir, bu gecə ömrümün son gecəsi idi. Bir təhər Əzrayılın əlindən çıxdım!.. Üzümüzə gələn gecəyə isə, ümidim yoxdur... Sənə bir vəsiyyətim var: nəvəm Fuadın kiçik toyunu görüm, sonra ölüm... Xahiş edirəm, bu vəsiyyətimi bu gün yerinə yetir, ola bilər ki, sabaha çıxmayım... Bu nisgili özümlə aparmaq istəmirəm!..

Söhbətinin bu yerində Bəşir başını yana çevirib, nəmli gözlərini qurutdu. Mən baş verən olaydan xəbər tutdum. Bəşirin dərdinə şərik oldum. Anasının arzusunu yerinə yetirmək üçün, ordubadlılar demişkən, balaca Fuadın "təmizlik işi"ni təxirə salmadım. İldırımın nərə çəkməsini, yağış sularının şiddət göstərməsini nəzərə almadım. Gedib evdən içərisinə tibbi avadanlığımı yığdığım biksi götürüb gəldim.

Yola düşdük. Bəşirin maşını 8-ci kilometr qəsəbəsinin su basmış küçələrindən keçib, magistral yola çıxdı. Yağış səngimişdi...

Bəşirin maşını xeyli yol qət edəndən sonra, nəhayət, Bakımızın mərkəzində keçmiş K.Y.Voroşilov küçəsində köhnəliyin nişanəsi kimi dövlət tərəfindən qorunulub saxlanılan möhtəşəm bir binanın qarşısında dayandı. Qaranlıq düşmüşdü... Dirəklərdən asılan işığı öləziyən fənərlər, tindəki aptek - mənə o uzaq dövrü xatırlatdı. Bu yerdə rus şairi Aleksandr Blokun bir bənd şeiri yadıma düşdü:

**Ночь. Улица. Фонарь. Аптека.**
**Таинственный и тусклый свет.**
**Живи ещä хоть четверть века,**
**Всä будет так же, спасенья нет!..**

(Amma şükürlər olsun ki, bizim dövrümüzdə o köhnəliyin sonu oldu!..)

...Biz zəif işıqlandırımış geniş pillələrlə ikinci mərtəbəyə qalxdıq. Bəşir qapını bayırdan açdı. Bizi evin xanımı qarşıladı. Onunla salamlaşıb görüşdük. Balaca Fuadı da nəvazişlə dindirib, oxşadıq. Bu arada Bəşir qulağıma pıçıldadı:

- Doktor, Fuadikin "təmizlik işi"ni qurtaraq, sonra gedim mamaşanı gətirim. O, təzə mənzilindədir.

Bəşirin məsləhəti ürəyimcə oldu. Nənə gələnə qədər Fuadı sünnət eləmək istəyirdim ki, o - gəlib qan görməsin, əks halda əhvalı pisləşərdi... Düşündüyüm kimi də hərəkət etdim. Mən əməliyyatın hazırlıq etapını səhmana salıb, əsas işə başladım. Balaca Fuadı yerli keyləşdirmə altında, ağrısız sünnət etdim. Kirvəsi də atasının dostu idi.

Bəşir telefonla anasına gözaydınlığı verib, onu sevindirdi. Dedi:

- Anacan, hazırlaş, gəlirəm səni gətirəm. Səbrsizliklə gəlişini gözləyirik!..

Bəşir qapıdan çıxhaçıxda xanımına göstərişlər verməyi də unutmadı:

- Süfrəni yaxşı-yaxşı bəzəyin; mamaşanı götürüb, maşınla gəlirəm.



**Ramiz MÖVSÜM**

Evin xanımı gündüzdən hazırladığı dadlı təamları süfrəyə düzdü. Yalan olmasın, masanın üzərində can dərmanı vardı, barmaq qoymağa yer yox idi...

...Pilləkənlərdən gələn ayaq tappıltılarının səsinə Bəşirin həyat yoldaşı bayıra çıxdı. O, Şövkət xanımın pillələrlə yavaş-yavaş qalxdığını görüb, sevincək oldu:

- Şükür İlahi, mamaşa gəlir!.. - dedi.

Mən də bu şad xəbəri eşidib, qapı ağzına çıxdım. Gözlərimə inanmadım, gələn gözəl sənətkarımız Şövkət xanım Ələkbərova idi. O, sol əlindəki əsanı ayağına dayaq verməklə, sağ əliylə də oğlunun qolundan bərk-bərk yapışaraq, çətinliklə pillələri qalxırdı. Yanımda dayanan kirvədən soruşdum:

- Görəsən, bu nə müsibətdir, Şövkət xanımın başına gəlib?

O, qulağıma dedi:

- Zavallı qadın qızı Natellanın ölümünə dözmədi, neçə-neçə xəstəlik tapdı!.. Axırda da yıxıldı, qıçı sındı. Biçarə az qalmışdı dünən gecə əlimizdən getsin...

Şövkət xanımı qapının girəcəyində qarşıladıq. O, hər kəslə görüşüb öpüşdü, mənə isə əl verib dedi:

- Doktor xoş gəlmisiniz!

Dedim:

- Şövkət xanım, sizi də xoş gördük!..

O, dedi:

- Həkim, düz buyurursunuz, bugün mənim ən xoş günümdür! Əhdimə çatdım, nəvəm sünnət olundu!.. Deyin görüm, mənim Fuadikim necədir?

Dedim:

- Şövkət xanım, yaxşıdır. Tam arxayın olun!..

Biz söhbət edə-edə, balaca Fuadın çarpayısına yaxınlaşdıq. Şövkət xanım sevinc içində idi. O, çətinliklə də olsa, əyilib nəvəsinin hər iki üzündən öpdü və soruşdu:

- Ay kişi qırığı, müsəlmançılığın mübarək olsun! De, görüm necəsən?

Fuad dedi:

- Nənəcan, yaxşıyam, sağ ol!

Şövkət xanım bu arada çantasından çıxardığı qızıl sikkələri nəvəsinin balıncının altına qoydu və dedi:

- Fuadik, səni bir daha təbrik edirəm!..

O, da dedi:

- Sağ ol, nənə, yüz yaşa!..

...Məclis başladı. Hörmət əlaməti olaraq, Şövkət xanımı məclisin baş tərəfində əyləşdirdilər. Ləziz yeməklər süfrəyə gəldi. Badələr cingildədi. Birinci badələr səbəbkarın sağlığına qaldırıldı. Şövkət xanım da sevimli nəvəsinin sağlığına 50 qram konyak içdi. Ümumən, məclisdə xoş əhval-ruhiyyə yarandı.

Şövkət xanım dedi:

- Əzizlərim, bilirsiniz ki, səhnədən uzaqlaşmışam. Amma bu gün istəkli nəvəmin şad günü olduğundan, iki mahnı oxumağa çalışacağam.

O, çalğısız-filansız, "Dərələr" və "Gəl, səhərim" mahnılarını oxuyub qurtarandan sonra, dedi:

- Dostlar, istəmirəm bu mahnılarım axırıncı olsunlar, istəyirəm mahnılarım axarıncı olsun. Hər dəqiqə, hər saniyə səhnəyə çıxmaq ümidilə yaşayıram!..

Amma çox təəssüf ki, ölüm macal vermədi. Ecazkar səsə malik olan, böyük ustad sənətkarımız Şövkət Ələkbərova o hadisədən çox az müddət sonra, 7 fevral 1993-cü ildə gözlərini dünyaya əbədi yumdu...

Allah-Təala ona qəni-qəni rəhmət eləsin! Torpağı nurla dolsun!..

Mən özümü xoşbəxt insan sayıram ki, Şövkət xanım kimi dahi sənətkarın, sonuncu canlı ifasının, azsaylı dinləyicilərindən biri olmuşam!..

# İlham Əliyevə sədaqət andı...

## Yaxud, Azərbaycanımızı və dövlətimizi sevməyin nə demək olduğunu de-fakto anlayanlar üçün yazı...

**... 2019- su ildə əməkdaşımız Elçin Məmmədli ilə birlikdə Kiyevdə xidməti ezamiyyədə olarkən, yaxından tanış olduğumuz bloger-jurnalist Vitali Zelenski neçə gün əvvəl elektron poçtumuzabelə bir mesaj göndərmişdi: “Salam əzizim Asif və Elçin! Mən Kiyevdə yaşayan azərbaycanlılarla sıx təmasdayam, canlı söhbətlərimiz çox olur. Bu günlərdə onlara belə bir sual verdim: “Xarici ölkələrdə olan blogerlərinizin Azərbaycan rəhbərliyi barədə bu formada təhdid və təhqirlərini, erməni blogerlərin Paşinyan barədə bu formada olmasını görməmişəm. Niyə belədir, nə baş verir və bunu nə ilə izah edə bilərsiniz?”.**

...Çoxdan idi bu məzmunda qeydlərimi oxucuların diqqətinə çatdırmaq istəyirdim, kiyevli həmkarımızın bu sualı o vaxtdan formalaşmış qənaətimi, daha tez ortaya qoymuş oldu.

Bəli, hərdən YouTube-də xaricdəki blogerlərin videoları qarşıma çıxır. Vaxtım olanda izləyirəm, nədən və niyə o cürə sərt danışdıqlarının səbəbini bilmək üçün. Çox ağrılı və düşündürücü məsələdir.

Yeri gəlmişkən, dünən iş yerinə yaxın ərazidə, Bakı Apellyasiya Məhkəməsinin qarşısında keçmiş müdafiə naziri Rəhim Qazıyevlə rastlaşdım. Salamalaşdıq və ilk sözü də belə oldu: “Niyə siz jurnalistlər o söyüş blogerlərinə “Belə olmaz!” demirsiniz? Mən hakimiyyətə qatı müxalifətdəyəm, amma o cür təhqiramiz çıxışlarla qəti razı deyiləm və əgər əlimdə imkan olsa, o söyüşçüllərin dərsini özüm verərəm. Belə olmaz!” və s.

**Hamı görür və susur...**

...Rəhim Qazıyevin də nəzərdə tutduğu həmin blogerlərin, niyə o cürə yol tutduqlarının mahiyyətini qoyaq bir kənara. Bəllidir ki, onların bəzilərini Azərbaycandan qaçırdan və incik salan, bezdirib Avropaya yönəldən Prezident deyil, hansısa məmurdur, iş adamıdır, bir mənzili üç adama satan saxtakar MTK rəhbərləridir, qanunsuz qərar qəbul edən hakimlərdir və s. Bəs niyə hədəfdə İlham Əliyevdir??? Yaxud, niyə məmurun günahı ölkə rəhbərliyinə ünvanlanmalıdır? Lap açıq desək, niyə və nə üçün Prezidentin Sərəncamlarından vəzifə alan... bu məmurlar razı olurlar ki, onların əməllərinə görə Prezident bu cürə hədəfə alınır???

Azərbaycanın birinci xanımı bir mənzili üç adama satan saxtakar iş adamının fəaliyyətinə cavabdehdirmi?

Bəlkə prezident erməni faşizmi ilə müharibə və mübarizəni bir kənara qoyub, qanunsuz qərar qəbul edən hansısa hakimlərin fəaliyyəti ilə mübarizə aparmalıdır???

Yoxsa, prezident gedib hansısa nazirin, icra başçısının, polis rəisinin, baş həkimin, prokurorun, deputatın, işıq, qaz və suya rəhbərlik edənlərin yerinə işləməlidir?

**Məsələ belədir:** bəli, ölkədə problemlər var və çıxış yolu da yox deyildir, amma və lakin... Və onları istehsal edən isə, bəzi məmurlardır, iş adamlarıdır, şirkət, agentlik rəhbərləridir! Çoxsaylı məmurlarla canlı təmasım, münasibətim olduğundan, kimin kim olduğunu yaxşı bilirəm. Bu söylədiklərimi isə kimsə xoş və ya naxoş gəlməsi üçün indi deməm, bunları aprelin 8-də 32 yaşı tamam olacaq “Təzadlar” qəzetində həmişə yazmışıq və deyirik, buna görə bəzən məhkəmələrə çəkilmişik, indi də məhkəmə qalmaqalındayıq və s. Olsun! Tənqidçi jurnalistikanın günü belə də olmalıdır!

Prezidentə sədaqətli olmaq isə təkcə onun imzaladığı Sərəncamları



rahat kresloya yayxanıb bildiyin kimi yerinə yetirmək deyil! Bunları bilmək üçün daha kim olmaq lazımdır ki?!

Yaxud, Prezidentə sədaqətli olmaq, özünü istəkli göstərmək üçün kabinetin hər divarına, başının üstünə... iri portretini asmaqla da ölçülmür! Bu istək və sədaqətin ölçü vahidi- məmur vicdanında olan mütləq ədalətdir! O ədalət olmayanda isə, bilin, yerindən duran hər şeyə görə prezidenti günahkar görəcək! Bu aksiomadır! Elmin və cəmiyyətin qanunu, hökmü belədir!

***

**Sual verirəm:** Azərbaycanda YAP-ın təxminən 500 min üzvü var və hamısı da partiyaya qəbul edilərkən Prezidentə və partiyaya sədaqət andı içirlər! Yalan deyirəmsə, desinlər ki, elə deyil! Bəs YAP-ın sədri kimdir? Əlbəttə, Prezident! Onda sual edirəm: YAP-ın sədrinin üstünə gəlirlər, hər şeyə görə günahkar bilirlər və... 500 min YAP-çı isə susur? Niyə? Halbuki bu YAP-çıların hansısa birinə, iraq olsun, bir ağır söz desən, ya səni vurub öldürər, ya da məhkəməyə verib dərini boğazından çıxartdırar!

Sual aydın oldumu?! Savabını qoy YAP-çılar özləri versinlər!

***

**Başqa bir məsələ:** Sovet dövründə hərbi xidmətdə olanlar bilir, rusların tum çırtlama kimi “şirin” bir “mat” söyüşü var idi, bələkdə də bunu elə-belə deyirlər. Dil və qan öyrəşib! Təzə vaxtı bilmədən Azərbaycandan olan bizlərə bu cür dil uzadılanda, araya qan düşürdü və bir də bizə bu ifadələr ünvan edilməzdi!

***

...Ölkənin Birinci xanımı- statusuna görə, ölkənin “Mat Tereza”sı, yəni ANAsıdır! Kimlərsə onun üstünə gəlir, danışır və... Və sair! Azərbaycan cəmiyyətinə sual verirəm: hansı birimizin, iraq olsun, anasının ünvanına kimsə bilib-bilmədən ağır söz işlətsə, açıq deyirəm, yəqinki ciddi cəzalandırarıq! Düzdürmü?! Bəlkə yalan deyirəm? A kişilər, yuxarıda dedim, statusuna görə ANAmızı-ölkənin Birinci xanımını söyürlər, dinmirik, kütləvi surətdə susuruq! Niyə???

Başqa bir nümunə: Prezident- statusuna görə ölkənin sahibidir, yiyəsidir, ATAsıdır! Təkrar edirəm, söhbət şəxsdən yox, Prezidentdən gedir!

ATAmızı söyürlər, yenə də susuruq! Niyə???

Daha çox misal və nümunə çəkə bilərəm, amma məncə, söz yiyəsi sözünü götürmüş olar yəqin ki!

***

...İri ranqlı məmur tanıyıram, bir jurnalist onun barəsində yersiz ifadə işlətmişdi deyə, məhkəməyə verdirib başına min bir oyun açdırdı! Bu məmura vəzifə verən, etimad göstərən, etibar edən, hər cür şərait yaradıran Prezidentin üstünə gəlirlər, o isə susur! Niyə? Prezidentə sədaqət budurmu???

Adlarını sadalamağa nə ehtiyac: nazirlərimizin, o statuslu şirkət prezidentlərinin, o yekəlikdə digər iri ranqlı məmurlarımızın sayı “n” qədərdir. Onların biri haqqında mediada, sosial şəbəkələrdə xoşagəlməz bir söz, mənafeyinə toxunan ifadə işlətsən, səni zəlil günə salarlar! Amma sayı minlərlə olan bu məmura vəzifə-padşahlıq vermiş Prezidentə dil uzadanlara isə hamı baxır, görür, amma susur! Niyə???

***

...Mən YAP üzvü deyiləm, dövlətdən vəzifə almamışam və bu gündən sonra da almaq fikrində deyiləm. Hətta dövlətin MEDİA Agentliyindən iki ildir layihə də uda bilmirik, baxmayaraq ki, Azərbaycanda yeganə qəzet və ya saytıq ki, Qazaxıstanın, Qırğızıstanın rəsmi qəzetlərini “DQR” ifadələrinə görə təkzib etdirmişik, bu yazıları saytlarından sildirmişik. Avstraliya Parlamentinin “DQR” müzakirəsini hələ 2020-ci ilin müharibə gedən 8 oktyabr günlərində dondurmuşuq.

***

... Azərbaycan hakimi (Yasamal, Tahir İsmayılov) 2009-cu ildə peşə fəaliyyətimə görə dövlətin adından məni 1 il müddətinə azadlıqdan məhrum edən hökm verdi. Amma 1 gün sonra Bakı Apellyasiya Məhkəməsinin qərarı ilə bəraət alıb azad edilmişəm....

Eləcə də, 2016-cı ildə benzin tökülərək evim, bir neçə ay keçəndən sonra isə eyni üsulla şəxsi avtomobilim yandırılıb- kül olub, izi və adı bəlli cinayətkar isə hələ də tutulmayıb, DİN-də istintaq gedir... Mənə dəyən külli məbləğdə maddi və mənəvi ziyan da hələ ödətdirilməyib...

Nəhayət, dövlətimizdən haqqım olan nə fəxri ad, nə mənzil, nə də başqa şey almamışam. Amma bu dövlət mənə əlimi üzdüyüm yurdumu qaytarıb verib!

***

Bunları niyə deyirəm? Qoy hamı bilsin: bu yazdıqlarım Azərbaycan Prezidentinə- bu dövlətin rəhbəri olan İlham Əliyevə təmənnalı xidmət istəyinin məhsulu deyil. Sübutlar yuxarıda sadalandı! Bunlar külli Azərbaycanın və azərbaycanlıların uca və müqəddəs mənəviyyatının başağrısı olmuş ermənizmi ölkədən yox edən bir rəhbərə olan könül dəstəyimdir! Belə götürəndə, tabeliyində o qədər hüquq mühafizə orqanı olan Prezidentin hansısa dəstəyə nə ehtiyacı?! Amma və lakin...

Cavab: sən susursansa, dinmirsənsə, demək deyilənlərə şəriksən!!!

Yəqin ki, bu sətirləri oxuyanlar gördü ki, bir dəfə də olsun İlham Əliyevin adını məxsusi və təmtəraqlı çəkmədim... Amma mən ölkəni-Qarabağı, Azərbaycanı, o cümlədən mənim yurdumu 30 illik işğaldan qurtarmış, 30 il Azərbaycanda və xarici ölkələrdə aşağı olan başımızı dik tutmağı bizə yaşatmış, yurdumuzda 200 ildir kök salmış erməni faşizminin kökünü Qarabağdan birdəfəlik kəsmiş Prezidentdən danışıram!

Prezident- bu dövlətin- anamız Azərbaycanın atributudur! Adam da sözün böyük mənasında ANAsının atributunu təhqir edərmi?!

Axı dünya bizi müəyyən sosial problemləri olan bir ölkəni 30 illik işğaldan qurtarmış Prezidentlə- İlham Əliyevlə tanıyırsa, burdan-bura biz niyə İlham Əliyevin üstünə gələn milli diluzatmaları görməyək, tanımayaq, yaxşı mənada reaksiya verməyək, əksinə, hətta susaq?! Səbrli olun, bu susmağın fəlsəfəsini isə yazının sonunda biləcəksiniz!

***

Yeri gəlmişkən, az qala unutmuşdum, Milli Məclisin 125 deputatı var! Şəxsi mənafeləri korluq çəkəndə, maaşlarının 8-10 mindən 1-2 min manatlıq azaldılması məsələsi ortaya atılanda, az qalırlar özlərini şəhid etsinlər, göz yaşı axıtsınlar... Səsləri az qala dağları titrədən o 125 deputat, bəs niyə onları parlamentdə təbrik etmiş, xeyir-dua vermiş Prezidentin barəsində olan məlum addımlara-söyüşlərə susurlar???

***

Yuxarıda Rəhim Qazıyevlə eksklüziv söhbəti elə-belə xatırlatmadım. Azərbaycan Prezidentinə, Azərbaycanın Birinci xanımına qarşı Avropadakı bəzi mühacirlərimizin bəlli münasibtini göz önünə gətirəndə, təkrarən deməyə məcburam: bu- hakimiyyətə qarşı az qala düşmən münasibətdə olan Rəhim Qazıyevin münasibəti, bu isə nəslinə-kökünə, yeddi arxa dönənınə vəzifə, status, imtiyaz, deputatlıq verilmiş, kral şəraiti yaradılmış deputat və nazirlərimiz, şirkət prezidentlərimiz!

Mən hələ din xadimlərimizi demirəm: bəlkə Allaha xoş gedəndir ki, sənin kefiköklüklə dindarlıq edib ölülərlə məşğul olduğun ölkənin rəhbərinə dil uzadırlar, sən isə dindar olaraq susursan! Quranda - dində bələmi yazılıb, bələmi məsləhət görülüb ki, haqsızlığa susasan?!

***

...Hələ 15 il əvvəl mətbuatda Azərbaycan jurnalistikasını kurasiya edənlərə xitabən yazmışdım ki, Qənimət Zahidin, Azər Əhmədovun başına “restoran” oyunu açmaq, Xədicə İsmayılın evinə gizli kamera qoydurmaq onları məğlub etmə anlamına gəlmir! Onlara o yalançı, qohum-əqraba jurnalistlərinə edilən kimi, Jurnalistlər binasından ikiotaqlı mənzil versəniz, o birilərlə fərq qoymadan müəyyən tədbirlərə dəvət etsəniz, qılıncınızın qaşı düşərdimi?! Siz onlara o biriləri ilə fərq qoyanda, onlar da sizlərə tamam fərqli gözlə baxmağa süni məhkum edilmiş olurlar! O vaxt Qənimət Zahid bu fikirlərimə etirazvari yazmışdı ki, “Bəy, deyirsiz bizi də o biriləri kimi ələ alsınlar?!”. Dostcasına yazmışdım ki, söhbət ələ almadan getmir, ələ alınmadan da yox... Amma o fəxri adlar, mənzil və s. sizlərin də haqqıdır, mən hamıya eyni gözlə baxmanın, fərq qoyulmamanın fəlsəfəsinin nə demək olduğunu anlatmaq istəyirəm!

***

Nəhayət, gəlirəm mətləbə: bu yazıda deyilənlər və ya deyə bilmədiklərim, cəm halda işarə vurduğum mətləblər, o anlama gəlməsin ki, hamı Avropalı o bəzi mühacirləri qınasın, özlərinin dilində və üslubunda söysün, təhdid etsin və s. Əsla!

Mən demək istəyirəm ki, onları Azərbaycandan qaçırdan səbəbləri öyrənib-araşdırıb, buna baiskar olanları başa salmaq lazımdır ki: indi dünya virtualdır, qarmaqarışıqdır, fikir və yaşam sərhədləri rezin kimi ölçüsüzdür, niyə o söyüşçüllərin potensialı xaricdə Azərbaycanın lehinə deyil, əleyhinə işləməlidir?! Və onlara tövsiyyə edilməli və anladılmalıdır ki, erməni blogerlərin heç biri, ermənilərin yüz illərdir Qarabağda müvəqqəti məskunlaşıb at oynatdığı o boyda torpaqları əldən vermiş Paşinyanın əleyhinə bir kəlmə belə danışmadıqları halda, niyə sizlər bu torpaqları Azərbaycana qaytarmış, başımızı uca etmiş Prezidentə- İlham Əliyevə qarşı bu qədər qəddarsınız???

***

Uzun danışsam da, səmimi deyirəm, sözümün və fikirlərimin fəlsəfəsi bundan ibarətdir. Amma həm də inanıram ki, o bəzi blogerlər də Azərbaycana bundan sonra əsl azərbaycanlı kimi baxacaqlar! Axı onların damarlarında ordakı yox, burdakı qalib Azərbaycanın qanı axır...

**Asif MƏRZİLİ**
**04 aprel 2025-ci il**

# “Melissa MTK”nın rəhbəri Qalib Məmmədov həbs edildi



**Dünən Bakının Yasamal rayonunda sakin evində olduğu hakda, yaşayış olan evi sökən “Melissa Group” tikinti şirkətinin rəhbəri Qalib Məmmədov saxlanılıb. Tezadlar.az xəbər verir ki, Q.Məmmədov elə dünən də faktla bağlı açılan cinayət işi çərçivəsində saxlanılıb. Məlumatı Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən təsdiqləyiblər.**

Xatırladaq ki, ötən gün tikinti şirkətinin əməkdaşları Yasamal rayonu Birinci Alatava massivi Abdulvahab Salamzadə küçəsi 118B ünvanında sakinlər içəridə ola-ola söküntü işləri aparıb. Söküntü zamanı yaşayış olan evlər ekskavator vasitəsilə dağıdılıb. Hadisə nəticəsində ev sakinlərindən xəsarət alanlar olub.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin yaydığı məlumata görə, söküntü işləri müvafiq icazə olmadan aparılıb: “Aparılan işlər vətəndaşlarla tam razılıq əldə edilmədən və mövcud qanunvericiliyin tələblərinə zidd aparıldığı üçün Baş İdarə tərəfindən aidiyyəti qurumlarla birlikdə dayandırılıb və aktlaşdırılıb. Qanunsuz işlər zamanı vətəndaşların mülklərinə dəymiş ziyanla bağlı müvafiq araşdırma aparılması üçün materiallar hüquq-mühafizə orqanlarına təqdim ediləcək”. Faktla bağlı söküntü işləri aparan şirkətin iş icraçısı və ekskavator sürücüsü saxlanılıb, cinayət işi açılıb.

Məsələ ondadır ki, görün, MTK rəhbəri özünə və onu himayə edənlərə nə qədər arxayındır ki, xarici düşmənləri gündə bir söz deyən, üstünə gəlinən ölkənin daxilində bu cür özbaşınalığa rəvac verir! Bu nə deməkdir axı?!

**A.Məmmədli**

# “Şoka girdim, dilim tutuldu, şəkərim 450-yə yüksəldi!” - Kəlbəcər sakini başına gətirilənlərdən danışdı

## Təhqir olunduğunu iddia edən vətəndaş Baş prokuror cənab Kamran Əliyevdən və Daxili işlər naziri cənab Vilayət Eyvazovdan kömək istəyir

**Bu günlərdə redaksiyamızda olan Bakı şəhəri, Sabunçu rayonu, Zabrat qəsəbəsi, 2-ci Aşıq Ələsgər küçəsi ünvanında yaşıyan, “Qafuroğlu” yükdaşıma şirkətinin rəhbəri İsmayılov Qafur Əvəz oğlu başına gətirilənləri ürək ağrısı ilə danışdı. Söhbətdən məlum oldu ki, 2025-ci il yanvarın əvvəlində Xətai Manafzadə adlı şəxs Q.İsmayılovun rəhbərlik etdiyi “Qafuroğlu” yükdaşıma şirkətində sürücü işləmək üçün müraciət edib.**

Q.İsmayılov sürücüyə ehtiyac olduğunu bildirib və Xətaidən müvafiq sənədlərini şirkətin mühasibatlığına təqdim etməsini xahiş edib. Mühasibatlıq Manafzadə Xətai Sakit oğlunun sənədlərini araşdırarkən onun əvvəlki iş yeri olan “BakuBus” MMC-dən rəsmi çıxarılmadığı məlum olub. Bu səbəbdən də X.Manafzadənin “Qafuroğlu” yükdaşıma şirkətinə rəsmi işə götürmək mümkünsüz olub. X.Manafzadə isə xəstə uşağı olduğunu, eyni zamanda, ailəsini dolandırmaq üçün onun işləməsinin vacib olduğunu və tezliklə “BakuBus” MMC-dən işdən rəsmi çıxarılması barədə sənəd gətirəcəyini söyləyib. Q.İsmayılov bunları nəzərə alaraq, Manafzadə Xətai Sakit oğlunu köməkçi sürücü kimi işləməsinə razılıq verib. Və X.Manafzadəyə gördüyü işin müqabilində ona gündəlik pul verilib. Beləliklə, X.Manafzadə iki aya yaxın “Qafuroğlu” yükdaşıma şirkətində köməkçi sürücü kimi çalışıb. Bu müddətdə X.Manafzadə əvvəlki iş yerindən çıxması barədə rəsmi sənəd ala bilmədiyi üçün onun daha şirkətə gəlməsinə etiraz edilib. O, isə rəhbərlikdən xəbərsiz şirkətdə olan şəxsi əşyalarını götürüb gedib. Q.İsmayılov onunla telefon əlaqəsi saxlayarkən X.Manafzadə artıq başqa yerdə işə başladığını deyib, eyni zamanda şirkətin ona 450 manat borcu olduğunu bildirib. Belə olan halda, Q.İsmayılov X.Manafzadəni şirkətə dəvət edərək, sözügedən borc məsələsinə aydınlıq gətirilməsini istəyib. Ancaq X.Manafzadə şirkətə gəlməkdən imtina edib və həmin məbləğin onun bank kartına köçürülməsini söyləyib. Təxminən bir həftədən sonra Q.İsmayılovun tanımadığı Nüsrət adlı şəxs onun mobil telefonuna zəng edərək, X.Manafzadənin qardaşı, eyni zamanda jurnalist olduğunu deyərək 450 manatın Xətainin bank kartına köçürülməsini tələb edib. Q.İsmayılov isə onu qardaşı ilə görüşə dəvət edib və borc məsələsinə aydınlıq gətirməyi istəyib... Amma...

Q.İsmayılov üzləşdiyi problemi bütün təfərrüatları ilə danışdıqdan sonra məsələ ilə bağlı şikayət ərizəsini, eləcə də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə və Azərbaycan Respublikasının Daxili işlər naziri Vilayət Eyvazova ünvanladığı müraciətləri redaksiyamıza təqdim etdi.

Qeyd edək ki, Q.İsmayılovun üzləşdiyi problem Baş prokuror cənab Kamran Əliyevə və Daxili işlər naziri cənab Vilayət Eyvazova ünvanladığı müraciətdə geniş yer alıb. Odur ki, həmin müraciəti oxuculara təqdim edirik.

**Müraciətdə deyilir:**

**“Hörmətli cənab Baş prokuror!**

**Hörmətli cənab Nazir!**

Məlumat üçün bildirirəm ki, mən - İsmayılov Qafur Əvəz oğlu əslən Kəlbəcər rayonundan vaxtilə məcburi köçkün düşərək ailəmlə birlikdə yuxarıda göstərilən ünvanda yaşayıram. Qarabağ müharibəsində “N” saylı hərbi hissənin döyüş tapşırıqlarının yerinə yetirilməsində fəal iştirak etdiyimə görə polkovnik-leytenant Tofiq Məhərrəmov tərəfindən Fəxri fərmanla təltif edilmişəm. Ömrüm boyu dövlətə, dövlətçiliyimizə sadiq qalaraq Azərbaycan Respublikasının nümunəvi bir vətəndaşı olmağa çalışmışam. Ancaq son vaxtlarda mənə qarşı olan haqsızlığa və özbaşınalığa göz yuma bilmədiyim üçün Sizə müraciət etmək məcburiyyətində qaldım.

Belə ki, 28 mart 2025-ci il tarixdə bu ilin əvvəlindən tanıdığım Manafzadə Xətai Sakit oğlu mənə zəng edərək, güya ona borclu olduğum 450 manatı bank kartına köçürməyimi tələb etdi. Mən öz növbəmdə onu görüşə dəvət edib bildirdim ki, gəl ətraflı söhbət edək, o zaman sənə 450 manat yox, cəmi 15 manat verəcəyim olduğunu biləcəksən. Görüşə razılaşdıq və daha sonra o, mənə Sabunçu Rayon Dövlət Yol Polisi Şöbəsinin yaxınlığındakı çayxanada gözləməyimi bildirdi. Görüş günü günorta saat 14:15 radələrində qəflətən çayxananın qapısı taybatay açıldı. Manafzadə Xətai özü, digər tanımadığım bir nəfər (sonradan öyrəndim ki, Nüsrətin yeznəsidir), onların arxasınca isə özünü jurnalist kimi təqdim edən Pənahov Nüsrət adlı şəxs içəri girdilər. Jurnalist olduğunu deyən Nüsrət Pənahov ucadan bağıraraq icazəm olmadan əlindəki mobil telefonla videoçəkiliş apararaq nalayiq sözlərlə məni çayxanadakı insanların yanında təhqir və təhdid edərək, üzərimə saxta ittihamlar yağdırıb məndən pul tələb etməyə başladı.



*“Həmin vaxt səhhətim ağır olduğundan, danışıq qabiliyyətimi tamam itirdiyimdən oğlum Aslan ərazi üzrə Sabunçu RPİ-nin 15-ci Polis Bölməsinə məlum hadisə ilə bağlı şikayət ərizəsi və yazılı izahat verdi”*

Bu gözlənilməz hadisənin təsirindən şoka girdim, dilim tutuldu, şəkərim 450-yə yüksəldi. Baş verənlərlə bağlı özümə gələndən sonra dərhal DİN-in “102 xidməti”nə zəng edib məlumat verdim. Səhhətim pisləşdiyi üçün üstümə təcili yardım gəldi. Həkimlərin səyi nəticəsində özümə gəldikdən biraz sonra oğlum Aslan mənə zəng edib həyacanlı şəkildə dedi ki, “ata, telefonun 1 saatdı susmur, tələbə yoldaşların, dost-tanışların zəng edib, “WhatsApp” nömrəmə videolink atıb deyirlər atanı “youtube.com/aran tv”, “TikTok” sosial şəbəkələrində rüsvay edirlər”.

Həmin vaxt səhhətim ağır olduğundan, danışıq qabiliyyətimi tamam itirdiyimdən oğlum Aslan ərazi üzrə Sabunçu RPİ-nin 15-ci Polis Bölməsinə məlum hadisə ilə bağlı şikayət ərizəsi və yazılı izahat verdi. Hazırda vəziyyətim ağır olaraq qalır, davamlı şəkildə sistem köçürülür və həkim nəzarətindəyəm. Bunun açıq-aydın şəkildə 30.03.2025-ci il tarixli “Bakı şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyası” PHŞ Sahə həkimi tərəfindən verilən 12/159 saylı xəbərdarlıq vərəqəsi də sübut edir. Həmin vərəqə ərizəmə əlavə edilib.

Sözügedən ifşaedici video görüntülər isə “Qafur adlı bu şəxs övladı xəstə olan sürücünün pulunu vermədi” başlığı altında yayımlanıb. Həmin video görüntülərdə özünü jurnalist kimi təqdim edən Nüsrət Pənahov həqiqəti açıqlamağıma imkan verməyərək, güya sürücünün pulunu verməməkdə və vergidən yayınmaqda məni ittiham edir. Əgər həqiqətən də kiminsə pulunu verməsəydim, qarşı tərəf barəmdə polisə və ya digər aidiyyəti qurumlara müraciət edərdi. Ancaq məlum məsələdir ki, elə bir hal mövcud deyil. Barəmdə hər hansı bir məhkəmə qərarı olmadan, heç bir cinayət təqibi həyata keçirilmədən özünü jurnalist kimi təqdim edən şəxs tərəfindən ittiham olunmağım, şərəf və ləyaqətimin alçaldılması açıq şəkildə cinayətdir və bu kimi məsələlər də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 147 və 148-ci maddələri ilə tənzimlənir. Eyni zamanda, həmin video görüntülərin N.Pənahov tərəfindən işıqlandırılması, digər internet resurslarında da yayılmağa və ən əsası məni yaxından-uzaqdan tanımayan şəxslər tərəfindən barəmdə təhqiramiz şərhlərin yazılmasına səbəb olmuşdur ki, bunun da məsuliyyəti yenə onun üzərinə düşür.

AR CM-nin 147-ci maddəsinə görə, böhtan kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində yayıldıqda cinayət sayılır. Kütləvi çıxış dedikdə, hər hansı şəxsin şərəf və ləyaqətini alçaldan və ya onu nüfuzdan salan məlumatları ən azı iki nəfər kənar şəxsin görə, eşidə və ya qavraya biləcəyi formada ifadə etmə başa düşülür.

Kütləvi informasiya vasitəsi və kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatı dedikdə, dövri mətbu nəşrlər, teleradio proqramları, kinoxronika proqramları, sosial internet şəbəkələri, dövri mətbuatın və teleradio kanallarının internet saytları və digər yayım formaları başa düşülür.

Azərbaycan Respublikası CM-nin 148-ci maddəsində göstərilmiş cinayətin törədilməsi kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində başqa şəxsin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltmaqda ifadə olunur. Başqa şəxsin şərəf və ləyaqətini nalayiq formada alçaltma həmin şəxsin şəxsiyyətinə mənfi qiymət verməklə onu əhatənin (dostların, tanışların) gözündə nüfuzdan salan hərəkətlərlə xarakterizə olunur. AR Ali Məhkəməsi Plenumunun “Şərəf və ləyaqətin müdafiəsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında” 14 may 1999-cu il 7 saylı qərarına görə, şərəf və ləyaqəti ləkələyən məlumatlar dedikdə, əxlaqi prinsiplər, istehsal-təsərrüfat xidmət və ictimai fəaliyyətlə əlaqədar cəmiyyət, kollektiv və yaxud ayrı-ayrı şəxslər arasında vətəndaş barəsində mənfi rəy yaradan məlumatlar başa düşülür. Məlumatın yalan olması dedikdə, onun həqiqətə uyğun olmaması başa düşülür.

1948-ci il Ümumdunya İnsan Hüquqları Bəyannaməsində, 1966-cı il mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda və AR Konstitusiyasının 46-cı maddəsində deyilir ki, hər kəsin şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır, heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz.

**Hörmətli cənab Baş prokuror!**

**Hörmətli cənab Nazir!**

Bütün bunları nəzərinizə çatdıraraq, əlavə olaraq qeyd edim ki, gənc-tələbə oğlumun tələbə yoldaşları, universitet müəllimləri içərisində necə psixoloji sarsıntılara məruz qalmasını həzm etmək mümkün deyil. Mən deyərdim ki, bir ata kimi övladımı bu vəziyyətdə görməkdənsə ölməyi tərcih edərdim. Çünki mən şərəfli, ləyaqətli bir insanam. Buna nümunə olaraq yuxarıda qeyd etdiyim kimi, Qarabağ müharibəsində “N” saylı hərbi hissənin döyüş tapşırığının yerinə yetirilməsində fəal iştirakçı olduğum üçün dəfələrlə komandirlər tərəfindən Fəxri fərmanlara layiq görülməyimi misal çəkə bilərəm.

**Hörmətli cənab Baş prokuror!**

**Hörmətli cənab Nazir!**

Yuxarıda qeyd edilənlərə əsasən, Sizdən xahiş edirəm ki, barəmdə “Youtube”, “TikTok” və digər sosial şəbəkələrdə yayılan, həqiqəti əks etdirməyən, böhtan xarakterli videogörüntülərin aradan qaldırılaraq, pozulmuş hüquqlarımın bərpa edilməsi və şərəfli peşə həsab edilən jurnalist adından sui-istifadə edərək, barəmdə təhqir və şantaj dolu videogörüntüləri paylaşaraq saxta reytinq qazanmağa çalışan Nüsrət Pənahovun barəsində ciddi tədbir görülməsi üçün göstəriş verəsiniz.

**Əvvəlcədən Sizə dərin minnətdarlığımı bildirirəm”.**

**Redaksiyadan: Müraciətdə adı çəkilən hər kəsin mövqeyini dərc etməyə hazırıq.**

**E.ŞİRİNOV**

# Qoşqar Təhməzlinin ailə şirkətinin Ağdamda tikdiyi evlərin tavanı su içində-uçur-İNANILMAZ



**“Hamı elə bilir ki, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzlinin dərdi-səri əhalimizin qida təhlükəsizliyinə cavabdehlikdir. Kolbasalardan sosiskaya, sosiskalardan restoran və şadlıq evlərinədək hücum çəkən Agentlik əməkdaşları onunla-bununla üzgöz olanda isə düşünmürdülər ki, “İlanı Seyid Əhməd əli ilə tutan” sədin öz ailə-qardaş biznesi var və rahatca başını saxlayır”**

Budur, onun ailəsinə-doğmalarına məxsus olduğu deyilən şirkət Ağdamın Sarıcalı kəndinin bərpası ilə məşğul olub. Bu iş dövlət büdcəsinə 35 milyona başa gəlib. Tanınmış araşdırmaçı jurnalist Cavanşir Həsənli müəyyən edib ki: “”Tikən şirkət “6-cı mərtəbə” adlı Müstəqil Şirkətidir. Bu gün videolar yayılıb ki, yağışdan sonra təzə tikilən evlər damıb. Evlərin tavanı, sanki aşsüzənə dönüb. Bəs kimdir bu “6-cı mərtəbə”nin arxasında duran? Bir dəfə yazmışdım ki, Azərbaycanda vəzifə beşmərtəbəli şəxsi mənafelərin, biznes maraqlarının 6-cı mərtəbəsidir. Deməli, bu “6-cı mərtəbə” Müstəqil Şirkətinin direktoru Təhməzli Ataş İlahi oğludur. Ataş Təhməzli dönərin içində at və eşşək əti axtaran Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzlinin qardaşıdır. O biri qardaşı isə Mənzil İnşaatı Dövlət Agentliyi yanında MİDA MMC-nin rəhbəri Fərhad Təhməzovdur. “6-cı mərtəbə”nin hələ 5-ci mərtəbəsi də var. Yəni, “kruq” genişdir, 35 milyonluq tenderi udan şirkətin bir ucu gedib Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə çıxır. Şirkətin qanuni təmsilçisi Nəbiyev Yunis Nəbi oğludur. Bu şəxs London Universitetinin məzunu və 2 ildən bəridir ki, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə sədr müavini təyin olunmuş Pərvin Nəbiyevin atasıdır. Pərvin Nəbiyev özü də bir müddət bu şirkətdə layihə menecerinin müavini olub. Pərvin Nəbiyevin atasının adı Təhməzli ailəsinin başqa bir şirkətində - “VƏLİYEV ŞAHİN İ. VƏ TƏHMƏZLİ ŞAHBAZ A. TAM ORTAQLI BAK TİKİNTİ ABADLIQ” MÜƏSSİSƏSİ-də də qanuni direktor kimi qeyd olunur. Şahbaz Təhməzli “6-cı mərtəbə”nin sahibi Ataş Təhməzlinin oğludur. Sizə ortağın, yəni Şahin Vəliyev İsrafil oğlunun da kimliyi maraqlıdırsa deyim; o, hamımızın yaxşı tanıdığımız oliqarx deputat, “Kristal Abşeron”un sahibi Ağalar Vəliyevin qardaşıdır””.

Bax belə. Əlavə şərhə ehtiyac varmı???

# Yağma, ey yağış... - şəhəri sel yox, məsuliyyətsizlik basır

**İki gündür davam edən yağış Bakını sözün əsl mənasında yenə diz çökdürüb. Şəhərin bütün əsas yolları, küçələri, məhəlləri gölməçələr içində itib-batır. Nəqliyyat dayanıb, işə getmək bir azara çevrilib, məktəblilər məktəbə çata bilməyib, insanlar saatlarla yolda qalıb. Avtomobillər sıradan çıxıb, piyadalar yol tapmayıb, həyat dayanıb.**



Əslində yağış bizə ruzi və bərəkət gətirməlidir. Allahın neməti sayılan bu təbiət hadisəsi əksinə olaraq əziyyətə, təhlükəyə və həyat itkisinə çevrilibsə, deməli burada təbiətin deyil, insanların, daha doğrusu, məsuliyyətsiz qurumların günahı var.

## Yağış fəlakətdir, yoxsa sistem zəifliyi?

Bütün dünya ölkələrində, istər Avropada, istərsə də qonşu Türkiyədə yağıntının miqdarı Azərbaycandan qat-qat çoxdur. Amma orada yağış həyatın bir parçasıdır - nəqliyyat dayanmaz, şəhər su altında qalmaz. Çünki sistem var, infrastruktur var, qabaqlayıcı tədbirlər var.

Bizdə isə, yağış xəbərdarlığı veriləndə əhali "ay aman, yenə şəhəri su basacaq" deyə təşvişə düşür. Bu qədər narahatçılıq bir təbiət hadisəsinə görə olmamalıdır. Bu narahatlıq - sistemsizlikdən, məsuliyyətsizlikdən doğur.

## Layihə hardadır? Proyektlər kim üçün yazılır?

Əsas problem - yolların layihələndirilməsindən başlayır. Yeni çəkilən və ya təmir edilən yolların böyük əksəriyyətində sel və yağış sularının axını üçün nəzərdə tutulmuş avadanlıqlar ya yoxdur, olan da formal xarakter daşıyır. Sual olunur:

**- Nə üçün layihələrdə suötürücü borular, drenaj xətləri, yağış sularını yönləndirəcək kanallar nəzərdə tutulmur?**

**- Yoxsa nəzərdə tutulur, sadəcə kağız üzərində qalır?**

**- Bu layihələrə kim imza atır? Kim qəbul aktına qol çəkir?**

## 22 oktyabr 2024 - unudulmayacaq faciə...

Bu günləri çoxumuz unuda bilərik, amma 22 oktyabr 2024-cü il tarixini unutmamalıyıq. Bakıda baş verən güclü yağışlar nəticəsində iki nəfərin həyatını itirdiyi hadisə Sabunçu rayonu ərazisində yerləşən Sabunçu keçidində qeydə alınıb. Bu hadisə zamanı tunelin su ilə dolması nəticəsində iki nəfər boğularaq həyatını itirmişdir. Bu təkcə bir təbiət hadisəsi deyildi. Eyni zamanda, təhlükəsizlik tədbiri görməyən, hazırlıqsız, cavabdeh qurumların məsuliyyətsizliyinin nəticəsi idi. Ölümə səbəb olan bu qurumların hər hansı problemi varsa və heç kim buna görə cavab vermirsə, biz hansı məsuliyyətdən danışırıq?

## Bəs kim məsuliyyət daşıyır?

Azərbaycanda yolların çəkilməsi, təmiri və saxlanılması ilə məşğul olan əsas qurum - Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA)-dır. Yolun tikintisini podratçı həyata keçirə bilər, amma layihəyə nəzarət, icra və qəbul AAYDA-nın səlahiyyətindədir. Bundan əlavə, suötürücü sistemlərin işləməsinə görə cavabdehlik bəzən "Azərsu" ASC-yə, bəzi hallarda isə yerli icra hakimiyyətlərinə düşür. Bəs bu qədər qurum varsa, nə üçün nəticə yoxdur? Niyə səlahiyyət var, amma cavabdehlik yoxdur?

Pul var, amma yol yoxdur. Əmin ola bilərik ki, bu sahəyə dövlət tərəfindən kifayət qədər vəsait ayrılır. Sadəcə problem o vəsaitin necə xərclənməsindədir. Şəffaflıq yoxdursa, büdcə vəsaiti düzgün xərclənmirsə, pulun olub-olmamağının heç bir əhəmiyyəti yoxdur. Əgər hər çəkilən yol bir ildən sonra su altında qalacaqsa, əgər yağışdan sonra asfalt dağılacaqsa, bəs o milyonlar hara gedib? Nə üçün əhalinin zərəri dövlət tərəfindən qarşılanmır? Avtomobili sıradan çıxan, evini su basan vətəndaş zərəri özü ödəyir. Halbuki onun, hər ay maaşından vergi tutulur. O vergilərlə dolananlar isə, sadəcə kənardan baxır.

## Kiçik ölkə, böyük laqeydlik

Azərbaycan böyük ərazi deyil. Hətta təkcə İstanbul bizim bütün ölkəmizdən böyükdür. Amma orada idarəetmədə bizimki qədər problemi yoxdur. Niyə? Çünki orada cavabdeh şəxslər sahəni yaxşı bilir və bu səbəbdən də sistem əla işləyir. Bizdə isə, bəzən tamamilə aidiyyəti olmayan şəxslər mühüm vəzifələrə təyin olunur, nəticədə vətəndaş ziyan çəkir.

## Xalq soruşur: Bəs bu vəziyyətə görə kim cəzalandırıldı?

Cəmiyyətin ən haqlı sualı budur: "Niyə bu qədər hadisədən sonra bir nəfər belə vəzifədən çıxarılmadı?" "Niyə xalqın içində bir nəfər görmədi ki, filankəs məsuliyyət daşıdığına görə cəzalandırıldı?" Əgər dövlət strukturunda cavabdehlik yoxdursa, o struktur necə işləyə bilər? Biz görmək istəyirik ki, kim məsuliyyət daşıyırsa, o məsuliyyətə cəlb olunsun. Cəzasızlıq etinasızlığı doğurur. Etinasızlıq isə ölümlə nəticələnir.

## Sonda bir vətəndaş çağırışı

Bu yazı nə təkcə bir narazılıq, nə də sadəcə şikayətdir. Bu yazı - bir vətəndaşın çarəsiz harayıdır. Bir xalqın gündəlik yaşadığı çətinliyi səsləndirməkdir. Biz yağışdan qorxmamalıyıq. Biz yağışa ruzi, Allahın verdiyi nemət, bərəkət kimi baxmalıyıq. Amma biz yağışa əzabın, təhlükənin, ölümlərin xəbəri kimi baxırıqsa, burada təbii fəlakət deyil, idarəetmə fəlakəti var.

*Rəhmətlik Yetim Eyvaz deyərdi:*

**"Yağ ey yağış, "Sən yaganda yamaclara düzənlərə can verirsən,**
**Zəmilərdə sünbüllərin damarına qan verirsən..."**

*Amma bu gün Bakı sakinləri əllərini göyə tutub yalvarır:*

**"Yağma, ey yağış...**
**Çünki yağanda biz batırıq, ölürük..."**

**Elşad FƏRMANOGLU**

# İlham Əliyev: Tarix yazan sərkərdə

(Əvvəli 3-cü səhifədə)

Hərtərəfli məlumata sahib olan prezidentimiz xarici jurnalistlərlə olan müsahibələrilə də dünyaya səs saldı. Azərbaycan xalqı olaraq bu müsahibələri dinlədikcə, belə bir dövlət başçımızın olması ilə daha çox qürur duyuruq. Cənab Prezident yorulmadan bütün döyüş əməliyyatlarına başçılıq etməklə bərabər, həm xarici mediaya verdiyi müsahibələri, həm də mövcud vəziyyəti olduğu kimi xalqımıza çatdırmaqla böyük bir uğura imza atdı.

Prezidentimiz sözün əsl mənasında, xalq, ordu, dövlət birliyi ilə Azərbaycan adlı güclü bir ailə yaratdı. Xalqa müraciətlərində işlətdiyi cümlələr hələ uzun illər dillərdən düşməyəcək. Onun ürəyimizin səsini dilə gətirən hər müraciəti yaddaşlara həkk olundu. Bu müraciətləri ilə tarix yazdı. Tarixi zəfəri ilə öz adını təkcə ölkəmizin zəngin döyüş tarixinə deyil, dünyanın hərb tarixinə əbədi həkk etdirib. Bu baxımdan, Prezident İlham Əliyev tarix yazan və tarixə yazılan sərkərdədir.



Dövlət başçımızın sayəsində biz Qarabağımıza, doğma yurdlarımıza yenidən qovuşduq. O, tarixi ədaləti uğurla və qətiyyətlə bərpa etdi. Ali Baş Komandanımız dünyada az rast gəlinən nümunənin - ordu quruculuğunun ən mükəmməl modelinin müəllifidir. Dahi sərkərdəmiz tarixi ədaləti öz gücü və iradəsi ilə bərpa etdi, işğalçıya unuda bilməyəcəyi tarixi dərsi verdi. Cənab Ali Baş Komandanımız İlham Əliyevin qətiyyət, iradə, əzm, milli ruh və yüksək idarəçilik dəyərləri və rəhbərliyi, xalqımızın vətənpərvərlik duyğularının birgə həmrəyliyi ilə Azərbaycan ordusu tarixin ən şanlı və şərəfli qələbəsini qazandı! Prezidentimiz İlham Əliyev yeni əsrin lideri olaraq Azərbaycanımızı daim inamla irəli aparır. Onun hakimiyyət illəri ölkənin dinamik inkişafı, sürətlə modernləşməsi, dünyada nüfuz və söz sahibinə çevrilməsi ilə səciyyəvidir. Müzəffər Azərbaycan Ordusunun hər bir uğurlu əməliyyatı, xalqımızın qələbə ruhlu və qətiyyətli millət kimi dünya tarixinin heç zaman unudulmayacaq səhifələrinə həkk olunmasına səbəb oldu. Şanlı ordumuz və Cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağımız işğaldan azad olundu, 30 illik həsrət sona çatdı. Azərbaycan xalqının həmrəylik nümayiş etdirərək, cənab Ali Baş Komandanın ətrafında sıx birləşməsi bizə qələbəni gətirdi. Bu isə çox qürurvericidir.

Prezidentimiz İlham Əliyevin dediyi kimi: "Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır". Yəni günümüzün reallığı onu göstərir ki, Prezidentimizlə Azərbaycanı qarşıda daha möhtəşəm uğurlar gözləyir. Uzun illər bu tarixi danışıb qürur duyacağıq. Bu tarixi qələbəni bizə yaşadan, müjdələyən prezidentimizlə qürur duyuruq! Belə bir liderimiz olduğu üçün çox şanslıyıq. Bütün Azərbaycan xalqı olaraq hər zaman Qarabağımızı geri qaytardığı üçün prezidentimizə, Ali Baş Komandanımıza minnətdar olacağıq.

Cəmi 44 gün ərzində (27 sentyabr-10 noyabr) Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri yazıldı. 30 illik işğalı bitirmək üçün 44 gün yetdi. Azərbaycan bu zəfəri xalqla dövlətin sarsılmaz birliyi, "Dəmir yumruq" tək birləşməsi sayəsində qazandı. Azərbaycan əsgərinin rəşadəti, Ali Baş Komandanın qətiyyəti qarşısında düşmən diz çökdü. Bu qələbəni biz şəhidlərimizin, qazilərimizin qanı, canı bahasına qazandıq. Erməni işğalından azad olunmuş torpaqlarımızın hər qarışında şəhid qanı var. Bu tarixi zəfərə görə biz onlara borcluyuq. Qəhrəman şəhidlərimiz daim bizim qəlbimizdə yaşayacaq. Bu gün Azərbaycana Heydər Əliyev siyasətinin layiqli davamçısı İlham Əliyev başçılıq edir. Azərbaycan xalqının iradəsini ifadə edən İlham Əliyev müstəqil Azərbaycanın prezidenti, həm də dünya azərbaycanlılarının lideridir. Azərbaycanın Respublikasının prezidenti İlham Əliyev bütün dünya tərəfindən qəbul olunan dövlət xadimidir. İndi Azərbaycan prezidentinin siyasi portreti bütün dünyada məşhurdur.

"Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur", - demişdir Ulu Öndərimiz Heydər Əliyev. Eyni zamanda Cənab Ali Baş komandan İlham Əliyevin dediyi kimi, "Dağlıq Qarabağ bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik". Prezident İlham Əliyev bu barədə 44 günlük Vətən müharibəsinin gedişində Almaniyanın ARD telekanalına müsahibəsində müxbirin "Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır" sualına cavabında demişdir.

Lakin düşmənin nəzər almadığı, ağlına belə gətirə bilmədiyi bir çox şeylər vardı. Azərbaycan türklərinin damarlarında axan qanın daha səbir edə bilməyib coşmasını, öz doğma yurd-yuvasından qundaqda ayrılmağa məcbur edilən, qovulan, didərgin salınan körpələrin bir gün tank belində, raketlərlə, dronlarla gəlib haqq-hesab soracağını, xalqımızın milli təəssübkeşliyini, ən əsası isə dünyada, bəlkə də, yalnız türklərə məxsus olan vətən sevgisini, torpaq sevgisini nəzərə almamışdılar. Çünki bu hiss düşmənin özündə yoxdur. Vətəni olmayan haradan bilsin ki, nədir vətənpərvərlik?!

Vətən nədir!? Torpaq sevgisi bu qədərmi güclü olur? Ermənilər bu sualın dünyanın sonuna qədər cavab tapa bilməzlər. Bunu ancaq biz bilirik. Bunu Çanaqqalada şəhid olmuş türk oğulları bilirdi, bunu Azərbaycanın hər qarış torpağı uğrunda canını verməyə hazır olan Azərbaycan əsgərləri bilir. Bunu türkdən gözəl bilən, anlayan yoxdur, ola da bilməz!

Türklər heç vaxt qəsbkarlıq, kiminsə ərazilərini ələ keçirmək üçün vuruşmamışlar. "Hər şey vətən üçün", - deyə müqəddəs savaşa qatılmışlar. Bu yaxınlarda eşitdim ki, bəzi tarixçilər deyirlər, müasir Azərbaycan tarixini yenidən yazmaq lazımdır. Mən bir az fərqli düşünürəm. Mən hesab edirəm ki, Azərbaycan tarixini yazmaq bu gün ən asan işdir. Çünki bu tarix artıq Azərbaycanın Ali Baş Komandanı, cənab Prezident İlham Əliyevin uzaqgörən, ağıllı siyasəti, qəbul etdiyi qərarlarla, dünya ölkələrinin jurnalistlərinə verdiyi qeyri-adi, ağıllı cavabları ilə, Müzəffər Ordumuzun gənc həyatını torpaq uğrunda qurban verməyə hazır olan igid əsgərlərinin silahları, qanları ilə yazılır. Çünki bu tarixi dünən uşaq kimi baxdığımız, sözlərini ciddi hesab etmədiyimiz, birdən-birə böyüyən, kişiləşən uşaqlar yazır. Hər gün yeni səhifələr yazılır, zəfər xəbərli yeni səhifələr!

Hətta bunlar bir tərəfdə qalsın. Bu igidlər Babəki, Cavanşiri, Koroğlunu geridə qoydular. Onlar Azərbaycan adlı vətənin işğal altındakı torpaqlarını azad edən, cihada qoşulan müasir Mehdi Hüseynzadələrə, Həzi Aslanovlara, Gəray Əsədovlara, Qafur Məmmədovlara... döndülər. Kimdir onlar? Kimdir bu qəhrəmanlar? Azərbaycanın Milli Qəhrəmanı Həmid Şükürov, general Polad Həşimov, polkovnik Həmdəm Ağayev, polkovnik-leytenant Babək Ramaldanov, kapitan Həmid Cəfərli, Elgün Xıdırov, Azər Əliyev... və onlarla digər zabitlər, gizirlər, əsgərlər. Onların qanları ilə yazdıqları tarixi heç bir düzəliş etmədən kitablara köçürmək lazımdır. Qarşınızda baş əyirik, Azərbaycan əsgəri! Eyni zamanda, hesab edirik ki, yalnız Azərbaycanın tarixi deyil, ədəbiyyat, dil, coğrafiya və digər dərslikləri də yenidən yazılmalıdır. Özü də həqiqi vətənpərvər alimlər, müəllimlər tərəfindən. Belə olsa, daha körpələrimizin dərsliklərində erməni bayrağının rənglərini yox, Azərbaycanın müqəddəs üçrəngli bayrağını hər kitabın, hər səhifəsində görərik. Ədəbiyyat kitablarında vətən sevgisi ilə həyatı boyu mübarizə aparan, çarpışan, dünyasını dəyişən yazıçı və şairlərimizin, türk dünyasının sayılıb-seçilən oğullarının həyatı tədris edilər, gənclərimiz hələ orta məktəbdən milli ruhda tərbiyə alar, milli-mənəvi təfəkkürə sahiblənər... Nəticədə, bugünkündən daha vüqarlı, daha vətənpərvər, daha sağlam düşüncəli Azərbaycan gəncliyi yetişər. Lakin bu günə qədər nə yaxşı ki, erməni təbliğatının ölkəmizdə işləməsinə baxmayaraq, qəlbinin dərinliklərində vətən, torpaq sevgisini saxlayıb böyüdən analarımız, doğma yurd yerlərinin, ata-baba ocaqlarının həsrətini ürəklərində qoruyan babalarımız bu sevgini, doğma ocağın hərarətini övladlarına keçirə biliblər. Körpələrimizə vətən sevgisini aşılaya biliblər. **Nəticə göz qabağındadır: 1) Heydər Əliyev: "Biz azadıq, biz müstəqilik, biz heç kəsdən asılı deyilik. Biz öz taleyimizin sahibiyik. Yalnız bunun üçün aylarla, illərlə əziyyət çəkmək olar. Bunu indi əlimizdə saxlamaq, qorumaq lazımdır. Bilin, Azərbaycanın müstəqilliyini əlimizdə saxlamaq, qorumaq hər bir insanın canından artıqdır. Mənim üçün isə Azərbaycanın müstəqilliyini qorumaq, onu saxlamaq və əbədi etmək öz həyatımdan, öz canımdan artıqdır!" 2) Ali Baş Komandan İlham Əliyev: "Azərbaycan xalqının qanı yerdə qalmır. Xocalı soyqırımını törədən cinayətkarları məhv edirik!" 3) Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin dünya siyasətinin aparıcı simalarından biri, Türk dünyasının görkəmli şəxsiyyətlərindən biri olması dünya miqyasında qəbul edilir.**

**Səma TAĞIZADƏ,**
**Bakı şəhəri 212 nömrəli tam orta məktəb**

**"Qəzetin ilk sayı çapdan çıxmışdı. Bir neçə gündən sonra məni X.Məmmədov Xeyriyyə Cəmiyyətinə dəvət etdilər. İdarə Heyətində iclas idi. Cəmiyyətin sədri Rövşən Cavadov, Professorlar-İlham Rəhimov, Famil Mehdi, Nurəddin Rzayev, Xalq şairləri-Bəxtiyar Vahabzadə, Məmməd Araz, Nefçi alim Yusif Səmədov, Baş ədliyyə müşaviri Adil Minbaşı və başqaları" Mən həmin dövrdə "Ədalət" qəzetində baş redaktorun 1-ci müavini vəzifəsində çalışırdım" Təklif olundu ki, "Təzadlar" qəzetini də bir müddət idarə edim. Əvvəlcə razı olmadım ki, əsas iş yerində işim çoxdur. Amma və lakin" Qərar yekdilliklə qəbul edildi".**



# "Təzadlar" qəzetinin 32 yaşı tamam oldu!

***"1993-cü ilin aprelin 8-də ilk sayı işıq üzü görən qəzet bu günədək müstəqilliyini və tənqidi, ədalətli jurnalistika prinsiplərini qoruyub saxlamağa çalışıb"***

1995-ci ilin mart hadisələrindən sonra qəzetin çapı dayandı, təsisçi dəyişdiyindən yenidən qeydiyyat lazım idi. Mətbuat və İnformasiya Nazirliyinə (Sabir Rüstəmxanlı) müraciət etdik, dedilər ki, qəzet mart hadisələrində iştirak etmədiyi barədə (???) arayış gətirsin, sonra baxarıq" Bu məqamda Komitə ləğv edildi, bazasında nazirlik yaradıldı, Allah rəhmət eləsin, Sirus Təbrizli ilə görüşdüm, danışdım, dərhal tapşırıq verdi, qəzet yenidən qeydiyyatdan keçdi. Sonra "Azərbaycan" nəşriyyatının rəhbərliyi çapımıza tərəddüd etdi. Allah rəhmət eləsin, köşə yazarımız var idi, Qeyrət Quliyev, bir gün soruşdu ki, qəzet niyə çap olunmur, dedim ki, mətbəə problemi var, PA-dan icazə verilməsini gözləyirlər" Dərhal zəng etdi PA-nın şöbə müdiri Əli Həsənova, sağ olsun, Əli müəllim tapşırdı, qəzet yenidən nəşrə başladı. İnsafən, bu günədək rəsmiyyətin heç bir maneçiliyi olmayıb, nəşriyyatda da bu sıradan".

***

"Amma bizə daim problem yaratmaq istəyən, lakin istəyinə də nail ola bilməyənlər həmişə olub. Bu işlərin başında isə Ramiz Mehdiyevin deputatı olmuş Bəxtiyar Sadıqov dayanırdı. Onun neçə illər əvvəl AzTV efirində Ə.Amaşov və V.Rəhimzadə ilə birlikdə qəzetlərin reketçiliyindən(???) danışarkən aparıcının "Yaxşı, bu dediklərinizin "Təzadlar" kimi bir qəzetə nə aidiyyəti var?" kimi sualına Bəxtiyar Sadıqovun cavabsızlığı və ardınca da onun "Bu qəzet beynəlxalq skandal yaradıb"" deməsi tarixin bir ironiyası idi! Qəzet beynəlxalq skandal yarada bilirsə, bu qəzetin başına and içilməlidir! Həmin teleçıxış arxivimizdə durur".

Amma yox, ABU rektoru ilə dil tapanlar bizdən əl çəkmirdilər" 2009-cu ilin aprelin 7-də məni rektorun əsassız şikayəti əsasında Yasamal rayon Məhkəməsinin (hakim Tahir İsmayılov. Bu əməlinə görə onu ciddi şəkildə cəzalandırdılar) hökmü ilə 1 il müddətinə əazadlıqdan məhrum edildim və məndən bir neçə ay sonra dağıdılmış, indi yerində Baryaq Meydanı tikilmiş Bayıl türməsində "Təzadlar"ın ad gününü qarşıladım. Amma göydə Allah, yerdə isə Prezident bu "daxili" düşmənlərin arzusunu gözündə qoydu. Bir gün sonra həbsdən buraxılmağım dünya hüquq və məhkəmə, həm də Azərbaycanın media tarixində görünməmiş hadisə oldu. Bu barədə 2009-cu ildə AzərTAC-da, APA-da və TREND-də və s. mətbuatda yayımlanmış rəsmi məlumatı olduğu kimi diqqətə çatdırıram: "Bütün vətəndaşlarımız kimi jurnalistlərimiz də qanunlar qarşısında cavabdehdirlər. Lakin zənn edirik ki, məhkəmə jurnalistə qarşı yüngül cəza tətbiq edə bilərdi. Çünki əksər vaxtlarda jurnalist həbsindən ölkənin beynəlxalq imicinə zərbə vurmaq istəyən qüvvələr sui-istifadə edirlər. Həm də jurnalistlərin peşə fəaliyyəti ilə bağlı məqamlara xüsusi ittiham deyil, mülki qaydada baxılması dünya miqyasında daha çox qəbul edilib" Elə dünən də dövlət başçısı İlham Əliyev "Təzadlar" qəzetinin baş redaktorunun həbsinə reaksiya verib". Bu barədə APA-ya açıqlamasında Prezident Administrasiyasının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənov bildirib. Ə.Həsənov deyib ki, prezident jurnalistin həbsi ilə bağlı xəbərdən təəssüfləndiyini bildirib. Dövlət başçısı bu kimi hallarda azadlıqdan məhrumetmə barədə qərar çıxarılmasındansa, tərəflər arasındakı problemlərin hüquqi yolla həllinə nail olmağın daha effektli ola biləcəyini söyləyib. Prezident güman etdiyini bildirib ki, siyasi plüralizmi özünün əsas prinsiplərindən biri kimi həyata keçirən Azərbaycanda jurnalistlərlə



vətəndaşlar arasındakı bu və ya digər anlaşılmazlıq və qarşıdurma jurnalistlərin həbsinə səbəb olmayacaq. Dövlət başçısı bu məsələlərdə həm çəkişən tərəflərin, həm də məhkəmələrin beynəlxalq praktikada qəbul olunmuş daha münasib yollara istinad etmələrinin daha yaxşı olacağını da qeyd edib".

Bu arada Azərbaycan Jurnalistlər Birliyi də məhkəmənin A.Mərzili və müstəqil jurnalist Zümrüd Məmmədovaya qarşı çıxardığı hökmü pisləyən bəyanatla çıxış edib. AJB bu faktı məhkəmələr vasitəsilə söz azadlığına, müstəqil jurnalistikaya və ümumulikdə KİV-ə qarşı basqı kimi qiymətləndirir. Bəyanatda qeyd olunur ki, mövcud faktın Avropa Birliyinin xüsusi nümayəndəsi Piter Semnebinin və AŞ PA məruzəçilərinin Azərbaycanda olduğu dövrə təsadüf etməsi təəssüf doğurur. Bəyanatda deyilir ki, jurnalistlər tənqidə görə mətbuat nümayəndələrinin həbsinə qəti etiraz edirlər.

*"Bəli, mən həmin gün-"Təzadlar"ın ad gününü Bayıl türməsində qarşıladım, amma səhəri gün Bakı Apellyasiya Məhkəməsinin qərarı ilə bəraət alaraq azadlığa çıxdım"*

Təxminən günorta saatlarında isə media cameyəsində A.Mərzilinin bu gün azadlığa buraxılacağı ilə bağlı məlumat yayıldı. Məlumata görə, dövlət başçısı İ.Əliyevin məsələyə operativ müdaxiləsi nəticəsində bu gün baş redaktorla bağlı apelyasiya şikayətinə baxılacaq. Onun elə məhkəmə zalındanca azadlığa buraxılması ehtimalı var" və sair".

Bəli, mən həmin gün-"Təzadlar"ın ad gününü Bayıl türməsində qarşıladım, amma səhəri gün Bakı Apellyasiya Məhkəməsinin qərarı ilə bəraət alaraq azadlığa çıxdım, amma və lakin" Məlum "daxili düşmən"lər sakit oturmadı... Bir neçə gündən sonra məni-Prezident İlham Əliyevin xüsusi diqqəti əsasında bəraət alan jurnalisti Mətbuat Şurasına çağırdılar ki, qəzetin adını "qara siyahı"ya salmaq istəyirik" Getdim. İclas gecikir, hiss edirəm ki, müzakirəyə risq etmirlər. Necə yəni, məlum yazısına görə məhkəmədə bəraət alan jurnalistin rəhbəri olduğu qəzeti indi "qara siyahı"ya salarlar?!

MŞ-ın bütün İH üzvləri orada idi, Rəşad Məcid iclası sərt formada açıb "Əflatun müəllim, Asif Mərzilini nəyə çağırmısınız, iclası açın də!" deyib ətrafa baxır, sağ olsun, özü iclasın gündəliyini elan etməli olur". Uzun məsələdir, qısa deyim ki, məsələ aydın idi: dedim, təşəkkür edirəm, Sizlər hüquqi nihilizmin əsasını qoyursunuz, heç olmasa neçə gün əvvəl Prezident Administrasiyasının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənovun dilindən rəsmi mətbuatda yayımlanmış ""prezident jurnalistin həbsi ilə bağlı xəbərdən təəssüfləndiyini bildirib" fikirlərindən, ən azı, utanmaq lazımdır,- deyərək iclası tərk etdim.

İclas arzulanan qərarsız qaldı"

***

"Sonrakı illərin baş verən hadisələrini bu yazıda çözsəm, sənədli roman alınar.

Yeri gəlmişkən, "Jurnalist" adlı bədii əsər üzərində çalışıram və hesab edirəm ki, real faktlar əsasında yazılan bu roman Azərbaycanda jurnalist həyatından bəhs edən ilk bədii əsər olacaq.

Nə isə" Başımıza gəlməyən hadisə qalmadı. Məhkəmələrdən tutmuş PA rəsmisi Fatma Abdullazadənin barəmizdə Prezident Heydər Əliyevə məruzə etdiyi əsassız, yalan faktlarınadək, çox şey. Ustad Məmməd Arazın həyat yoldaşı xatirələrdən ibarət "Ömürdən yarpaqlar" kitabında (Gülxanım Fətəliqızı: "Ömürdən yarpaqlar" kitabı, Bakı-2019.) görün nə yazır:

"1999-cu il. 15-16 sentyabr. Yaqub Zurufçunun telefonda danışdıqları:

- Bu televiziyon ki, Amerikada açmaq istəyirik ona çəkilişlər etməklə məşğulam. Gəncədə idim, Arazın sahilinə gedə bilmədiyimə görə Kürün sahilində süni sərhəd yaradıb "Ayrılıq" mahnısına klip çəkmişik. Xeyli pul xərcləndi. Sizə gəlmək istəyirdim, ancaq imkan tapmadım. Məmməd müəllimi də çəkmək istəyirəm. Bəlkə saat beşdə gələrəm.

Gülxanım Fətəliqızı: -Sonra Bəxtiyar müəllim zəng edərək əvvəl Məmmədlə danışdı. Onların nə danışdığını bilmədim. Bir xeyli keçəndən sonra Prezident Aparatından bir məmurun (Oxu: Fatma Abdullazadə. Red.) Məmmədlə danışmaq istədiyini bildirdilər.

Məmməd:

- Denən, buyursunlar, gözləyirəm".

Məmur zəng edir:

- Xanım, bir məsələ ilə əlaqədar olaraq sizə zəng etdim. "Təzadlar" qəzeti ki, var, olub bir faşist qəzeti. Əvvəl Xudu müəllimin şəkli ilə çap olunurdu. Onun redaktoru yaman cığallıq edir. Bir qrup yazıçı Heydər Əliyevin yanına gəlmişdilər. Onlar prezidentə dedilər ki, bu necə olur, belə bir qəzetin redaksiya heyətində Bəxtiyar, Məmməd Araz kimi şairlərin adı var. Mən Bəxtiyar müəllimlə də danışmışam. Bəxtiyar müəllim bildirdi ki, o qəzet çap olunanda biz Xudunun ətrafına yığışmışdıq. Mənim sözlərimi Məmməd müəllimə çatdırın, onlar qəzetin Redaksiya Heyətindən bəyanat verib çıxmalıdırlar, qoy fikirləşsin, sonra siz mənə onun cavabını çatdırarsınız.

- Vallah, bizə lazım olanda sizi bizimlə calaşdırmırlar. Özünüz zəng edərsiniz.

Onun sözlərini olduğu kimi Məmmədə çatdırdım.

Bəxtiyar müəllim təzədən zəng etdi, Məmmədə demək üçün bunları mənə danışdı:

-Ay bacım, mən bayaq Məmmədlə də danışdım, yəqin dedi sizə. Sən evdə deyildin, Prezident Aparatından sizinlə danışdılarmı? Mənə zəng etmişdilər, onlara dedim ki, indi demokratiyadır, danışırlar. Qəzetdə nə yazılıb ki, o deyilən kimi elə bir şey deyilmir. Asif Mərzili prezidentə açıq məktub yazıb. Yazıb ki, Qarabağ əldən gedir. Bizim varımız da, əhalimiz də, qoşunumuz da ermənilərdən çoxdur. Prezidentimiz niyə Köçəryanın yanında pərt oturmalıdır? Niyə? Dedim ki, burada pis nə var ki? Deyir ki, yox, qəzet Murtuzu da söyür" Bilirsiz, mənə həmişə hücumlar olanda "Təzadlar" qəzeti məni müdafiə edib. İndi deyirlər ki, qəzetin Redaksiya Heyətindən çıxım".

- Sizin işiniz pis olacaq, Bəxtiyar müəllim. Redaksiya heyətindən çıxsanız xalq sizi söyəcək, çıxmasanız hökümət".

- Elədir, qızım, qəzetdə mənim və Məmmədin də adını çəkiblər. Yazırlar ki, biz bu xalq şairlərindən problemlərin həllində çox şey gözləyirdik, ancaq onlar susurlar. Mənə deyirlər ki, sən bir Asif Mərzili ilə danış, gör nə edirsən. Hələ bizimlə pişim-pişim danışıblar, Nurəddinin (Oxu: Nurəddin Rzayev.Red.) üstünə isə hücum çəkiblər.

- Yaxşı, Bəxtiyar müəllim, Məmmədlə danışaram.

- Hə bala, danış görək"".

***

Yox, bizdən əl çəkmirlər "AzTV-də belə, arxasında sponsoru, yekə-yekə yiyəsi" olmayan, amma üzərində göydə Allahın, yerdə isə ölkə başçısının nəzərləri olan "Təzadlar"a qarşı qarayaxma veriliş də verildi, amma biz dözdük, yaşadıq, keçmişimizi yaşatdıq ta bu günədək! Qapısını bəlkə də səhvən bir polis əməkdaşı döyəndə sarılığa tutlanlar yəqin indi şokdadırlar ki, bu qədər naşıların, "daxili media düşmənləri"nin qapısını döydüyü bu qəzetin hələ bir 32 yaşı tamam olur?!

***

Rəhmətlik Ulu Öndər Heydər Əliyevlə 2001-ci ildə- Milli Mətbuat günündə ən azı 10 dəqiqəlik təkbətək (hamının iştirakçılığı ilə) olan söhbətimizdə də "Təzadlar" müzakirə mövzusu oldu, Prezident bir məqamda isə mənə dediyi "İndi de görüm mənim sənə borcum nə qədərdir?" zarafatyana sualı və mənim cavabım isə nəinki mənim, eləcə də o mərasimin bütün rəsmi və qeyri-rəsmi iştirakçılarının heç vaxt yadından çıxmayacaq yəqinki. Bu barədə xatirə kitabımda ətraflı yazmışam.

***

Bu hələ harasıdır, bir vaxtlar "Təzadlar"ın birinci səhifəsində Xudu Məmmədovun şəkli yer alırdı. Ramiz Mehdiyevin Ağdamdan deputat etdiyi Bəxtiyar Sadıqovun ciddi-cəhdi və partizan "fəaliyyəti" sayəsində "Azərbaycan" qəzetində qərəzli, yaraşmaz məqalə çap olundu, sonra X.Məmmədovun oğlunun AzTV-də çıxışı baş tutdu, bu şəklin qəzetdə yayımlanmasının qarşısının alınması barədə efirdən xahişi oldu, şəkli götürdük, amma əvəzində Qarabağın betər taleyini ifadə edən bu şüarı yazdıq: "Qarabağı xilas etməyən xalqı Allah da xilas etməyəcək!".

Şükür, 27 illik şüarımız tətbiqini tapdı, ünvanına çatdı" Və Qarabağ azaddır!

Üzərimizə gələn oxşar təhdidlər Azərbaycan Mətbuat Şurasından sonralar da gəlirdi" Gah qəzetin adını "qara siyahı"ya saldılar, gah özündən xəbərsizlər qəzetə "reket" deməyə başladılar, məhkəmə qərarı olmadan qanunsuz olaraq mətbələrə qəzetin yayımının və çapının dayandırılması barədə MŞ-dan məktub göndərildi, məcbur olub MŞ-ı məhkəməyə verdik və bu qanunsuz hərəkətlərə qadağa qoyulması barədə qərardad əldə etdik. Tənqidi jurnalistikanı sevməyənlərlə "Təzadlar"ı gözü götürməyənlər yenə sakitləşmirdilər. Amma onlar anlamırdılar ki, bu təhdid və qarayaxmalarını, əksinə, müqavimətimizi daha da artırır" 2019-da isə bizi məcbur etdilər, Kiyevə uçduq, bir rektorun Azərbaycanda müəmmalı səbəblərdən yoxa çıxarılmış doktorluq dissertasiyasını tapıb Bakıya gətirdik! Bax bu təhdidlərin bəhrəsi bu idi" Əleyhimizə saxta bəyanat qəbul edib böhtan yağdıranların aqibətini indi hamı bilir! İmzalı müraciətlərini onları utandırmamaq üçün yayımlamıram!

***

"2016-cı ildə mənzilimi və şəxsi avtomobilimi benzin tökərək yandırdılar. Bəlli cinayətkarlar hələ də tapılmayıb. Təsəlli verənlərə, pis olanlara deyirdim ki, ermənilər Qarabağda o qədər evlərimizi, mülklərimizi yandırıblar ki" Amma biz heç vaxt özümüzü əməldə yandırmadıq, dözdük, duruş gətirdik və yol gəldik, 32 ildir yol gedirik! Necə deyərlər, bir qarnı ac, bir qarnı tox, yaşayırıq! Vacib olan budur ki, gözümüz-könlümüz toxdur, başımız Azərbaycan insanı qarşısında dikdir, aşağı deyil! Özümüz kölgəliyik, amma gözümüz kölgəli deyil!

Şair Məmməd İsmayıl demiş, hələ yaşamağa dəyər bir az da! Və doğrudanda hələ yazmağa da dəyər bir az da!

Bizə bu yolda mənəvi dəstək olan hər kəsə təşəkkür borcumuz var!

**Asif MƏRZİLİ**

# Xocalı qatilləri məhkəmədə özlərinin “əl işinə” təsirləndilər, amma...

## *Madat Babayan Xocalıda silahsız insanların qətlində iştirakını etiraf edib: “Qarşımıza çıxanları öldürməkdə səhv etmişik”*

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, David İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası aprelin 18-də davam etdirilib.**

Tezadlar.az xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev əvvəlcə prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib. Sonra zərərçəkmiş şəxslər sərbəst ifadə verib, dövlət ittihamını müdafiə edən prokurorlar, zərərçəkmiş şəxslərin nümayəndələri və müdafiəçilər tərəfindən onlara ünvanlanmış sualları cavablandırıblar.

Zərərçəkmiş şəxs Yaşar Əlməmmədov 1956-cı ildə Xocalı şəhərində anadan olduğunu, orada ailəsi ilə birlikdə yaşadığını bildirib. O, təqsirləndirilən şəxslərdən Bako Sahakyanı, Arkadi Qukasyanı və Madat Babayanı tanıdığını deyib.

Y.Əlməmmədov 1992-ci il fevralın 25-də şəhərin dəmir yolu hissəsində postda olduğunu, saat 20 radələrində Xankəndi istiqamətindən gələn zirehli texnikanın şəhərin ətrafında mövqe tutmağa başladığını, saat 23 radələrində şəhərə hücum edildiyini deyib. Qeyd edib ki, gecə saatlarında Ermənistan silahlı qüvvələri 366-cı motoatıcı alayın iştirakı ilə şəhərə girdikdən sonra o, sakinlərlə birlikdə meşəyə gedib. Erməni hərbçilərin onları atəşə tutmaları nəticəsində çox sayda insan həlak olub.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran Y.Əlməmmədov bildirib ki, fevralın 27-də Pircamal kəndi yaxınlığında onlar girov götürülərək tövləyə aparılıb, bir qədər sonra daha 50 nəfərə yaxın Xocalı sakini oraya gətirilib. Onun sözlərinə görə, əsirlərə misli görünməmiş işgəncə verilib, onu da qarın üstünə uzadaraq döyüblər. Pircamal kəndində iki gün saxlanıldıqdan sonra onlar Xankəndi şəhərinə aparılıb. Daha sonra əsirlər döyülüb işgəncə verilərək martın 1-də Əsgərana gətirilib. Burada polis şöbəsində yanğından mühafizənin rəisi işləmiş Karo adlı erməni dəyənəklə onu huşunu itirənə qədər döyüb.

Y.Əlməmmədov 1992-ci il martın 2-də Azərbaycan tərəfinə təhvil verilib.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş şəxs əsirlikdə olduğu müddətdə qolunun, barmağının, qabırğalarının, ayağının sındırıldığını və digər xəsarətlər aldığını deyib. Y.Əlməmmədov təqsirləndirilən şəxs Madat Babayanın ona süngü-bıçaqla xəsarət yetirdiyini də bildirərək deyib: “Erməni hərbçilər, şəxsən Madat Babayan özü mənə işgəncə verib. Əsir olan vaxt Madat mənə yaxınlaşdı, “sən türksən” deyib təpiklədi, sonra təhqir etdi. Üstündəki süngü-bıçağı çıxarıb mənə sancdı”.



> **“Ağdamda meyitləri meşədən gətirirdilər. Oradakı meyitlərin əksəriyyəti tanınmaz halda idi. Başlarının dərisini soymuşdular, beyinləri, başları dağılmışdı. Ancaq paltarından tanıyırdıq”**

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandırarkən zərərçəkmiş şəxs qeyd edib ki, həmin vaxt Xədicə adlı qadının iki ayağını dizdən aşağı kəsmişdilər: “Xocalıda Axıska türkləri də yaşayırdılar. Madat Babayan, tərkibində olduğu silahlı dəstəsindəki hərbçilər Axıska türkü olan iki qardaşı gözümüzün qabağında güllələyib öldürdülər. Onlar azərbaycanlıların bəzilərini aparıb qəbirlərin üstündə başlarını kəsirdilər, bəzilərini kilsədə asırdılar”.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavab olaraq Y.Əlməmmədov qardaşı Faiq Əlməmmədovun erməni hərbçiləri tərəfindən öldürüldüyünü, digər qardaşı Namiq Əlməmmədovun isə əsir götürüldüyünü, onun indiyədək itkin olduğunu deyib.

Məhkəmədə zərərçəkmiş şəxs barəsindəki tibbi-ekspertiza rəyi də elan olunub.

Daha sonra zərərçəkmiş şəxs Sovet Allahverdiyev ifadə verib. 1954-cü ildə Xocalıda anadan olduğunu və orada yaşadığını bildirən S.Allahverdiyev atasının, iki qardaşının və qardaşı oğlunun Xocalı soyqırımı zamanı itkin düşdüyünü, daha iki qardaşının və anasının isə girov götürüldüyünü deyib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavab olaraq zərərçəkmiş şəxs bildirib: “Onlar fevralın 25-dən 26-na keçən gecə bütün yolları bağlamışdılar ki, çıxa bilməyək, azərbaycanlı olduğumuz üçün bizim hamımıza qarşı soyqırımı törətsinlər. Qətlə yetirilən əhalinin 50 faizi “dəhliz” deyilən ərazidə öldürülənlərdir. Guya həmin hissəni vermişdilər ki, əhali çıxsın.

Ağdamda meyitləri meşədən gətirirdilər. Oradakı meyitlərin əksəriyyəti tanınmaz halda idi. Başlarının dərisini soymuşdular, beyinləri, başları dağılmışdı. Ancaq paltarından tanıyırdıq”.

O, Xocalı soyqırımı zamanı qətlə yetirilən şəxslərdən 18 nəferinin meyitinin 2023-cü ildə Xocalıda tapılan zaman onların ayaqlarının və qollarının məftillə bağlı vəziyyətdə olduğunu da söyləyib.

Məhkəmədə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş hadisələrlə bağlı müvafiq istintaq hərəkəti protokolları tədqiq olunub.

Daha sonra Xocalı soyqırımı ilə bağlı kadrların nümayiş etdiriləcəyi, videomateriallarda həssas məqamların olduğu nəzərə alınaraq, ürəyi zəif olanların zaldan çıxmaları barədə xəbərdarlıq edilib. Videomateriallarda müxtəlif yaş qrupundan olan kişilərin və qadınların, o cümlədən uşaqların və qocaların meyitlərinin görüntüləri yer alıb. Meyitlərin bir hissəsi dərisi soyulmuş, gözləri çıxarılmış, bəzi əzaları kəsilmiş vəziyyətdə olub. Videonun nümayişi zamanı zalda olanlar kövrəlib.

Təqsirləndirilən şəxslərin də bəziləri videogörüntülərin onlara guya pis təsir etdiyini öz hərəkətləri ilə nümayişkaranə şəkildə göstəriblər. Ardınca məhkəmədə Xocalı soyqırımına dair protokollar təqdim edilib.

Məhkəmə prosesində digər sənədlərin tədqiqi zamanı fotojurnalist Viktoriya İvlevanın çəkdiyi fotoşəkillər, “İzvestiya” qəzetində Yerevanın hadisəni hərbi nailiyyət kimi qiymətləndirməsi barədə məqalə nümayiş etdirilib.

Habelə Ermənistanın müdafiə naziri və prezidenti olmuş Serj Sarkisyanın britaniyalı jurnalist Tomas De Vala verdiyi və faciənin etnik təmizləmə olduğunu etiraf edən müsahibəsi nümayiş olunub. S.Sarkisyan müsahibə zamanı Xocalıda törədilənlərdən təəssüflənmədiyini bildirib.

S.Sarkisyanın fikirlərinə istinad edən dövlət ittihamçısı Tuqay Rəhimli deyib ki, bunlar Ermənistan tərəfindən Xocalı soyqırımının məqsədyönlü, sistemli şəkildə törədildiyini təsdiqləyir.

Prosesdə daha sonra Xocalı soyqırımında iştirakı müəyyən edilmiş təqsirləndirilən şəxs Madat Babayan dindirilib.

O, 1992-ci il fevralın 25-də və 26-da Xocalıda olduğunu təsdiqləyib və deyib: “Bizi oraya dəstə rəhbərimiz aparmışdı. Adı Henrik Tamrazyan idi. Məqsəd o idi ki, azərbaycanlılar Xocalıdan çıxarılsın”.

M.Babayan dəstələrində 20 nəfərin olduğunu, başqa dəstələrin də olduğunu deyib. Əlavə edib ki, Rembert Karapetyan, Valeri Sarkisyan adlı dəstə rəhbərlərini xatırlayır. “Bizim dəstənin üzvlərindən isə Valeri Petrosyan, David Qriqoryan, Albert Qriqoryan, Şirin Şirinyan, Spartak Akopyanı xatırlayıram”, - deyə o vurğulayıb. Təqsirləndirilən şəxs Xocalıda bütün əmrləri “Xolostoy” ləqəbli Arkadi Şirinyanın verdiyini deyib və əlavə edib: “Bizə isə əmrləri Vanik Petrosyan verirdi. Silahsız insanlara atəş açıb onların qətlə yetirilməsi əmrini Vanik verib. Vanik və Arkadi insanların barmaqlarını, meyitlərin qulaqlarını kəsirdilər”.

M.Babayan dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandırarkən Xocalıya silahlarla gəldiklərini, zirehli texnikalardan istifadə edildiyini təsdiqləyib. Təqsirləndirilən şəxs silahsız insanların qətlində iştirak etdiyini etiraf edib və bildirib: “Səhv etmişik”.

O, Xocalıda aralarında uşaqların, qocaların və qadınların da olduğu təxminən 150 meyit gördüyünü, meyitlərin erməni hərbçilər tərəfindən maşınlara yığılaraq aparıldığını bildirib.

Bu zaman zərərçəkmiş şəxs Yaşar Əlməmmədov söz alaraq M.Babayana itkin düşmüş qardaşı barədə sual verərək deyib: “Mənim qardaşım Namiqi sənin dəstən apardı. Haraya aparmısan? Qardaşımın yerini de, heç olmasa sümüklərini tapaq. Onun arvadı həmin vaxt hamilə idi, oğlu oldu. İndi qardaşımın oğlunun 33 yaşı var, dərddən başı ağarıb. Qardaşım haradadır? Yerini de!”.

M.Babayan isə cavabında Namiq Əlməmmədovu tanımadığını iddia edib.

Bu zaman zərərçəkmiş şəxslərin nümayəndəsi Şaiq Hüseynov məhkəməyə müraciət edərək təqsirləndirilən şəxs David İşxanyanın M.Babayana suallara cavab verməsində kömək etməsinə etirazını bildirib.

Məhkəmə iclasına sədrlik edən Zeynal Ağayev D.İşxanyanın yerini dəyişib.

Sonra M.Babayanın Xocalı soyqırımı ilə bağlı ibtidai istintaqda verdiyi ifadə elan olunub və ibtidai istintaq zamanı hadisə yerində çəkilmiş videomaterial nümayiş etdirilib.

Məhkəmənin növbəti iclası aprelin 21-nə təyin olunub.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməniəsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

**Həmin şəxslər, yəni, Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan David Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırım), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.**

# Heyvanların qeyri-adi «istedadı”: elm daha nəyi sübut edə bilmir?

## (Təbiətin öyrənilməmiş dərslərindən bəhs edən reportaj)

**...Gəl heyvanları dindir, onlar sənə çox şeyi öyrədər! Göydəki quşlardan soruş, onlar sənə çox mətləblərdən danışar! Torpağa əyil, sənə hər şeyi aşılayar! Dənizdəki balıqlarla danış, sənə suyun görünməz alt qatında yaşamın sirrini anladar... Dünyanı nisbətlərə bölən, mütləqlə nisbiliyin fərqini elmə çevirən görkəmli alim Albert Eynşteyn deyirdi ki, elm ideyalar dramıdır. Alim demək istəyirdi ki, biz təbiətdən, onun dilsiz-ağılsız və ağızsız canlılarından hələ çox şeyi öyrənməliyik.**

Görkəmli alim Xudu Məmmədovun isə belə bir məntiqi var idi: deməyin ki, heyvanların dili yoxdur, deyin ki, onların dilini bilmirik!

### *Tülkü sinəsini balalarının qabağına vermişdi ki...*

...Söz vaxtına çəkər: qocaman fermer, qışı aranda, yayı dağlarda keçirən Akif Rzayevin dəvəti ilə Daşkəsənin Xoşbulaq yaylağında görüşdük. İndi bu ərazilərdə havalar bərk soyuqdur, amma yaylağa hazırlıq işləri də davam edir.

***

...Akif kişi əsl çöl adamıdı. Yaşı 80-i haqlayıb. 6 nəvəsi var. Zarafatla dedim ki, bu qoyun-quzuları Arandan dağa, dağdan Arana daşımaq səni yormur?! Üzümə baxıb: -Məni saxlayan o qoyun-quzunun dağ-aranıdı, onları da saxlayan mənəm ki var, -deyərək güldü. Yəni, sözünü kəsəsinə dedi ki, mənim istirahətim bu heyvanlarla dağ-aran səfərində yoldaşlığımdır!

***

...Qışın sazağı hələ də öz işindədir... Həyətdə oturub söhbət edirik. Birdən kəsim üçün saxladığı erkəklərin səsi eşidildi. Çoban əmliklərin qabağına ot tökürdü. Akif kişi ayağa qalxdı, tüfəngini götürüb çobana tərəf getməyə başlayanda alatoranda gözümə toyuq-cücənin hininə tərəf sürünən bir tülkü sataşdı. Yavaşca doqqazdan çıxmağa hazırlaşan Akif kişiyə yaxınlaşıb qulağına pıçıltı ilə «Hinə tərəf bir tülkü getdi...", -dedim.

Akif kişi ani olaraq ayağa qalxdı: «O tülkü dünən iki toyuğu aparıb, bu dəfə əlimdən qaça bilməyəcək", -deyərək tüfəngi atış vəziyyətinə gətirdi, sonra qıvraq addımlarla hinə tərəf qaçdı. Hindən qışqırıq səsi gəldi... Ardınca ağzında iri bir xoruz tutmuş şələquyruq tülkü ildırım sürəti ilə yanımızdan sivişib dağın döşünə tərəf qaçdı. Akif kişi atəş açmağa macal tapmadı, amma o tülkünün, mən də Akif kişinin ardınca qaçmağa başladıq. Dağlıq ərazilərdə atmosfer təzyiqi aşağı olduğundan üzü yuxarı qaça bilməyib ləngidim, amma Akif kişi dağın sinəsi ilə tülkünü qovurdu. Arada bir güllə də atdı.

Özümü çatdıranda Akif kişi kolluğun arasında gizlənmiş tülkünü nişan almışdı. Tüfəngi tuşlayıb tətiyi çəkmək istəyirdi ki, qəribə bir səs eşitdi. Tüfəngin lüləsini aşağı əyib tülkünün gizləndiyi yerə tərəf getdi. Ərazi elə idi ki, tülkünün qaçıb aradan çıxmağı mümkünsüz idi. Lap yaxına getdik. Akif kişi dayandı, mənə əli ilə «Bəri gəl" dedi. Tülkünü qaçırtmamaq üçün asta addımlarla ona yaxınlaşdım, «Burdadı?", -deyə soruşdum. O, başı ilə «Hə!" işarəsini edəndə qulağına «Bəs niyə atmırsan?", -deyə pıçıldadım. O isə susub dinmirdi. Özünün quzu dərisindən tikdiyi tüklü papağını əlinə alıb tərini sildi. «Allah, möcüzənə şükür!",-deyib ah çəkdi. İkimiz də donub qalmışdıq. Yuvasının ağzında dayanan tülkü bizə baxırdı. Arxasında isə bir neçə balasının gözləri parıldayırdı. Artıq toran düşdüyündən ətrafı yaxşı görmək olmurdu deyə, Akif kişi cibindəki fanarı tülkünün yuvasına tuşlamışdı. Tülkü ac balalarını yedirtmək üçün özü ölüm risqinə getmişdi, indi isə balalarını ölümdən qorumaq üçün özünü onlara sipər etmişdi.

Bu mənzərədən gözləri yaşarmış Akif kişi: -Gəl getdik... Tülkü çolpanı ac balalarını yemləmək üçün aparıb, balalarına qurban olsun, -deyərək evə tərəf addımladı. Birdən dayandı, iri qaya parçasının üstündə oturub gözlərini Qoşqar dağının hələ də başı qarlı zirvəsinə zillədi. Çox məyyus və fikirli idi. Mənə bir hadisəni danışdı:

-Bilirsən, o tülkü balalarını yedirtmək, ailəsini qorumaq üçün ölümə belə hazır idi. Mən adam tanıyıram, Rusiyaya gedib, yaxud hardasa pul qazanır, amma ailəsinə deyil, narkotikə, içkiyə, eyşt-işrətə verir. Bu ağıllı deydiyimiz insan, bu da Allahın dili-ağzı olmayan heyvanı...

O, bu mənzərədən çox təsirlənmişdi. Həqiqətən də tülkünün hərəkəti bəzi insanlara dərs olacaq bir «ağıl" nümunəsi idi. Tülkü balalarını atıb qaçıb gedə də bilərdi, amma balalarını, yuvasını atmamışdı!

### İtin bilmədiyimiz «düşüncəsi"

...Çoxdanın hadisəsidi: dünyanın düz vaxtında Kəlbəcər yaylağındayıq. Sən demə, canavar kolluqda pusqu qurubmuş. Cəllət əmimin Alabaş adında bir iti var idi. Hər gün yanında sürülərin ardınca aparardı. İt qoyun-quzunu bir an nəzarətsiz qoymazdı. Amma bu dəfə əmimlə birlikdə getmədi, arxacda saxlanılan quzuların olduğu çəpərin ətrafını dolaşdı (Sonra bildik ki, yarğana yaxın yerdə gizlənmiş canavarın iyini duyubmuş). Əmim nə qədər çağırıb səsləsə də it uladı, amma getmədi. Hətta bibim də dözməyib kişiyə səsləndi ki, dəymə, yəqin xəstələnib, qoy qalsın. İtin getməməyindən pərt olub əsəbləşən əmim dözməyib ona bir selba atdı, ağac itin belindən tutdu. İt zinqildəyərək quzuların saxlandığı arxacın yanında yerə sərilib qəmli- qəmli əmimə baxdı, ardınca bir neçə dəfə canavar kimi uladı. Əmim isə bərk əsəbləşmişdi.

Dəlidağda hava qəfil çönən idi. Az keçmiş qatı duman gəldi və ardınca da sulu qar yağmağa başladı. Hamı alaçığa girdi, əmim isə qardaşımla birlikdə sürünün ardınca getmişdi.

Yarım saat keçmişdi ki, birdən fermada qovğa düşdü, növbədən gəlib alaçıqda dincələn çobanlar tüfəngi götürüb cəld çölə qaçdılar. Elə bildilər ki, oğrulardı. Dumanlı havada belə hallar çox olardı.

Hamımız səs gələn tərəfə - arxacın yanına çatanda əmimin vurduğu iti al qan içində gördük. İt ləhləyirdi... Bir az aralıda isə iri canavar leşini gördük. Amma quzuların ikisi parçalanmışdı.

Xəbər əmimə çatdı, o özünü at belində alaçığa çatdırdı. Atdan düşən kimi itə yaxınlaşdı. Canavarın leşini görəndə duruxdu, məsələ aydın idi... Yaxınlaşıb itin boynunu sığalladı, ətrafdakıları süzərək birdən: -Mən düz eləmədim. O canavarın iyini hiss edibmiş, amma bizə başa sala bilmirdi ki, yaxınlıqda canavar gizlənib. Zingildəyib hürürdü, biz onun nə istədiyini hardan biləydik?!-deyərək böyük qardaşımı çağırdı:

- Çobanlar üçün bişirilən içalat qazanını tez bura gətir...

Qardaşım Qərib cəld evə qaçdı, bibimin etirazına baxmayaraq qazanı gətirdi və əmimə verdi. Əmim özünü günahkar bilirdi deyə, qazanı düz itin qabağına qoydu, mükafatı kimi yeməsini gözlədi. Hamı bu hadisəni diqqətlə izləyirdi. İt isə yavaşca başını qaldırıb ətrafa baxdı, sanki bizə nə isə demək istəyirdi... Sonra kənara çəkilib canavarın leşinə tərəf getdi. Hamımız donub qalmışdıq. Alabaş küsmüşdü... Onu başa düşməyən insanlardan küsmüşdü və əmim nə qədər cəhd etsə də it qazana yaxın gəlmədi. Alabaşın bu hərəkəti heç vaxt yadımdan çıxmırdı və hər dəfə döyülüb-söyülsə də, bəzi adamların onu döyüb-söyənin, təhqir edənin əlindən vəzifə, çörək, pul almasını görəndə təsirlənirdim. Yadıma Alabaşın o hərəkəti gözümün qabağına gələrdi. Bu it, bu da...



### İtin xasiyyətində nəsil davamçılığı...

...Bu yaxınlarda Ağdama yolum düşmüşdü. Qardaşım Telman Ergi qəsəbəsi ərazisində məskunlaşıb, ailəsini torpaqdan qazandıqları ilə dolandırmaqla məşğuldu.

> *“Qarşıdakı tülkü nə qədər var-gəl etdisə, it onun kələyini «başa düşüb” yerindən tərpənmədi”*

Günəşin ilıq havası xoş təsir bağışlayırdı. Söhbət edirik... Birdən qapıdakı qara tüklü it yanımıza gəldi, mənə baxdı. Deyəsən, yad adam görmüşdü. Qardaşıma: -Bu itdən gözüm su içmir, ona təpin, -dedim.

Telman üzümə baxıb gülümsədi:

-Yox, ona heç vaxt acıqlanmıram, nə də təpinmirəm...

-Görürəm axı, mənə tərəf çəpəki baxır, həməyir itə oxşayır, qəfil cuma bilər...

-Qorxma, mən burdayamsa, o heç vaxt yanımdakına cummaz. Bir dəfə bərk təpinmişdim, küsüb gedib iki gün hinindən çıxmadı. Uşaqlar dedi ki, yüz faiz xəstələnib. Dedim, aparın isti yal verin, təzə kəsilmiş quzunun sürsümüyünü atın yesin. Apardılar, it dilini də vurmadı. Həmin gün Türkiyə kanallarının birində belə bir hadisəyə dair sujetə baxdım. Demək, qonşunun pişiyi evə girib bişiriləcək toyuğun ətini qapıb aparır, ev sahibi itindən şübhələnir, iti vurur. Sonradan qonşu gəlib üzrxahlıq edir ki, ay qonşu, bağışla, bizim pişik qapınız açıq olub, evinizə giribmiş, toyuğun budunu ağzında gördük... Beləcə, it küsür, evə gəlmir. Bir neçə gündən sonra qonşular xəbər çatdırır ki, it bağın tinindəki kolluqda özünə yer düzəldib, orda görüblər. Sahibi başa düşür ki, adətən harasa gedən it geri qayıdardı, demək, küsüb. Sahibi itin ardınca gedir və itin başını sığallayıb boynunu qucaqlayır, sonra it yanına düşüb evə qayıdır.

Telman üzümə baxıb bir az da kədərli, amma fərqli tərzdə, söhbətinə davam edir. Sonra oğlu Elxanı yanına çağırdı:

-Elxan, itin küsməsini danış, qoy əmin eşitsin...

Elxan yanımızda bardaş qurub başladı danışmağa:

-Əmi, bu it adam kimi hissiyatlıdı, küsməyi, duymağı, «Get!" deyəndə getməyi var. Atam deyən məsələdə isə, hamımız elə bildik it bərk xəstələnib, hətta burda qəsəbədə zootexnik var, ona da dedik, gəldi baxdı, dedi, yox, xəstəlik əlaməti yoxdur. Hətta bibim Mülayim dedi ki, vallah, iti vurğun vurub, ya da göz dəyib, üzərik yandırıb burnunua tutun...

### Elxanın bu sözünə hamımız gülürük...

Söhbətin bu yerində böyük qardaşım Qərib gəlir, həmsöhbət olur. İtdən danışdığımızı eşidib o da maraqlı söhbətlər edir.

Elxan davam edir:

-Atam televizorda Türkiyə kanalından bir verilişə baxırdı... Birdən durdu ayağa, dedi, mənə qazandakı o yeməyin quyruqlu yerindən qaba çəkib ver. Sonra götürüb itin hininə yaxınlaşdı. Ardını qoy özü danışsın...

Telman davam edir:

-Hə, yeməyi götürüb itə yaxınlaşdım. Məni görüb tərpəndi, adətən, ayağa durardı. Bu dəfə başını qabaq ayaqlarının üstunə qoyub gözlərini mənə zillədi. Əlimdəki yeməyi gördü, ac idi, amma qımıldanmadı. Qazançanı yavaşca qabağına itələdim. Üzümə baxdı, amma yenə yemədi... Əlimi kürəyində gəzdirərək: -Ay it ye, sənin payındır, -deyib kənara çəkildim. İt heç nə olmamış kimi bir də mənə baxdı, yenə də yeməyə toxunmadı. Bir də «Ye, ye...",- deyib aralaşdım. Amma gözlədim ki, görüm yedimi. Kənara çəkildiyimi görən it burnu ilə qabı hinin görünməz yerinə tərəf itələyib yeməyə başladı. Mənə elə gəlirdi ki, it qarşımda özünü sındırmamaq üçün gözümün qarşısında yemək istəmirdi, görünməz yerə çəkilmişdi. O qürurunu sındırmırdı. Bu onun, elə bil ki, hansısa heyvani hisslərinin biz insanlara bəlli olmayan təzahürü idi. Mən belə düşünürəm. Axşam düşəndə mən sizə onun bir hərəkətini canlı görməyi qarşılayacam...

Qərib kişi it söhbətini tamamlayır:

-Mən sizə bir sirr də açım: bu it Cəllət əmimin Alabaş adlı itinin nəslindəndir. O it ki, yad adamı atın üstündə qapıb yerə salardı. Hətta neçə dəfə canavarların belə ona gücü çatmamışdı, leş eləmişdi...

Qərib kişi bunu danışanda əmimin Dəlidağdakı yaylaqda küsdürüb-barışdığı itini xatırladım...

***

...Axşam düşəndə seyrək duman dərələrdən süzülüb ətrafı ağuşuna almışdı. Yazın iyi duyulurdu. Artıq Novruza nə qalırdı ki?!

Telman it ilə bağlı sübut etmək istədiyi məsələnin qısa məğzini danışdı. Məlum olurdu ki, son vaxtlar iki tülkü aman vermir. Biri iti qarşı tərəfdən başını qatır, biri isə arxadan hinə girməyə cəhd edir. Hətta iki dəfə belə bir hadisə olub. İndi qış ayları və soyuqlar əraziyə hakim olduğundan tülkü-çaqqal buralardan əskik olmur. Ona görə də gecələr iti zəncirləmirlər, açıq saxlayırlar.

Beləliklə, bu gecə itin tülkülərlə mübarizəsinə şahid olacaqdıq...

### Tülkülərin hiyləsi baş tutmadı...

Gecə saat 3 radələrində Telman məni yuxudan ayıltdı. Çöldə itin ulartısı eşidilirdi. Əynimizi geyinib çölə çıxdıq. Soruşdum ki, it qəribə səs çıxarıb sonra ulayır, bu nəyə işarədir? Telman izah etdi ki, bu it qapıya yad adam gələndə tək-tək hürür, bizi çölə çağırır. Gecələr isə bu cürə zingiltili səs çıxardanda bilirik ki, ya oğru var, ya da tülkü gəlib. Bu dəfəki səsi tülkünün varlığına işarədir.

***

Biz səssiz addımlarla evin qarşı tərəfinə keçdik, buradan həm iti yaxşı görmək olurdu, həm də ova gələn tülküləri. Bir xeyli keçmiş it yenidən tülkünün gəlməsini anladan səs çıxarıb ulamağa başladı. Telman məni dümsüklədi: -Bax, ordan bir tülkü sürünərək hinə tərəf gəlir, it isə qarşıdan gələcək ikinci tülkünü gözləyir. Lap müharibə kəşfiyyatçıları kimi...

Beləcə, tülkünün biri qarşı tərəfdən xışıltılı səs çıxaranda it ona tərəf cumdu. Bu vaxt arxadakı tülkü pusqudan çıxaraq hinə tərəf qaçdı. Amma it onun da iyini duymuşdu deyə, hindən çox da aralanmadı. Qarşıdakı tülkünün isə məqsədi, sən demə, itin başını qatıb hindən aralandırmaqla o biri tülküyə hinə girmək imkanı yaratmaq imiş... İt bunu duyurdu, deyə, sonra geri qayıdıb hinin qapısının ağzında dayanıb çömbəldi. Təsəvvür edin, özümüzü gülməkdən güclə saxlayırdıq, həm də ağılsız bildiyimiz heyvanların bu taktikasına təəccübdən çaşıb qalmışdıq.

Qarşıdakı tülkü nə qədər var-gəl etdisə, it onun kələyini «başa düşüb" yerindən tərpənmədi. İnanılmaz idi: tülkünün ikisi də itin direnişini görüb düz qarşısında dəfələrlə var-gəl edib onu əsəbləşdirmək istəyirdi, amma it də «təmkinini" pozmadan, onları vecinə almırdı...

Beləcə, təxminən yarım saat davam edən «tülkü-it" şousu başa çatdı. Nəhayət, tülkünün ikisi də əliboş geri qayıtmalı oldular...

***

...Telman danışırdı ki, bu hadisəni dəfələrlə seyr edib və hətta telefonda videoya çəkmək istəyib, qaranlıq olduğundan çəkə bilməyib. Bunun üçün əraziyə işıq da çəkib, amma tülkülər də işığın tələ məqsədli olduğunu «başa düşərək" hinə tərəf gəlməyib... Bu barədə çox eşitmişdim, amma bunları gözlərimlə görmək və canlı şahidi olmaq həvəsi məni işğaldan azad edilmiş ərazilərimizə ən yaxın yerə- Ergi qəsəbəsinə çəkib aparmışdı. Gördüklərimdən isə həm məmnun idim, həm də təəccüblü.

Bakıya qayıdanda bunları kənd təsərrüfatı nazirinin sabiq müavini, etnoqraf alim Xəlyəddin Xəlilova danışdım. O, bu barədə maraqlı araşdırma və faktlar üzərində işlədiyini dedi. Amma ikimiz də bir suala cavab tapa bilmirdik: demək, müasir elm çox şeyi bilir, amma hər şeyi bilmir. Məsələn, heyvanların bu tip «insanlığı"nın kökündə nə sirr yatır??? Axı nə itə təlim keçilib, nə də o tülkülərə. Bəs onlar o hərəkətləri hardan və kimdən öyrənib???

İstəkli oxucu, bəlkə sən bu suala cavab verəsən...

**Asif MƏRZİLİ**
**(Bakı-Daşkəsən-Ağdam-Bakı)**

# Bir kahramanın hikayesi: “Şehit Albay Orhan Ekberov” - Türkiyədən Asif Mərzilinin kitabına istinadlı yazı

**Akşam olmuştu. Orhan Ekberov, askeri üniformasını dikkatle katlayıp yatağının üzerine koydu. Sabah erken saatlerde birliğine katılmak üzere yola çıkmalıydı. Ev sessizdi, sadece mutfaktan gelen hafif çatal bıçak sesi duyuluyordu. Tam o anda, küçük Çingiz odanın kapısında belirdi. Uykulu gözlerini ovuşturuyordu.**

“Baba, yine mi gidiyorsun?” diye sordu Çingiz, dudaklarını büzerek.

Orhan, oğluna gülümsedi ve diz çökerek gözlerinin içine baktı.

“Evet, Çingiz Han.”

Her zaman böyle severdi onu.

“Ama geri döneceğim, her zaman döndüğüm gibi.”

Orhan, oğlunu büyük bir sevgiyle kucakladı.




“Bana Ertuğrul’un kılıcını da getirecek misin?” diye sordu Çingiz. (O yıllarda TRT’nin Diriliş: Ertuğrul dizisi çok izleniyordu.)

Orhan gülümsedi ve başını sallayarak,

“Unutma, sen Çingiz Han’sın. Sana onun kılıcını getireceğim. Onu bana Türkiye’den getirdiler.”

Çingiz’in küçük elleri, babasının güçlü ellerini tuttu. Gözlerinde merak ve endişe vardı.

“Peki, niye hep gidiyorsun? Bizimle daha çok kalsan olmaz mı?”

Orhan derin bir nefes aldı. Oğlunun saçlarını okşayarak, yumuşak bir sesle konuştu:

“Biliyorum, oğlum, her insanın bir görevi var. Benim görevim, seni ve tüm çocukları korumak. Vatanımızı savunmak. Senin de büyüdüğünde böyle görevin olacak”

Çingiz bir an durakladı, sonra kollarını açarak atasına sıkıca sarıldı.

“Baba, çabuk dön, olur mu?”

Orhan, oğlunun başını göğsüne yasladı.

“Söz veriyorum, oğlum. Çabuk döneceğim.”

...

Sabah güneşi, Biləsuvar’ın ufkunda yavaşça yükselirken, Orhan üniformasını giymiş, son bir kez aynaya baktı. Artık evindeki son sabahını yaşıyordu. Görevi onu bekliyordu.

## *“Ben vatanımızı işgal eden Ermenileri öldüren adam olmak isterim!”*

Nurane her zamanki gibi sabah kahvaltısından sonra mutfağı toparlamaya başlamıştı. Ama nedense elleri hafifçe titriyordu. İçinde tarif edemediği bir sıkıntı vardı. Orhan savaş hakkında hiçbir açıklama yapmamıştı. Ama gözlerinden bazı şeyler okunuyordu.

Orhan, kapının önünde durdu. Sabahın ilk ışıkları pencereden süzülerken, Nurane, hayatının adamına bakıyordu. Derin, sessiz ama çok şey anlatan bir bakıştı bu.

Orhan sessizce çocukların odasına yöneldi. Henüz uyanmamışlardı. Her birini tek tek öptü, önce sevgili annesinin adı, kızı Sevil’in saçlarını okşadı. Bir an durdu, küçük oğlunun yüzünü elleri arasına aldı, alnından öptü. Sonra sessizce odadan çıktı.

Nurane, onun bu vedasını daha önce de görmüştü ama bu sefer içini bir ürperti sardı. Daha önce gittiği her görevde gülerek, sevinçle evden ayrılmıştı. Bu sefer sessizdi.

- “Orhan, bir şey mi oldu?” diye sordu, titrek bir sesle. “ Bugün daha erken çıkıyorsun!”

Orhan gülümsedi. Ama yüzünde derin bir ciddiyet vardı.

- “Önemli bir görevim var. Bir an önce gitmeliyim,” dedi Orhan. Başını hafifçe iki yana salladı. Gülümsedi.

“Türkler bir haftadan fazladır, Azerbaycan’da bize eğitim veriyorlar, birkaç günümüz daha var,” dedi.

Ama Nurane, bunun sıradan bir görev olmadığını, içindeki sessiz korkunun boşuna olmadığını anlamıştı.

## *Son vedalaşma...*

- “Ne zaman dönersin?” dedi sesini kısarak.

Orhan cevap vermedi. Bunun yerine ellerini tuttu, sıcak elleriyle sıktı. Sonra başını hafifçe eğerek, her zamanki yumuşak sesiyle fısıldadı:

- “Bilmiyorum, Nurane! Ama ne olursa olsun, aklım her zaman sizde olacak. Çocuklara iyi bak, onları üzme.”

Nurane başını salladı, gözleri doldu. Ama bir damla bile gözyaşı dökmedi. Güçlü olmalıydı. Onun karşısında zayıflık göstermek istemedi.

- “Beni böyle uğurla Nurane, başı dik bir komutanın karısı gibi,” dedi.

Orhan çantasını dikkatle hazırlarken Nurane onu izliyordu. Gözleri, söylemek istediklerini yüksek sesle ifade ediyordu ama dili susuyordu. İçindeki korkuyu göstermemek için dirense de Orhan, onun yüreğindeki fırtınayı hissetmişti. Gülümsedi ve döndü, tekrar elini tuttu ve parmaklarını nazikçe sıktı.

“Dönünce, Çingiz’le birlikte bahçeye ağaç dikeceğiz.”

Nurane başını salladı ama içindeki duygular tamamen farklıydı. Orhan’ın sesi ne kadar güçlü olsa da, bu sözler ona veda gibi geliyordu. Bir şeyler demek istedi ama sözler boğazına düğümlendi.

Orhan, kapıya yöneldiğinde bir an durdu. Son bir kez arkasına dönüp hayat arkadaşı Nurane’ye baktı. Gözlerinde, çocukluk yıllarına ait bir ışık parladı. O an, aklında Saatlı’da geçen günler canlandı...

**SAATLI’DA DOĞAN BİR YİĞİT**

Orhan Ekberov, 1982 yılının Aralık ayında Azerbaycan’ın Saatlı şehrinde dünyaya geldi. Kura Nehri kıyısında yer alan bu şehir, verimli toprakları ve çalışkan insanlarıyla tanınırdı. Saatlı, sadece doğayla iç içe yaşayan insanların yurdu değil, aynı zamanda bağımsızlık ve özgürlük mücadelesine gönül vermiş yiğitlerin yetiştiği bir diyardı.

Orhan, dört erkek kardeşin üçüncüsü olarak, disiplinli bir ailenin içinde büyüdü. Babası polis şefiydi; düzeni, adaleti ve vatanseverliği çocuklarına küçük yaşlardan itibaren aşıladı. Annesi ise doktor olarak insanlara şifa dağıtıyordu. Daha çocuk yaşlarda düzenli bir hayatın içinde yetişen Orhan, cesareti ve kararlılığıyla ailesinin dikkatini çekiyordu.

Dağlık Karabağ, Azerbaycan için sadece coğrafi bir bölge değil, tarihin, kültürün ve bağımsızlık mücadelesinin kalbidir. Orası, geçmişin hatırası, geleceğin umududur. Yıllarca süren işgal, halkın yüreğinde derin bir yara açtı. Ama Azerbaycan hiçbir zaman bu topraklardan vazgeçmedi. 2020’de kazanılan zafer, sadece bir savaşın değil, bir milletin yeniden doğuşunun ve varoluşunun mümtaz bir destanıydı.

Orhan Ekberov, çocukluğu bozkırların özgürlüğü içinde geçti. Büyükleri ona kahramanlık hikayeleri anlatırken, Orhan’ın gözleri ışıldar, kendini o kahramanların içinde hayal ederdi. Bu kahramanlık destanları, onun çocukluk hayallerini şekillendirdi. Çocukluğundan itibaren daima kutsal bildiği vatan topraklarının bir parçası olan Karabağ’ın Ermeni işgalinden kurtarılması ülküsüyle yaşadı.




Orhan birgün okuldan dönüşünde babasının yanına oturdu. Baba-oğul, evlerinin önündeki küçük avluda sessizce oturuyordu. Babası, uzun süre sustuktan sonra Orhan’a dönerek, “Güçlü olmak istiyorsan önce sabırlı olmayı öğrenmelisin,” dedi.

“Gerçek savaşçı, ne zaman savaşacağını bilen kişidir.”

O gece Orhan uzun süre uyuyamadı. Babasının sözleri zihninde yankılanıp duruyordu. Günü geldiğinde sadece güçlü bir dövüşçü değil, aynı zamanda akıllı bir savaşçı olacağına dair kendine söz verdi.

Daha ilkokul yıllarından itibaren tarih derslerine büyük ilgi duyuyordu. Karabağ’ın geçmişi ve Azerbaycan’ın bu konuda verdiği mücadeleler onu derinden etkiliyordu. Azerbaycan’ın tarihi ve kahramanlarıyla ilgili kitaplar okuyor, öğretmenlerine bunlarla ilgili sorular soruyordu.

Bir gün öğretmeni sınıftaki çocuklara gelecekte ne olmak istediklerini sorduğunda, arkadaşları doktor, öğretmen ya da mühendis gibi meslekleri sayarken Orhan, gözleri parlayarak şu cevabı vermişti.

“Ben vatanımızı işgal eden Ermenileri öldüren adam olmak isterim!”

Bu cümle, onun çocukluk hayallerinin sıradan bir meslek seçimiyle sınırlı olmadığını, aksine kaderini kendisinin belirlediğini gösteriyordu. O gün orada sadece bir çocuk konuşmamıştı; yıllar sonra vatan uğruna can verecek bir kahramanın yüreği seslenmişti.

Orhan, 1989 yılında Saatlı’daki 3 numaralı ortaokula başladı. Disiplinli, çalışkan ve lider ruhluydu. Matematik derslerini de severdi ama asıl tutkusu tarih ve vatan sevgisiydi. Gönlünden hep şu düşünce geçerdi:

“Senin kalbin sadece kendin için değil, milletin için atıyor, Orhan!”

Bu düşünce, hayatı boyunca onu hiç bırakmadı.

***

...Orhan, büyüdüğü yıllarda Azerbaycan halkının en acı günlerine şahit oldu. 1990’ların başında Ermenistan işgal güçleri Karabağ’ı ele geçirdi. Yüz binlerce Azerbaycanlı topraklarından sürüldü. 1992’de Hocalı’da, bir milletin yüreğine kazınan kara bir leke olarak insanlık dışı bir katliam yaşandı.

Bir akşam, Orhan babasının odasına girdi. Elinde, Hocalı’dakatledilen çocukların fotoğraflarının bulunduğu bir gazete vardı. Gözleri yaşlarla doluydu. “Baba,” dedi, “bu çocukların intikamını kim alacak?”

Babasının gözleri doldu ama sesi sertti: “Vatanını seven herkes, elinden geleni yapacak.”

O gece, Orhan uyumadı. Odanın köşesinde, boks eldivenleri bir kenarda duruyordu. Gözlerini onlara dikti ve yemin etti:

“Ben, vatanım için savaşacağım.”

1997’den itibaren Lise eğitimini Bilasuvar’da sürdürdü. O yıllarda artık kararını netleştirmişti: Asker olacaktı. Vatana en büyük hizmetin asker olarak daha iyi verilebileceğini düşünüyordu.

Orhan, genç yaşlarından itibaren kendini fiziksel ve ruhsal olarak savaşçı bir ruhla yetiştirdi. Boks sporuna yönelerek disiplini, dayanıklılığı ve mücadele azmini geliştirdi. O, her an vatan için mücadeleye hazır olmak istiyordu.

Sporla ilgilenmek en büyük tutkularından biriydi.

Boks ringlerinde kazandığı şampiyonluklar, Orhan’a sadece fiziksel bir güç kazandırmakla kalmayıp, zorluklarla mücadele etme yeteneği ve stratejik düşünme becerisi kazandırdı.

...

2000 yılında, Haydar Aliyev adına açılan Azerbaycan Yüksek Askeri Okulu’na kabul edildi. Bu askeri okul onun hayatında yeni bir sayfa açtı. Disiplin, fedakarlık, vatan sevgisi... Burada öğrendiği her şey, onu gelecekte Karabağ’ın kaderini değiştiren bir kahraman yapacaktı.

Askerlikte komsndo keşifçi uzmanlığını seçti. O, cephede her zaman en önde olmak, düşmanla en yakından savaşmak istiyordu. 2004 yılında mezun olduğunda artık bir askerden daha çok savaşmaya hemen hazır bir savaş adamıydı. Artık O, vatanı için yola çıkmış, savaşmaya ant içmiş bir subaydı. Bu yolculuk, onu şehadete, sonsuzluğa taşıyacak bir kahramanlık destanının başlangıcı oldu...

Günlük hayatında en çok keyif aldığı uğraşlardan biri de otomobil kullanmaktı. Direksiyon başına geçtiğinde özgürlüğü hisseder, uzun yolların huzur veren sessizliğinde düşüncelere dalardı.

Memleketinin yollarında otomobiliyle dolaşmak ona haz verirdi.

**ORHAN’IN EVLİLİĞİ**

Orhan Ekberov’un hayatında başka bir öncelik daha vardı. Ailesi. Vatanına duyduğu sevgi kadar özel bir yere sahip bu kişi eşi Nurane Hanım’dı. Orhan ve Nurane Hanım-’ın yolları, anne Sevil Hanım’ın aracılığıyla kesişti. Orhan’ın annesi, Nurane Hanım’ı tanıyordu ve oğluna onunla tanışmasını önerdi. Orhan, onu tanıdığında “ işte beraber bir ömür yaşanacak insan” demişti.

Bu evlilik, sadece iki insanın hayatlarını birleştirmesi değil, aynı zamanda ortak bir yolculuğun başlangıcı oldu. Orhan, asker olarak yoğun bir tempoda çalışsa da ailesine ayırdığı zamanın kıymetini her an hissediyordu. Nurane ise her koşulda onun yanında duran, sabrı ve sevgisiyle Orhan’a güç veren bir eşti. Birlikte kurdukları yuva, yalnızca sevgiyle değil, aynı zamanda sorumluluk ve fedakarlıkla da şekilleniyordu.

Ekim 2012’de kızları Sevil dünyaya geldi. Sevil, çok sevdiği annesinin adını taşıyordu. Aileye neşe getiren bu küçük kız, babasına hayranlık duyan bir çocuk olarak büyüdü. Orhan’ın askeri kimliği onun gözünde yalnızca bir görev değil, aynı zamanda bir duruştu. Sevil, babasının elini tuttuğunda kendini güvende hisseder, hep onunla olmayı isterdi.

Kasım 2013’te ise aileye Çingiz katıldı. Küçük yaşlardan itibaren babasına benzeyen yanlarıyla dikkat çekiyordu: meraklı, cesur ve hareketliydi. Orhan, zaman zaman çocuklarına baktığında, onların her anına tanıklık etmek istediğini hissediyordu. Sevil ve Çingiz büyüdükçe, evdeki neşe de, sorumluluk da artıyordu.

Orhan için ailesi, sadece hayatının en değerli parçası değil, aynı zamanda kendisini her gün daha iyi bir insan olmaya teşvik eden bir ayrıcalık ve önemli bir güçtü. Onların varlığı, tüm yorgunlukların gitmesinde en büyük güç kaynağıydı.

***

2020 yılı, Orhan ve ailesi için önemli bir dönüm noktası oldu. Azerbaycan ve Ermenistan arasında yeniden yükselen gerginlik, Karabağ’ı geri alma mücadelesini başlatmıştı. Orhan, yıllardır beklediği bu çağrıya kayıtsız kalamazdı. Bu kez sadece bir asker olarak değil, aynı zamanda bir baba olarak da büyük bir sorumluluk taşıyordu.

Ailesinden, çocuklardan ayrılmak kolay değildi. Nurane, her zamanki gibi güçlü durmaya çalışıyor, ama içinde fırtınalar kopuyordu. Sevil ve Çingiz ise babalarının gidişini anlamaya çalışıyor, belki de ilk kez büyümek zorunda kalıyorlardı.

Orhan, evden ayrılırken arkasında sadece bir aile değil, bir hayat bırakıyordu. Ama biliyordu ki, dönüp baktığında onu bekleyen, her zaman yanında olan bir eşi ve çocukları vardı. Onlar için, vatanı için, sevdikleri için yola çıktı.

**(Davamı 15-ci səhifədə)**

**Biz dünyanın gəlişmiş xalqlarından niyə geri qalırıq, səbəb nədir? Səbəb-düşüncəmizin geriçi olmasıdır. Düşüncəmiz niyə geridir? Çünki düşüncəmizi körpəlikdən ta bu günəcən- VII əsrdən savadsız ərəblərin təsirinə düşmüşük.**

# Törə - Türk Anayasası...

## Yaxud, tenqriçiliklə dinlərin fərqi...



Dünya xalqlarının öncülləri artıq 236 ildir ki, uydurma Xristian Dini qaydalarıyla yox, gəlişmiş dünyəvi qanunlar əsasında yaşayırlar, uğurları da göz qabağındadır. VII əsrdə aramsız davam edən ərəb işğalları-Qaba Gücü sonucunda 199 il Ərəb İslam Dini-Yumçaq Gücü qaydalarına ardıcıl zorlanan türklər isə çoxlu cəhdlərə baxmayaraq, gömüldükləri bu geriçi, cahil islam düşüncəsindən sonadək qurtula bilməmişlər...

***

Türklər ərəb işğallarına qədər panteist tək Tanrıçı inancında olsalar da öz birliklərini, dövlətlərini özəl dünyəvi gələnəkdən qaynaqlanan düşüncəyə əsaslanan 33 bəndlik Törə-Anayasa-Əsas Qanun-Konstitusiya əsasında idarə etmişlər. Türklər bu Törə əsasında "25 min illik dövlətçilik tarixlərində 25 İmperiya, 152 Dövlət, 9 Mixtar Respublika, 5 Muxtar Vilayət yaratmışlar." (f.d.Aydın Qasımlı). Türklərin Tanrıçı inancı öz aydınları-Şamanlarla ötürülən, Türk ulusunun ilk birlik qurumu, sosial özəyi olan Ailəyə, Dövlətə, dövlətin ideoloji əsası olan Dövlətçilik düşüncəsinə, Ulusun zamana uyğun yaşamına xidmət etmişdir. Yoxsa, ərəblər kimi İslam dini funksionerlərinin fəaliyyət şəbəkəsi kimi formalaşmamışdır.

Ərəblərdə inanc - özlərinin icad etdiyi simvolik, panteist bütlərə, VII əsrdən isə zorakı Ərəb İslam dini uydurmasına olmuşdur. Ərəb Xilafətində inanc - İslama xidmət etmək adı altında başqa inancda olanların malını yağmalamağı, onları öldürməyi, kölə etməyi, əsarətini, cariyə qadınları zorlamağı halal sayılmışdır. Göründüyü kimi, ərəblər İslamı hakimiyyətə gedən yolda idarə üsulu, alət kimi kullanmışlar, indi də kullanırlar. Ona görə də din rəhbərləri başda olmaqla İslamla zorla düşüncəsi qandallananların hamısı tabeçilikdə olanlara, kasıblara əslində olmayan "O dünya keflərini" nisyə vəd edib şirnikləndirməklə aldatsalar da, özləri real yaşamlarında nağdı keflərindən qalmamışlar, elə indi də qalmırlar...

***

Ərəb işğalçıları türkləri ərəb ümmətçiliyində asan əridə bilmək, ərəbləşdirmək üçün Türkün və başqa xalqların bütün ələ keçən gələnəklərini, mədəni irsini-Yumşaq Gücünü məhv etməyə çalışmış, ərəbləşdirmişlər. Ərəb işğalınadək türk toplumunun yaşam əsası kimi qüvvədə olan Türk Törəsini oxuduqca heyran olmaya bilmirsən, sanki 1948-ci aralıq-dekabr ayının 10-da BMT-nin Baş Məclisi tərəfindən qəbul edilmiş, 30 maddəlik, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin, VIII əsrdəki təbii seçmə əsasında formalaşmış Türk Ulu Babası, daha arı-saf təməl prinsipləri ilə tanış olursan, sadəcə sonuncu, kapitalizmin sosial münasibətləri çərçivəsində olan insan hüquqlarını qoruyur.

> "Ərəblərdə inanc - özlərinin icad etdiyi simvolik, panteist bütlərə, VII əsrdən isə zorakı Ərəb İslam dini uydurmasına olmuşdur"

Əziz oxucu, indi mən səni çox qısa şərhlərlə bu Törə ilə tanış edəcəm, oxu və düşün, mötərizələrdəkilər şərhçinindir.

Beləliklə, Beləliklə, FB-də 27.02.2024, yaydı dostum Rovshan Kebirli, Erdal Çakmakci-"Türk atalarımız taşa kazıyıp yazmışlar" Bilge Kağan Yasası: En eski Türk Anayasası "Töre":

-"Türk atalarımız taşa kazıyıp yazmışlar" -Bilge Kağan Yasası: En eski Türk Anayasası "Töre":

***1. Tengri (yaratan) Tektir.(Bu, türklərin bilgisizlikdən irəli gələn, başqa dinlər kimi şəbəkələnməmiş, dələduzluğa çevrilməmiş, yaradan haqda bəsit, sübutsuz, panteist inanclarıdır, dünya görüşüdür.)***

***2. Her kim ki, Tengri'den kut (türk inancına görə bədəni canlandıran müqəddəs enerji, qüvvə) almak dilerse, başkasına yakarmasın (yalvarmasın).***

***3. Bir İl (El), bir Kağan (Xaqan), bir Tengri...(Özünü qorumanın Birlik formulu)***

***4. Bir kına iki kılıç girmez. Bir hatun iki er alamaz ve bir budunda (tayfa, ulus, xalq, millət) iki töre olmaz. Töre tektir. Töre kesin (yegin, qəti, birdibli) ve keskindir. Kim ki, töreye uya kutlanır (uğurlanır, xoşbəxt olur, bir yerə toplanır). Kim ki, töreye kıya katlanır (sınır, ad sanını itirir).***

***5. Kimse töreden üstün değildir. Dirlik ve birlik için töre budur.***

***6. Bir çoban sürüsünden, bir er ailesinden, bir Kağan budunundan sorulur.(Özünü, toplumu ayaqda tutmaq, gəlişdirmək, qiymətləndirmək üçün sorğulama formulu)***

***7. Her er eşine, atına, pusatına (silahına, büsatına-ad, sanına,nüfuzuna) sahip çıkacak. (öz varlığını, soyunu, birliyini qoruma tapşırığı)***

***8. Ana, babaya ve ataya sayğı, tazim duyulacak. (Ailə özəyinin, qurluşunun, soyun, sosiallaşmanın iç qorunma qaydası)***

***9. Hısmına (soybağı, soy ağacı, qan bağı, qohum-əqrabasına) sarılacak, komşusunu gözetecek. (Tayfanın iç qorunma, sosiallaşma qaydası)***

***10. Er kişi yalan söylemeyecek. (Düzlüyün-bütün əyriləri kəsən formulası)***

***11. Mal çalan, mülk çalan misliyle ödeyecek. Hesabı ya malıyla ya canıyla sorulacak. (Sosial ədalət formulu)***

***12. Kim ki, bir ırza (namus, ismət, iffət, şərəf) toxunsa, canından olacak.***

***13. Her kim olursa olsun haksız, aldatıcı iş tutarsa hesabı hemen sorulacak. (Qanun şahdır, şah qanun deyil, prinsipi)***

***14. Savaşdan beri duran ya da kaçan tamuya (tamaq-cehennem) uçacak (Düşmə, ədalətsizliyə qarşı mübarizənin formulası).***

***15. Aman dileyene kılıç üşürülmeyecek (çəkilməyəcək), sığınana arka dönülmeyecek. (Savaşın Humanist törəsi, sivil qaydası)***

***16. Baş kaldıranın başı alınacak, hak isteyenin hakkı veriləcek.(İç düzəni qoruma, şikayətlərə düzgün baxılması törəsi, qaydası)***

***17. Kimse kimseye üstünlük taslamayacak (mənəmlik etməyəcək, lovğalanmayacaq). Ne ak etin karadan, ne karanın kızıldan, ne kızılın sarıdan farkı olmayacak. (Qanun qarşısında bərabərlik, sosial bərabərlik, ədalət törəsi - hüququ)***

***18. Kin ve gururdan uzak olunacak.(Mənəvi təmizlik, arı-saflıq qaydası)***

***19. Mazluma merhamet, zalime azap duyulacak (sosial ədalət hüququ).***

***20. Zayıfa, yaralıya, çocuğa ve kadına el kaldırılmayacak. (Humanizm)***

***21. Kızı isteyen Kağan da olsa, bey de olsa, kız istediğine verilecek.(Qadın şəxsiyyətinə sayğı, insan hüququ, gender bərabərliyi)***

***22.Gereksiz yere ağaç kesmeyeceksin, suyu kirletmeyeceksin.(Canlıların, həyatımızın əsasını-Ekoloji tarazlığı qoruma prinsipi)***

***23. Bilmeyip de bildim demeyeceksin, bilene danışacaksın.(Sosial ədalətin prosesual təmini mexanizmi.)***

***24. Bugünün işini yarına bırakmayacaksın.(Çalışma, yaşam prinsipi)***

***25. Kusur görmeyecek, kusur aramayacaksın (Yalandan, əsassız qüsur axtarmayacaqsan).***

***26. Güçlüyken affet, zayıfken sabret. (Humanizm, gərəkli dözüm prinsipi)***

***27. Yazgına asi olma. (Humanizm, zəifi qoruma prinsipi)***

***28. Yaptığın iyiliği unut, yapılan iyiliği unutma. (Ərdəmlik, alicənablıq, kişilik, obyektivlik prinsipi)***

***29. Herkes adaletle iş görecek.("Ədalət mülkün təməlidir" M.K.Atatürk)***

***30. Her ne edersen et, yargılanacağını her daim akılda tut.(Cavabdehlik, məsuliyyətli olma, kimsənin qanundan qaça bilməyəcəyi prinsipi)***

***31. Milletine yaban (yabançı, vəhşi, yırtıcı) kalma (olma). İpeğin iyisine, sözün güzeline kanma (aldanma), onlara boyanma (bulaşma) (Öyüd).***

***32. Kağan odur ki, adaleti üstün tutsun, töreyi yaşatsın. Töre yok olursa, İl (El) yok olur, İl (El) olmazsa, budun (xalq) kul olur. (Sosial qoruyucu prinsiplər)***

***33. Ey Türk Oğuz beyleri, ey milletim işitin! "Üstte mavi gök çökmedikçe, altta yağız (qara, qarabuğdayı, əsmər) yer delinmedikçe senin İlini (Elini) ve töreni kim bozabilir?"***

(#BilgeKağanYazıtı - 730.#OrhunIrmağı yakınları, #Ötügen-#Moğolistan)

"Daha (hələ) İslamiyet Türk toplumuna gelmeden Türk'ün tek tanrı inancı ve töresi..."

"Bu Yazıt, Bilge Kağanın ölümünden (734) bir yıl sonra (735), kendi oğlu olan Tenqri Kağan tarafından diktirilmişdir. Bu yazıtta da konuşan, Kül Tigin yazıtında olduğu gibi Bilge Kağandır. Moğolustanda Orhon irmağı yakınlarında bulunmakdadır. Bilge Kağan Yazıtı ile Kül Tigin Yazıtı arasındakı uzaklık bir kilometredir. Göktürk yazısı ile yazılmıştır. Bazı bölümleri Kül Tigin Yazıtından aktarılmıştır. Ondan farklı olarak Kül Tiginin ölümünden sonrakı olayları da anlatmıştır. Kül Tiginin kitabelerinin çevresinde Bilge Kağanın mezarının etrafında da balballar vardır. Bunları Yolluq Tigin yazmıştır. Bilge Kağan Yazıtının yüksekligi 3.80 metrdir. Bilge Kağan Yazıtının kopyası Türkiye Gazi Universitesindedir."(Vikipedya).

***

Türk Törəsinin inanc tərəfi keçilən bir düşüncə, siyasi nəzəriyyə tarixidir, dünyəvi tərəfi isə, uydurma olmadığından gərəklidir, bu gün də yaşadılmalıdır, çünki çağımızla uzlaşır. Göründüyü kimi, Türk Törəsi 1295 il qabaq yazılmasına baxmayaraq azca fərqlə bu gün də sosial dəyərini saxlayır və anlaşılandır. Sevindirici haldır ki, bu abidələrin olduğu yerlərə ərəb işğalçılarının əli çatmamışdır. İndi görün ərəblər işğal etdikləri yerlərdə nə qədər maddi və mədəniyyət abidələrimizi məhv etmişlər...

***

Tenqri-qədim türklərdə məna yüküycə bütün canlılara həyat verən enerji, qüdrət, güc anlamındadır. Tenqri-dünyəvi düşüncəyə, yəni varlığın fiziki çəkmə və itələmə xassəsinə, xarakterinə, maqnit qüvvəsinə, qravitasiya, əksliklərin vəhdəti, başqa sözlə, varlığı oluşdurma şərtlərinə çox yaxın anlamdadır. Bu baxımdan Tenqri-dinlərin uydurduğu, əslində olmayan Budda, İsanın Allahın oğlu olması, Allah (Ay Tanrısı Əl-İlah) və sair cəfəngiyyatlardan uzaq, reallığa yaxın olduğu qədər fərqli anlamdadır.

Tenqri-tenqriçilik-panteist, yəni doğaya, təbiətə münasibətdən irəli gələn, güman edilən düşüncədir.

Tenqri-tenqriçilik-panteist düşüncə, Homo Sapiens adlı canlı-insan növünün yaranışından, onun dış, xarici qüvvələr qarşısında gücsüzlüyündən irəli gələn ziyançəkmə, qorxu faktorundan qurtulmaq ümidi və yaşamaq istəyindən doğur, oluşur. Bəzi panteist düşüncə - doğanın güman edilən ziyanından, təhlükəsindən "qorunmaq", onları özünə qarşı "zərərsiz etmək", "neytrallaşdırmaq" üçün nəinki heyvanları, hətta insanları qurban-"rüşvət" verir, özlərinin uydurduqları ayinləri icra etməklə özlərinə arxayınlıq imitasiya edir, özlərini toxtatmağa çalışırlar. Ancaq Tenqriçilikdə qurbanvermə ayinləri məlum deyil.

Tenqri-tenqriçilik-başqa sözlə, açunun-dünyanın materialist düşüncə əsasında qavranmasının, öyrənilməsinin yanlış da olsa ən ilkin, ibtidai formasıdır desək, yəqin səhv etmərik. Bu baxış içərikcə, yəni mahiyyətcə bilgi verə bilməsə də real görünəndən, faktlardan, təcrübədən irəli gələnləri yanaşı, düzərkən fərqləri görməklə, gücsüzlükdən, əlacsızlıqdan, çıxılmazlıqdan çıxış yolunu-fikrən təbiət qüvvələrinə tapınmada görür, qəbul edir. Bu panteist baxışında qəsdən uydurma, yalan yoxdur, qorxudan, əlacsızlıqdan tapınma, səmimi-vicdanlı yanılma, güman var, yəni qavramda adamın ağlı bundan artığını kəsmir... Ona görə də bu baxış sonuc etibarilə yanlış olsa da, lakin keçilən düşüncə sürəci, prosesi, yolu səmimi, vicdanlı yanılma olduğundan bilimə, elmi düşüncəyə gedən dünyəvi yolun ilkin aşaması, mərhələsi kimi qiymətləndirilə bilər. Başqa sözlə, adam "bilmir ki, bilmir, (elə bilir ki, bilir...X.Ə.)"(Nəsrəddin Tusi,1201-1274).

Dövləti olmayan bu günkü qəbilələrin, tayfaların, xalqların təsirli, dağıdıcı təbiət qüvvələrinə münasibəti, düşüncəsi də eynən buna oxşar səviyyədədir. Bu olay, məsələ "Siyasi nəzəriyyələr tarixi" fənnində daha ətraflı öyrədilir.

Dinlərdə isə bunun əksidir. Çünki dinlərdə iddialarına məntiqi sübut gətirilmədən, bilərəkdən, qəsdən yalan uydurulur, yalan danışılır, uyğun faktlar saxtalaşdırılır, öz dələduzluq marağına, niyyətinə uyğun təhrif edilir. Dinlər - uydurulduqları vaxtdan aldatdığı başqaları üzərində üstünlük əldə etmə xarakterli vasitədir, maşadır. Dinlər, ona uyanların, aldananların hesabına parazitcəsinə maddi və mənəvi gəlir əldə edən dələduzların şəbəkələnmiş, kriminal birliyidir.

Topluma xeyirliliyi, faydalı iş əmsallığı baxımından Tenqriçilik- dinlərlə müqaisədə daha az ziyanlıdır. Məsələn, Tenqriçiliyə dinlərdəki kimi kriminal birlik demək olmaz, çünki onun daşıyıcıları, funksionerləri sayılan şamanlar (təkcə Türküstanda 12 min tenqriçi-şamanı ərəb Küteybə öldürmüşdür), baxış sistemi-tenqriçilik-şamanizm başqasının hesabına yaşayan parazitlər kimi təşkilatlanaraq dələduzluq şəbəkəsinə, mütəşəkkil kriminal dəstəyə, kriminal dövlətə, kriminal imperiyaya çevrilməmişdir. Əksinə, bunlar xüsusi qabiliyyətli bireylər-fərdlər-şəxslər şəklində, ayrılıqda fəaliyyət göstərmiş, Türk ağıl böyüklərimizin davamçıları, təbliğatçıları kimi soyun, tayfanın, xalqın, dövlətin birlik İdeologiyasını, Törəsini yaratmış, formalaşdırmış, qorumuş, yaymaqla yaşatmışlar. Məsələn, Törədə, Tenqriçilikdə başqa dinlərdə, xüsusilə də Ərəbin İslam Dinində olduğu kimi - fərqli inancda olanları öldürmək, yandırmaq, işgəncə vermək, kütləvi qırmaq, kölə etmək, zorlamaq, ailəyə əsgər soxmaqla zorlamaq, cariyə etmək, ələ keçirilən düşmən malını, əmlakını, canını qənimət kimi halal saymaqla, alıb- satmaq, insan alveri üçün kölə bazarları yaratmaq kimi insanlığa, ləyaqətə, savaş qaydalarına sığışmayan vəhşiliklər, barbarlıq yoxdur. "Türk millətinin döyüşdə məğlub edib, məğlubiyyətini etiraf edən döyüşçülərin belə, mülkiyyət hüququnu tanıyıb ona əməl etməsi türk millətinin hüquq, humanizm, ədalət anlayışı və mədəni səviyyəsi indiyədək mövcud olmuş və mövcud olan bütün millətlərdən fərqini ortaya qoyur." (f.d.Arif Rəhimli)

Xaqan titulu hamıdan bacarıqlı, birləşdirici olmaqla, bir növ Tenqrinin yerdəki real insan obrazı kimidir.

Yazdıqlarımın düzgünlüyünü bilmək üçün ərəbin Quranı ilə, türkün 33 bəndlik Törəsini oxumaq yetərlidir. Tarixdən bildiyimiz kimi, Bilgə Kağanın Törədəki 33-cü Tapşırmasını, VII əsrdə zəifləmiş Türk ulusunu yenən Ərəb İslam Orduları və Ərəb İslam Dini-Yumşaq Gücü pozmuşdur. Məntiqlə, özəl dünyəvi düzənimizi qaytarmaq, bilimə, dünyəviliyə, inkişafa, mədəniyyətə, başqa sözlə, özümüzə dönmək üçün hər cür dindən, o cümlədən Ərəb İslam Dinindən, onun geriçi düşüncəsindən, yaşam tərzindən imtina edilməli, bilimə-elmə sarılmalıdır.

**Əziz oxucu indi seçim özünündür...**

**Məmməd Xan Əzizxanlı,**
**keçmiş prokuror, əmək veteranı**

**Tarix elmləri doktoru Boran Əzizin “Ağdamın Mərzili və bəzi başqa kəndlərindən repressiya edilmişlər” kitabında 1938- ci ildə Musavat hökumətinə rəğbətinə görə güllələnənlər arasında babam Allahverdiyev Alverdi Məmməd oğlu da var. Aşağıda həmin tarixi sənədi- erməni müstəntiq Canqarovun babamı dindirmə protokolunu olduğu kimi təqdim edirəm:**

# Babam Sovet hökumətinin tezliklə dağilacağini dediyinə görə 1938-ci ildə güllələnib!



**“Ağdam rayonunun Mərzili kəndindən günahsız yerə güllələnmiş və uzunmüddətli həbs cəzası almış adamlar mövzusu:**

**REPRESSİYAYA MƏRUZ QALMIŞ MƏRZİLİ KƏND SAKİNLƏRİ**

**I.1. Allahverdiyev Alverdi Məmməd oğlu**

“Humanist” sovet dövlətinin cəza orqanlarının günahsız qurbanlarından biri Ağdam rayonu Mərzili kənd sakini Allahverdiyev Alverdi Məşədi Məmməd oğludur (1,1-2).

Arxiv istintaq materiallarında cinayət işinin başlandığı tarix 1938-ci il fevral 11-i, yekunlaşdırldığı tarix isə martın 5-i olaraq yazılmışdır. Göründüyü kimi, cəmisi 22 günə, tələsik, başdansovdu, kobud qanun pozuntusu və işgəncələr verməklə, günahsız bir insanın həyatına son qoyulmuşdur.

1938-ci il fevralın 10-da Azərbaycan Sovet Sosialist Respublikası Xalq Daxili İşlər Komissarlığının Dövlət Təhlükəsizliyi İdarəsinin (Bundan sonra Azərb. SSR XDİK DTİ-B.Əziz) Ağdam rayon şöbəsinin rəisi, Dövlət Təhlükəsizliyi (Bundan sonra DT - B.Əziz) leytenantı, Qarabağ iqtisadi rayonunda yerləşən Hadrut rayonundan olan, mənşəcə erməni Camqarov Alverdi Məşədi Məmmədoğlunun həbsi haqqında qərar qəbul etmişdir (yenə orada).

Qərarda Alverdi kişinin həbsi üçün əsas Azərbaycan XDİK-nin I dərəcə, 6 saylı siyahısı olduğu göstərilmişdir.

“...Alverdi Məşədi Məmmədoğlu, 50 yaş, varlı, bitərəf, kolxozçu, həbs olunmamışdır.

Təqsirləndirilən Molla Mustafa Quliyev və Sərdarov Fətiş Hüseyn oğlunun ifadələrində onun adı əks-inqilabçı, qiyamçı “Müsavat” təşkilatının (Bundan sonra əiqmt-B.Əziz) üzvü kimi keçir.”

Müstəntiq Alverdi Məşədi Məmmədoğlunun həbsi ilə bərabər, onun evində axtarış aparılması haqqında order imzalamışdır (1,3).

Axrtarışda XDİK Ağdam rayon şöbəsinin katibi Babayev, Pirumov iştirak etmişdir.

Axtarış protokolunda evdən istintaq üçün maraqlı heç nə tapılmadığı yazılmışdır.

Ənənəvi olaraq, istintaqdan əvvəl təqsirləndirilənin anketi tərtib edilmişdir (1,5) .

“Alverdi Məşədi Məmməd oğlu, 65 yaş*, savadsız, bitərəf, evli, arvadı, Fatma Oruc qızı, 45 yaş, oğlu Oruc 19 yaş, oğlu Rəşid 17 yaş, oğlu Cəllət 13 yaş, oğlu Millət 9 yaş, qızı Cəvahir 5 yaş”.

Maraqlıdır ki, Bir qədər əvvəl yaş 50 göstərilmişdir. Bu da istintaqın başdansovdu aparıldığının göstəricilərindən biridir.

İstintaq Mərzili kənd sovetindən Alverdi kişinin əmlakı haqqında arayış alıb (1,6).

Əmlakı haqqında Həbs olunana qədər 1929-cu ilə qədər 1917-ci ilə qədər

Əkin yeri- 10 15

Təsərrüfat tikililəri: y Tövlə, pəyə 3 4 6

| | | | |
|---|---|---|---|
| Kotan | - | 2 | 6 |
| Mala | - | 1 | 4 |
| At | 2 | 6 | 11 |
| İnək | 2 | 4 | 10 |
| Öküz | - | 4 | 10 |
| Qoyun | 22 | 1200 | 2000 |
| Keçi | - | 10 | 12 |

İllik gəlir və vergi: yer əkməkdən - 2000 -

Heyvandarlıqdan - 4000 -

Bidəfəlik kənd təsərrüfatı vergisi - 1000 -

Fərdi - 2000 -

Könüllü - 1000 -

Muzd ilə çalışanlar:

Daimi - 3 4

Mövsümi - 2 3

Arayış üzərində yapışqanla yapışdırılmış ağ nazik kağızda yazılmışdır: “Ədil yüzbaşının xalası oğlu, səsinin alınmamasına Gülabı Bahadur Rzayev kömək edib”.

XDİK DTİ-i Ağdam rayon şöbəsinə Mərzili kənd sovetindən Alverdi kişiyə verilən xasiyyətnamədə o, anti-sovet, anti-kolxoz ruhlu, əməkçi adamları istismar edib muzdur saxlayan, guya yoxsulların dövləti olan Sovetlər üçün ən böyük qəbahətlərdən olan varlı olmaqda ittiham edilmişdir (1,7).

“...Keçmişdə baş kəndçi olub. Kulakdır. Kulaka düşən zaman Gülablı Bahadur Rzayev qoymamışdır. Muzdurları istismar edib. O, Məhəmmədəli ilə birlikdə, sovet hakimiyyətinin tədbirlərinə mane olur, qızların məktəbə getməsinə imkan vermir, çəkindirir...”

1938-ci il fevralın 17-də Mərzilidəki “Zəhmət” kolxozunun 152 üzvünün iştirakı ilə ümumi yığıncağı keçirilmişdi(1,9). İstintaqa göndərilmiş yığıncağın protokolundakı çıxarışdan aydın olur ki, sədr Rəsul Hüseynov, katib Əvəz Süleymanov olmuşdur.

“Eşidildi: Bir neçə yaramazların kolxozdan çıxarılması haqqında.

Qərar: Kolxozun sabiq üzvü Alverdi Məmmədoğlu keçmiş qohumu olan Ədil yüzbaşı və Surxay Məmmədov kimi quduzların rəhbərliyi altında kolxoz təşkilatına zərbə vuran, kolxozun genişlənməsinə imkan verməyən və təktəsərrüfatçıları kolxoza girməyə qoymayan, kolxozçular arasında təbliğat aparmaqla, məktəb yaşlı qızları məktəbdən çəkindirməsi fikrini kolxozçular içərisində işlətdiyi üçün kolxozdan kənar edilsin”.*

1938-ci il martın 2-də DT-nin müstəntiqi serjant Palqunov tərəfindən Allahverdiyev Alverdi Məşədi Məmməd oğlundan alınan ifadənin çıxarışı cinayət işinə sübut kimi daxil edilmişdir. İlk istintaq ənənəvi sual-cavabla başlayıb (1.12).

“Sual: Sizi kim və nə vaxt əiqm təşkilatına cəlıb edib?

Cavab: 1937-ci ilin yayında Fətiş Hüseynoğlu mənimlə söhbətində bildirdi ki, səni əiqmt-na cəlb etməliyəm. Mən imtina etmək istədikdə, o bildirdi ki, bu, sənin üçün pis olacaq. O, məni hədələməyə başladı. Bu hədə və təhdid nəticəsində əiqmt-na daxil olmağa razılıq verdim. Ona görə, Sovet hakimiyyəti qarşısında özümü günahkar hesab edirəm.

Sual: Fətiş Hüseynoğlu əiqmt-nın qarşısında duran vəzifələr barədə sənə nə dedi?

Cavab: Fətiş Hüseynoğlu mənə bildirdi ki, Sovet hökuməti dağılanda və olmayanda, əiqmt-na daxil olmaq mənə çox böyük xeyir verəcək. Mənə başqa heç nə söyləmədi.

Sual: Əiqmt-a daxil olanda üzvülük haqqı verdinmi?

Cavab: Təşkilata daxil olarkən, Fətiş Hüseynoğluna 5 rubl verdim. Başqa heç vaxt pul vermədim.

Sual: Əiqmt-na daxil olarkən üzvülük bileti aldınızmı? Əgər aldınızsa, bunu kimdən və necə aldınız?

Cavab: Fətiş Hüseynoğlu mənə bilet verməyi vəd etmişdi, ancaq vermədi.

Sual: Siz düz danışmırsınız. İstintaqda məlumat var ki, Siz 1931-ci ildən əiqmt-nin üzvüsünüz. Bunu niyə gizlədirsiniz?

Cavab: Mən bunu rədd edirəm. Bu, doğru deyil. Əks-inqilabçı təşkilata mən 1937-ci ildə daxil olmuşam.

Sual: Sizdə silah varmı?

Cavab: Məndə silah yoxdur və olmayıb.

Sual: Düz danışmırsınız. Sizdə qundağı kəsilmiş 3 xətli vintovka olub. O, haradadadır?

Cavab: Rədd edirəm. Doğru deyil.

Sual: Sizdə vintovka olub. Bir neçə il əvvəl onun qundağını Martuni rayonununQarakənd kəndindən olan Usta Davud kəsib. İstintaq Sizdən tələb edir ki, doğru danışıb onu harada gizlətdiyinizi deyəsiniz?

Cavab: Mən bunu rədd edirəm. Məndə vintovka olmayıb. Mən onu könüllü şəkildə 1925-ci ildə əhalidən silah yığılması zamanı hökumətə təhvil vermişəm. Bundan başqa mənim heç vaxt silahım olmayıb, indi də yoxdur.

Sual: Əiqmt-nin üzvü kimi bu təşkilatdan hansı tapşırıqları, göstərişləri almısınız?

Cavab: Mən heç vaxt, heç kimdən heç bir tapşırıq almamışam.

Sual: Əiqmt-nin üzvlərindən kimləri tanıyırsınız?

Cavab: Fətiş Hüseynoğlundan başqa bir də Molla Mustafa Quliyevi tanıyıram. Fətiş Hüseynoğlu savadsız adam olub. Mənə başqa heç kim məlum deyil.

Sual: İstintaqa məlumdur ki, sənin silahın olub. Bir daha sənə təklif edirəm ki, onu harada gizlətdiyini deyəsən.

Cavab: Mənim 1924-cü ildəki vintovkadan başa 1930-cu ildə biri də olub. Hansı ki, onu Dövlət Siyasi İdarəsindən (Bundan sonra DSİ -B.Əziz) almışam. Sonra onu məndən köçərilər üzrə müvəkkil olan Adil Köçərlinski geri aldı. DSİ vintovkanı mənə sürüləri yaylağa aparan zaman onu qorumaq üçün vermişdi. Bundan başqa, onu həm də banditizmi, quldurları ləğv etmək üçün rayon milis idarəsinin keçmiş rəisi Bahadur Rzayev vermişdir.

Sual: Bahadur Rzayevlə hansı əlaqələriniz var?

Cavab: O, mənim qohumumdur. Atamla onun atası xaloğludur”.

Müstəntiq bununla da başdansovdu, səthi aparılmış istintaq işini başa çatdıraraq, şahid və digər təqsirləndirilənlərin ifadələrinə keçmişdir.

İlk belə ifadə təqsirləndirilən Fərman Cavadoğlundan işgəncə verilməklə 1938-ci il fevralın 19-da alınmışdır (1,16).

“Sual: Əks-inqilabçı, qiyamçı “Müsavat” təşkilatının Mərzilidəki özəyinin üzvlərindən kimləri tanıyırsan?

Cavab: ...3. Alverdi Məmmədoğlu”.

1958-ci il yanvarın 9-da təqsirləndirilən Fətiş Hüseynoğlundan bəlli üsullarla alımış ifadə də eyni məzmundadır. Müstəntiqin əks-inqilabçı təşkilatın Mərzili özəyinin üzvləri ilə bağlı sualına Fətiş Hüseynoğlu belə cavab vermişdir:“...27. Alverdi Məmmədoğlu, 50 yaş, bitərəf, evli, kolxozçu, həbs olunmayıb, yoxsul ailəsindəndir”.(1,17)

Şahid Məmmədov Yəhya Allahverdi oğlu 1938-ci il fevralın 28-də istintaqa ifadəsində göstərmişdir: (1,19)

“Sual: Əks-inqilabçı təşkilatın silahı olması haqqında sənə nə məlumdur?

Cavab: Mən bilirdim ki, o vaxt Fətiş Hüseynoğlunun mauzeri olub. Məhəmmədəli Bayraməlioğlunun 3 xətli karabini, Alverdi Məmmədoğlunun da 3 xətli piyadalar üçün vintovkası olub. Onun qundağını Martuni rayonundakı Qarakənd kəndindən olan usta Davuda düzəltdirmişdi.

Köçəri Gülməmmədoğlunun vintovkasını da o düzəltmişdi. Oruc Hüseynoğlunun “Naqan” tipli tapançası (mauzer) olub.

Onların bu silahları harada gizlətdiyini bilmirəm. Fətiş Hüseynoğlunda o silahı şəxsən özüm görmüşəm. Qonşuları Səməd Məşədi Abbasqulu oğlunun* (Ana babam-B.Əziz)bunu aşağıya) evinin yaxındakı dəmirçixanada saxlayırdı. Digərlərində silahı görməmişəm. Bütün bunlar 1931-ci ilin sonu, 1932-ci ilə aiddir”.

Təqsirləndirilən Molla Mustafa Quliyev 1938-ci il yanvarın 7-də müstəntiqin əks-inqilabçı təşkilatın Mərzilidəki özəyinin üzvləri ilə bağlı sualını belə cavablandırmışdır: “...5. Alverdi Məşədi Məmmədoğlu” (1,20).

1938-ci il fevralın 26-da şahid Vəliyev Ədil Mahmud oğlu müstəntiqin: “Sənə Allahverdiyev Alverdi Məmməd oğlunun şəxsiyyəti haqqında nə məlumdur?” sualına belə cavab vermişdir: “Keçmiş varlı, Sovet hökuməti və kolxoz quruluşuna düşmən əhval-ruhiyyəsindədir. 1937-ci ildə kəndlilərin yanında mənə bildirdi ki, kolxoz kəndlilər üçün faydasızdır, kəndlilər kolxozda aclıq çəkir. Bundan başqa, mənə dedi ki, kolxoz kəndlilər üçün o qədər əlverişli deyil, kəndlilər kolxozda özləri üçün az məhsul əldə edir. Belə söhbəti mənə azı üç dəfə deyib. Kənddə keçmiş kulaklarla, məsələn, Ədil yüzbaşı və başqaları ilə əlaqə saxlayıb. Bundan başqa, eşitdim ki, o, uşaqların yanında məktəbi pisləyib, deyib ki, bu məktəb uşaqlar üçün xeyirsizdir”.

Şahid Hüseynov İsmayıl Cəfər oğlu 1938-ci il fevralın 26-da istintaqa ifadəsində bildirmişdir: Müstəntiq əvvəlcə onların hər ikisinə bir-birilərini tanıyıb-tanımadığını, aralarında inciklik, ədavət, ziddiyyət və s. olub-olmadığını soruşmuşdur. Onlar bir-birilərini həmkəndli kimi yaxşı tanıdıqlarını, aralarında isə heç bir ziddiyyətin, incikliyin olmadığını bildirmişdilər. Sonra müstəntiq Ədil Vəliyevə: “Qarşısında əyləşən adamın şəxsiyyəti haqqında nə bilirsən?” deyə sual vermişdir. O, Alverdi kişi haqqında istintaqa verdiyi ifadəsini təkrar etmişdir. “Bunu etiraf edirsənmi?” sualına isə o, deyilənlərin yalan olması səbəbilə təkzib etmişdir.

İkinci bir əyani üzləşmə 1938-ci il martın 2-də Fərman Cavadoğlu ilə aparılmışdı (1,28) . Üzləşmə üçün ənənəvi sual verildikdən, cavab alındıqdan sonra müstəntiq Fərman Cavadoğluna üzbəüz əyləşdiyi adamın əks-inqilabçı təşkilatın üzvü olub-olmadığını söyləmişdir. O, bu barədə istintaqa verdiyi ifadəsini təkrar etmişdir. Alverdi kişi cavabında əks-inqilabçı təşkilatın üzvü olduğunu təsdiq edərək, bildirib ki, “...həqiqətən Fətiş Hüseynoğlu, onu 1937-ci ilin yazında əks-inqilabçı, qiyamçı “Müsavat” təşkilatına cəlb edib.”

1938-ci il martın 2-də müstəntiq istintaqın başa çatması haqqında protokol tərtib etmişdir. Müstəntiq cinayət işi ilə Alverdi kişini tanış etmiş, ondan istintaqa əlavəsinin olub-olmadığını soruşmuş və “xeyr” cavabını aldıqdan sonra, bu barədə protokolda müvafiq qeyd aparmışdır.

1938-ci il martın 5-də XDİK DTİ-nin Ağdam rayon şöbəsinin əməliyyat müvəkkili, DT serjantı Palqunov Allahverdiyev Alverdi Məşədi Məmməd oğlunun 11974 №-li cinayət işi ilə bağlı ittiham aktı tərtib etmişdir (1,29) .

Azərbaycan SSR CM 72 və 73-cü maddələri ilə günahkar bilinən Alverdi kişi aşağıdakılarda günahkar hesab edilmişdir:

“Sovet hakimiyyətinə düşmən münasibətdə olan:

a) ƏİQMT-nin üzvü olmaqda;

b) Antisovet təbliğat aparmaqda: Kolxoz quruluşuna böhtan atmaqda, kəndlilər içərisində kolxoz quruluşunun yararsız olduğunu söyləməkdə, kulakları müdafiə etməkdə, Sovet hakimiyyətinin süqut edəcəyinin labüd olacağını söyləməkdə;

c) üçxətli döyüşə yararlı lüləsikəsik tüfəng saxlamaqda.

İttiham şahid ifadələri, işdə adı əiqmt-nın üzvü olmaqda təqsirləndirilənlərin ifadələrində, üzləşmələrdə sübut olunmuşdur.

Təqsirləndirilən özünü əiqmt-nın üzvü olmaqda günahkar hesab edir. Bildirir ki, onda iki tüfəng (vintovka) olub, birini 1924-cü ildə könüllü olaraq təhvil verib, digərini müvəqqəti olaraq 1930-cu ildə banditizmə qarşı mübarizədə iştirak edəndə alıb, onu da təhvil verib”.

İttiham aktı XDİK rəhbərliyi tərəfindən təsdiq edildikdən sonra baxılması üçün Üçlüyə göndərilmişdir.

1938-ci il martın 9-da Azərbaycan SSR XDİK Üçlüyü işə baxmışdır. Onun qəbul etdiyi qərarla Alverdi Məşədi Məmmədoğlu əmlakı müsadirə edilməklə, ən ağır cəzaya -güllələnməyə məhkum edilmişdir (1,32).

Hökmün yerinə yetirilməsi haqqındakı aktdan çıxarışda onun aprelin 7-dən 8-nə keçən gecə yerinə yetirildiyi göstərilmişdir (1,33).

Məlumdur ki, keçən yüzilliyin 50-ci illərinin ikinci yarısından başlayaraq, günahsız yerə repressiyaya məruz qalanların üzərindən onlara verilmiş “xalq düşməni” adı götürülməyə başlanılmışdır.

**(Davamı 15-ci səhifədə)**

# Babam Sovet hökumətinin tezliklə dağılacağını dediyinə görə 1938-ci ildə güllələnib!



(Əvvəli 14-cü səhifədə)

Güllələnmiş şəxslərə bəraət verilməsi prosesindən Alverdi Məşədi Məmmədoğlu da kənarda qalmamışdı.

Azərbaycan SSR Nazirlər Soveti yanında DTK-nın müstəntiqi Bağırov Alverdi kişinin arxiv cinayət işini yenidən geniş, hərtərəfli, obyektiv araşdırmışdır (1,47).

Müstəntiq əvvəlcə cinayət işində şahid kimi ifadə vermiş adamları dindirmək qərarına gəlmişdir. Bunun üçün Ağdam rayonu Mərzili kənd sovetinə məktub göndərərək, həmin şahidlərin istintaqa gəlməsini təmin etməyi xahiş etmişdir. Məktuba cavab olaraq, kənd sovetindən göndərilən arayışda bildirilmişdir ki, şahid kimi dindirilməsi istənilən Yəhya Allahverdi oğlu Məmmədov 1956-cı ildə Martuni rayonunun Muğanlı kəndində vəfat etmişdir. Ədil Mahmud oğlu Vəliyevin isə uzaqda, yaylaqda olduğu bildirilmişdir. Bu səbəbdən, onun da deyilən vaxtda istintaqda şahid kimi ifadə verməsi mümkün olmamışdır.

> *“Sonda o, belə qərara gəlmişdir ki, işdə cinayət tərkibi olmağı üçün XDİK Üçlüyünün 9 mart 1938-ci il qərarı əsassızdır”*

1957-ci il noyabrın 26-da müstəntiq Bağırov İsmayıl Cəfər oğlu Hüseynovu şahid qismində dindirmişdir (1,51). O, 1938-ci il fevralın 16-da istintaqdakı ifadəsindən fərqli olaraq, bu dəfə təqsirləndirilənin əleyhinə heç bir söz söyləməmişdir.

Bütün bunlardan sonra, müstəntiq 1958-ci il martın 28-də Alverdi kişinin arxiv cinayət işi haqqında geniş Arayış tərtib etmişdir. Sonda o, belə qərara gəlmişdir ki, işdə cinayət tərkibi olmağı üçün XDİK Üçlüyünün 9 mart 1938-ci il qərarı əsassızdır. Bu səbəbdən, cinayət işinə xitam verilməli, güllələnmə hökmü ləğv edilməli və ona bəraət verilməlidir.

Arxiv cinayət işi bu qərarla birlikdə, baxılması üçün Azərbaycan SSR Prokurorluğuna göndərilmişdir (1,61) . Prokurorluq işi araşdırmış, faktiki olaraq müstəntiq Bağırovun qərarını təkrarlayan qərar qəbul edərək, onu Azərbaycan SSR AM yanında cinayət işləri üzrə Məhkəmə Kollegiyasına göndərmişdir.

Prokurorluğun qəbul etdiyi qərarda əvvəlcə Üçlüyün 1938-ci il avqustun 9-da qəbul etdiyi ittiham aktı verilərək, göstərilmişdir ki, ittiham Alverdi Məmmədoğlunun şəxsi etirafı, Fərman Cavadoğlunun, Fətiş Hüseynoğlunun, Molla Mustafa Quliyevin, Yəhya Məmmədovun, Ədil Vəliyevin, İsmayıl Hüseynovun, Rəsul Hüseynovun istintaqda işgəncələr tətbiq edilməklə, qanun pozuntuları ilə alınmış ifadələrinə əsaslanmışdır.

“...XDİK Üçlüyünün qərarı aşağıdakı səbəblərdən ləğv edilir: Alverdi Məmmədoğlunun şəxsi etirafında onu əks-inqilabçı təşkilata Sərdarov Fətiş Hüseyn oğlunun cəlb etdiyini bildirib. Ancaq bu Sərdarov Fətiş Hüseyn oğlunun istintaqa ifadələrində təsdiqini tapmayıb.

Fərman Cavadoğlu, Fətiş Hüseynoğlu, Molla Mustafa Quliyev və Məmmədov Yəhyanın Allahverdiyev Alverdi Məmməd oğlunun əks-inqilabçı təşkilatın üzvü olması haqqındakı ifadələri onunla təkzib olunur ki, bu əks-inqilabçı təşkilatın işində adı rəhbər kimi keçən Seyid Rəsul Abbasov, Qoca Gözəlov və başqaları tam bəraət almışdır.

O cümlədən, Fərman Cavadoğlu, Fətiş Hüseynoğlu və Molla Mustafa Quliyevin ifadələri həm də onunla təkzib olunur ki, bu şəxslərin cinayət işlərinə xitam verilmiş, onlar da bəraət almışdır.

Şahid Hüseynov İsmayılın və Vəliyev Ədilin Allahverdiyev Alverdi Məmməd oğlunun anti-kolxoz, anti-sovet hərəkəti və sözləri barədə dedikləri təsdiqini tapmamışdır.

Hüseynov İsmayıl əvvəllər verdiyi ifadədən imtina etdi. O, Allahverdiyev Alverdi Məmməd oğlunun anti-kolxoz, anti-sovet fəaliyyəti barədə ona heç nə məlum olmadığını söylədi.

Yuxarıda deyilənləri, həmçinin SSR Ali Soveti Rəyasət Heyətinin 19 avqust 1955-ci il qərarını əldə rəhbər tutub xahiş edirəm: Azərbaycan SSR XDİK Üçlüyünün 9 mart 1938-ci il tarixli qərarı ləğv edilsin və işdə cinayət tərkibi olmadığına görə xitam verilsin.”

1958-ci il avqustun 11-də Azərbaycan SSR Ali Məhkəməsi yanında Məhkəmə Kollegiyasının qapalı iclası keçirilərək qəbul etdiyi qərarda Alverdi kişiyə bəraət veriilmişdir.(1,63).

Arxiv cinayət işinin materiallarında diqqət çəkən sənədlərdən biri Azərbaycan SSR Ali Məhkəməsi tərəfindən verilən arayışdır. (1,64). Arayışda yazılmışdır ki, bəraət verilməsi haqqında qərar Allahverdiyev Alverdi Məşədi Məmməd oğlunun övladlarının ünvanı məlum olmadığına görə, onlara göndərilmədi. Eyni zamanda, ona bəraət verilməsi ilə bağlı övladlarından heç kim dövlət orqanlarına müraciət etməmişdir...”.

SONDA: bəzi siyasi münəccimlər deyirlər ki, məsələn, Filankəs filan vaxtı SSRİ- nin, yəni Sovet hökumətinin nə vaxtsa dağılacağını bildirmişdir... Mən fəxr edir və qürur hissi ilə deyirəm ki, mənim babam Allahverdiyev Alverdi Məmməd oğlu hələ 1936-38- ci illərdə demişdir ki, Sovet hökuməti tezliklə dağılacaqdır və bu barədə kolxozçular arasında təbliğat da aparmışdır. Erməni müstəntiq də onun bu hərəkətinə görə güllənməsinə hökm vermişdir!

Tarix isı heç kimi və heç nəyi unutmur! Allah Sizlərə rəhmət eləsin, Azərbaycan adına günahsız yerə güllələnən babalarımız!

**Asif MƏRZİLİ**

(Əvvəli 12-ci səhifədə)

Orhan Ekberov, Karabağ Savaşı’na katılmadan önce, askerlik hayatı boyunca birçok önemli görev üstlendi.

2008 Aprel çatışmalarında Lalatepe’nin ele geçirilmesinde Orhan büyük rol oynadı.

Keşif subayı olarak, düşman hattının derinliklerine sızarak önemli bilgiler topladı. Bu görev, Orhan’ın askeri zekasını ve liderlik becerilerini geliştirmesinde büyük rol oynadı. Keşif sırasında, Orhan ve ekibi, düşmanla burun buruna geldikleri birçok tehlikeli an yaşadılar. Ancak Orhan, her durumda soğukkanlılığını koruyarak ekibini güvenle yönlendirmeyi başarmıştı.

Karabağ’daki çatışmalar, Orhan’ı sadece fiziksel olarak değil, psikolojik olarak da sınadı. Her geçen gün, vatanını savunma düşüncesi, Orhan’ın kararlarını yönlendiriyordu. Savaşın her aşamasında, çevresindeki insanlara güven verdi ve birlikte savaştıkları arkadaşlarıyla sıkı bir bağ kurdu. Keşif subayı olarak görev aldığı dönemde, büyük bir kahramanlıkla hayatını riske atarak çok sayıda hayat kurtardı.

Orhan Ekberov’un hayatındaki en kritik anlardan biri de,dronla yapılan kurtarma operasyonudur. Bir çatışma sırasında, Orhan ciddi şekilde yaralanmış, neredeyse ölümün eşiğindeydi. Ancak, Orhan’ın bulunduğu konumu tespit eden bir insansız hava aracı (İHA) onu bulunduğu yerden hızlı bir şekilde uzaklaştırarak hayatını kurtardı. Dronlar kullanılarak yapılan bu kurtarma operasyonu, Azerbaycan askerlerinin teknolojiyle nasıl birleşerek savaşta büyük zaferler kazanıldığını anlatmaktadır.

Bir başka kahramanlık anı ise, Fuzuli’nin kurtarılmasında, Orhan’ın 200 kişilik düşman grubunu bertaraf etmesiyle yaşandı. Karabağ’daki yoğun çatışmalar sırasında, Orhan ve ekibi, düşmanla karşı karşıya geldiklerinde büyük bir stratejik hamle yaptı. Orhan, hem liderlik vasfını hem de savaş stratejilerini kullanarak, emir beklemeden cesur ekibiyle birlikte düşman grubunun etkisiz hale gelmesini sağladı. Bu zafer, Orhan’ın askerlik kariyerindeki en parlak anlardan biriydi ve ona halkının gözünde gerçek bir kahraman unvanını kazandırdı.

Horadiz bölgesindeki operasyonlarıyla da ordusuna büyük avantaj sağladı.

Orhan Ekberov, askerlik kariyerinde keşif subayı olarak düşman hatlarına sızma ve kışkırtma operasyonlarını başarıyla gerçekleştirirken, pek çok zor durumda da soğukkanlılıkla hareket etmesini bilmiştir. Keşifçi asker, savaşın gözü olmak demektir. Düşmandan önce düşmanı görmek demektir.

Onun görevi, düşman hatlarının ötesine geçerek kritik istihbaratlar toplamaktı. Keskin zekası, cesareti ve askeri stratejileri sayesinde birçok operasyonun başarıyla sonuçlanmasını sağlamıştır.

Bazı isimler vardır ki sadece bir milletin değil, bir vatanın tarihine mühür vurur. Orhan Ekberov da onlardan biriydi. O, Azerbaycan’ın 30 yıllık esaretine son veren, 44 günlük savaştan Karabağ’ı özgürlüğüne kavuşturan kahramanlardan biri olarak adını milletinin gönlüne ve tarihin altın sayfalarına yazdırdı.

2 Ekim 2020’de, Füzuli’deki çetin çatışmalardan birinde Orhan Ekberov, düşman mevzilerine yapılan bir harekat sırasında ekibiyle birlikte pusuya düştü. Ağır ateş altında kaldılar. Kanlarının son damlasına kadar savaştılar. Orhan ağır yaralanmıştı. Ama görevini tamamlamıştı. Azerbaycan ordusu onun verdiği bilgiler sayesinde ilerlemeye devam etti.

Onun kahramanlığı savaş alanında sona ermedi; cenazesi bile günlerce düşman ateşi altında kaldı. Haber birkaç gün sonra Bilesuvar’a ulaştı.Albay Orhan Ekberov şehit oldu.

Nurane, mutfağın köşesinde oturmuş, sessizce dua ediyordu. Sabah haberleri tüm ülkeye yayıldığında, içindeki korku büyümeye başlamıştı. Karabağ’da savaş başlamıştı. Orhan şimdi cephedeydi.

Günlerce haber bekledi. Her telefon çaldığında yüreği ağzına geliyordu. Ama gelen her arama sadece sessizliği uzatıyordu.

Ta ki 4 Ekim’e kadar...

Bilesuvar çok sessizdi. O gün

# Bir kahramanın hikayesi: “Şehit Albay Orhan Ekberov” - Türkiyədən Asif Mərzilinin kitabına istinadlı yazı

*“Keskin zekası, cesareti ve askeri stratejileri sayesinde birçok operasyonun başarıyla sonuçlanmasını sağlamıştır”*




Ancak halkı onu yalnız bırakmadı. 6 Ekim’de, büyük bir kalabalık eşliğinde, Bilesuvar’a, vatan toprağına emanet edildi.

Şehit Albay Orhan Ekberov’un ismi anıldığında, onu yalnızca bir asker olarak değil, bir şehitlik sembolü olarak hatırlanmalıdır. O, Karabağ dolayısıyla Vatan Savaşı’nda destan yazan yiğitlerden sadece birisidir. Onun gibi yüzlerce kahraman, vatanı için canını ortaya koymuş, geride sadece anılarını değil, bir milletin özgürlüğünü bırakmış kahramanlardı.

Orhan Ekberov’un hatırası, sadece ailesinin değil, tüm Azerbaycan’ın gönlünde yaşamaya devam edeceO artık sadece Nurane Hanım’ın eşi, Sevil ve Çingiz’in babası değil, bir milletin onur kaynağıdır

Orhan, her zaman olduğu gibi en ön saflarda savaşmştı. devamAncak kahramanların kaderinde şehadet vardı. Ermeni keskin nişancılarının devamlı hedefinde idi. 2 Ekim 2020 günü Horadiz yönündeki operasyonda yaralanan bir savaşçısını korumalı bir alana alırken, vatanı için son nefesini verdi.

Onun adı, sadece ailesinin ve silah arkadaşlarının değil, tüm Azerbaycan halkının yüreğine kazındı. Kahramanlık hikayesi dilden dile anlatıldı. Şehit olduktan sonra, halk onun anısını yaşatmaya devam etti.

Orhan Ekberov, Azerbaycan’ın toprak bütünlüğü ve bağımsızlık mücadelesinde kritik rol oynayan önemli bir istihbarat subayıdır.

Şehadetinden sonra Cumhurbaşkanı İlham Aliyev tarafından “vatan savaşı kahramanı” ünvanına layık görülmüştür. Ayrıca Fuzuli’nin kurtarılmasına olan katkıları sebebiyle çeşitli madalyalarla onurlandırılmıştır.

Onun adı Bilasuvar’daki bir sanat okuluna Azerbaycan Bakanlar Kurulu kararıyla verilmiş, hatırası yaşatılmaya devam etmektedir.

Orhan Ekberov’un ailesi, dostları, arkadaşları onunla yaşadıklarını hatıralarını yazan Asif Marzili “Efsanevi keşfiyatçı ORHAN EKBEROV” isimli kitapta yer vermiştir.

Bugün Karabağ özgür bir vatan parçası. Orhan’ın hayalini kurduğu o topraklarda artık Azerbaycan bayrağı dalgalanıyor. Ve her Karabağlı, onun gibi kahramanların mücadelesi sayesinde yurtlarına geri dönebiliyor.

**UZUN BİR BEKLEYİŞ...**
**2020 Eylül’ün 27.günü**

bir evde, bir kadın ve iki çocuk bir kahramanı bekliyordu.

Ama Nurane, gözyaşlarını tutarak çocuklarına baktı. Orhan’a verdiği sözü hatırladı.

“Onkara anlat Nurane! Ama sakın gözyaşkarıyla anlatma.”

Telefon çaldığında kalbi hızlandı. Açtı. Karşıdaki ses tanıdık ama titrek bir sesti:

- “Nurane bacı... Orhan yaralandı...”

Dünya başına yıkıldı. Dizlerinin bağı çözüldü. “Ağır mı?” diye sordu titrek bir sesle.

- “Bilmiyoruz, ama yaşıyor...” dedi, telefondaki ses.

Yaşıyordu... Bu kelimeye tutundu. Ama içindeki korku geçmedi. Saatlerce dua etti, gözünü telefondan ayırmadı.

Sonra... Telefon bir kez daha çaldı. Nurane’nin içi titredi. Açmadan önce derin bir nefes aldı. Ama karşıdaki sessizlik, her şeyin cevabını veriyordu.

- “Bacı...” dedi o ses, boğuk ve oldukça kederliydi.

Nurane hiçbir şey sormadı. Artık anlamıştı.

Dizlerinin üzerine çöktü. Gözlerinden yaşlar süzüldü.

Orhan gitmişti. Bir daha dönmemek üzere...

O şimdi vatanın bağrında, Bilesuvar şehitliğinde, milletinin gönlünde huzur içinde yatıyor.

Nurane çocuklarıyla birlikte, Sevil anne ve tüm sevenleri şehitlerini sık sık ziyaret ediyor.

**Orhan Ekberov’un anıları, yalnızca ailesi ve arkadaşlarınca değil, tüm bir millet tarafından yaşatılıyor. Onun adı, zaferlerle, cesaretiyle ve fedakarlıklarıyla anılıyor. Sporcu, asker, eş ve vatansever bir evlat olarak, geride unutulmaz bir iz bıraktı.**

**O, sadece bir savaş kahramanı değil, bir milletin yüreğinde ölümsüzleşen bir destanın baş kahramanı oldu. Göğe yükselen bu kahraman, sonsuza kadar halkının kalbinde yaşamaya devam edecek. Şehitlerimiz, canlarını feda ederek, bizlere bu toprakları emanet ettiler. Biz de, onların hatırasını yaşatarak, bu kutsal vatanı korumaya devam edeceğiz...**



**YUSUF KABUKÇU**
**(Türkiyə)**

# TƏZADLAR

04 (2392) 22.04.2025 www.tezadlar.az


# Həftəbecər



Müğənni Şəbnəm Tovuzlu 10 evi olması məsələsinə dair bir sayta danışaraq belə aydınlıq gətirib: "Bu gün heç bir kişi, kimliyindən asılı olmayaraq, deyə bilməz ki, mən Şəbnəmə bu evi alıb. Maşınlarımı (görəsən necə dənədir - E.), evlərimi (görəsən 10 dənə var? - E.) toylarda əziyyət çəkərək özüm almışam. Kişidirsə, kimsə gəlsin desin ki, mən almışam".

***P.S. Şəbnəm xanım, bu kişi "tema"-sı bir az ağır söhbətdir haaa... Bir vaxt deyirdin ki, sənin sponsorun Hacıdır. İndi nə olub, Hacini kişi saymırsan? Nə deyim vallah? Ola bilər hər Hacı də kişi deyil, elə hər kişi də Hacı ola bilməz. Deyirəm indi bu Hacının də kişiliyi qalxa və deyə ki, ay Şəbnəm, sənə nə verməmsə, hamısını geri qaytar. Görüm ondan sonra Şəbnəm xanım 1 milyon manatlıq villa, o bahalı maşınları, evləri toydan əziyyət çəkərək qazandığı 5-10 min manata ala biləcəkmi? O 5-10 min manatın da hələ bahalı paltarlar, bərbəri, makiyajı, stilisti, vizajisti, masajisti, efirlərə pulla çıxmağı və s. var axı. Əşi, yəqin bu Hacı hardasa nəsə deyib, Şəbnəm xanım da hirslənərək kişi temasını atıb ortalığa. Amma olan şeydir. Bir az keçər, yenə hər şey düşəcək qaydasına və Hacı ilə barışacaqlar...***

***

ABŞ prezidenti Donald Tramp fəaliyyətə başlayar-başlamaz dünyanı bir-birinə vurub. Özü də ağıllı siyasətlə yox, "dədəm mənə kor deyib, gəlib-gedəni vur deyib" prinsipi ilə. Bütün dünyaya biznesmen kimi baxan D.Tramp hələ də hansı qanunsuzluqlar etdiyinin fərqində deyil.

***P.S. "Panama bizimdir, Qrelandiya bizimdir, Kanada ABŞ-ın ştatı olmalıdır" - deyən Trampı bir dayandıran olacaqmı? Belə yerdə deyiblər e, "bir dəli bir quyuya daş atdı, yüz ağıllı onu çıxara bilmədi". İndi Trampın atdığı daşları bütün Avropa dövlətləri çıxara bilmir.***

***

Qəzetlərin birində İrandan bəhs edən yazıya belə bir başlıq qoyulub: "Nüvə silahı haramdırsa, İran ona niyə can atır?!"

***P.S. Ona görə ki, İranın molla rejiminin əsası belə qoyulub... 40 milyonluq Azərbaycan türklərinin öz ana dilində yazıb-oxumağına qadağa qoymaq haramçılıq deyilsə, bəs nədir?! Bu qədər haramçılığa aşiq olan İranın molla rejimi əlbəttə ki, haram olan nüvə silahına da can atacaq.***

***

Xəbər verilir ki, bazara təzə kartof gəlib, amma kartofun qiyməti enmir ki, enmir. Əksinə, 1,5 manata olan kartofun qiyməti qalxaraq, 1,7; 2,2 manat olub.

***P.S. Nahaq yerə deməyiblər ki, "bir kərə qalxan qiymət bir daha enməz". Millətin ac təbəqəsi gözünü ucuz kartofa tikib, bir təhər dolanırdı. İndi çox ucuz kartof söhbəti tamam unudulur. Kartof isə, xalqımızın milli siyasətinin tərkib hissəsi idi. İndi bəzi işbazlar bu siyasətə xor baxırlar. Kartofa xor baxanları görüm elə xar olsunlar.***

***

Nehrə yağı adı ilə saxta yağ satanlar AQTA tərəfindən aşkarlanıb. Müəyyən edilib ki, sped bitki yağı sellofanda qablaşdırılmış nehrə yağı kimi satılır.

***P.S. Bizim Azərbaycanda əgər eşşəyi ağ-qara rəngdə rəngləyərək zebra adı ilə ərəbə satan varsa, niyə sped bitki yağını nehrə yağı adı altında da satmasınlar?***

***

Qəzetlərin birinin başlığa çıxartdığı yazıdan məlum olur ki, səfərbərlik xidmətinin vəzifəli şəxsləri cinayət məsuliyyətinə cəlb ediliblər.

***P.S. Mənə elə gəlir ki, seçilən bu başlıqda bir az məzmunsuzluq var. Məsələn, xəbər belə verilməli idi: "Səfərbərlik xidmətinin vəzifəli şəxsləri cinayət törətmək üçün səfərbər olublar". Cinayət törədənin cəzası isə cəzasızlıqdır. Bizdə cinayət törədənə cəza vermirlər ki, sadəcə uzun illər məhkəmədə süründürürlər, sonra da deyirlər, get yaşa. Həmin vəzifəyə qədər, cındırından cin hürkən vəzifəli şəxslər də özlərini tam günahsız bilib, üzərinə həbs qoyulan və dəyəri milyonlarla manat ölçülən bir və ya bir neçə obyekti, hektarlarla torpağı və korrupsiya yolu ilə yığdıqları sərvəti, milyonları, dədələrin malı kimi geri qaytarırlar.***

***

Ötən həftə Tarix Əliyevin (Tolik) "Tarixin bir günü" verilişində qonaq olan müğənni



Müğənni sayılan Sevinc Ağaşirinova öz həyatından danışarkən belə deyib: "Həyatımda olanlardan yola saldıqlarım da olub, özü gedən də olub. Həyatda hər şey olur, artistlik etməyin nə mənası var? Həyatımda olan kişi getməlidir ki, görüm növbətisi kimdir?".

***P.S. Əsl kişi qızıdır, mən ölüm. Haladır sənə, Sevinc xanım. Şou-əhli xanımların 90 faizinin gizli keçirdiyi həyat tərzini sən kişi qızı kimi açıb ortaya qoydun. Düz eləyirsən. Onsuz da sənətdə pul yoxdur. Pul həyatında özü gedən və sənin yola saldığın kişilərdədir. Sənət, şou-əhli üçün o pullu kişiləri cəlb etmək vasitəsidir. Daha neçəsini cəlb etmək olar, onu bilmirəm. O baxır, şou-əhli xanımların əhvalına, zövqünə, bir də ac və ya tox olmasına. İndi Sevinc xanım, həyatında olan kişilərin sayını bilmirəm, bəlkə, heç sən özün də bilmirsən. Çünki şəklinə baxıram, çox abırlı-həyalı bir xanıma oxşayırsan. Ona görə də xırdaçılıq edib kişiləri saymayacaqsan ki? Elə mən də illərdir bunu deyirəm ki, şou-əhli xanım üçün kişinin biri qaydadır, ikisi cana faydadır, üç nəsdir, dörd bəsdir, çıxdın beşə, vur on beşə. Bir də ki, kişi nədir, say nədir?! Sənin kimi gözəl xanımın həyatında olan kişilərin də sayı yəqin 15-i çoxdan ötüb. Əşi, şou-əhli xanım üçün əsl həyat budur, dayna.***

Nüşabə Musayeva xəyanət edib-etmədiyi barədə verilən suala gülə-gülə belə cavab verib: "Çox sevdiyim insan olan ərimin xəyanəti ilə üzləşdim. Mən də cavab olaraq xəyanət etmişəm".

***P.S. Dağıl ey dünya. Bu, artıq sözün bitdiyi yerdir. Biri efirdən deyir "həyatımda olan kişi getməlidir ki, növbətisi gəlsin", biri deyir "ərimə xəyanət etmişəm" biri dədeyir evli kişidən uşaq dünyaya gətirmişəm (müğənni Ülviyyə Namazova). Axı bu efirlər gənclərə, milyonlarla izləyicilərə nəyi aşılamaq istəyir? Pozğunluğu, fahişəliyi? Axı***



***niyə bu abırsızlar hələ başqalarını da öz arşını ilə ölçürlər? Bu söhbətin şişdiyini görən Audiovizual Şuranın Kommunikasiya sektorunun müdiri Taleh Quliyev, araşdırma aparıb və müəyyən edib ki, "Space TV" - də aprelin 9-da milyonlarla insanın gözləri ilə gördükləri bu biabırçılığı, sektor müdiri görməyib. Hətta deyir ki, belə fikirlər TV-də yayımlanmayıb. Görəsən, həmin efirdə bu Taleh bəyi söyəsələr yenə durub deyəcək ki, belə bir şey olmayıb? Ayıbdır, vallah ayıbdır.***



Aparıcı Mətanət Əlverdiyeva onun verilişində özünü dartanlara xəbərdarlıq edərək belə deyib: "Ola bilər ki, siz bahalı geyinirsiniz, mən ucuz şey geyinirəm. Bunun heç bir mahiyyəti yoxdur. Siz min hoqqadan çıxırsınız, mən isə heç bir hoqqadan çıxmıram".

***P.S. Nə? Nə? Nə? Heç bir hoqqadan çıxmırsan? Belə yerdə deyiblər e "kor kora kor deməsə bağrı çatlayar". Rəhmətliyin qızı, milyonların gözü qarşısında, efirdə alt paltarı görünməklə "şpaqat" açmaq hoqqa çıxarmaq deyilsə, bəs nədir? Sənin qonaqlarının min hoqqadan çıxmasını xalq görmür, ancaq eşidir. Çünki heç kim gedib şam tutmur. Amma sən efirdən, nənə ola-ola bu yaşında o boyda hoqqadan çıxırsan, özü də deyirsən ki, "mən heç bir hoqqadan çıxmıram". Elə bu sözün özü də növbəti bir hoqqa deyilmi?***




ELÇİN
elcinmemmedli
58@gmail.com



**Baş redaktor:**
**Asif Mərzili**

*Redaksiya heyəti:*
Bəxtiyar Vahabzadə
(www.Vahabzade.net)
Məmməd Araz
Nurəddin Rza
İlham Rəhimov
Yaşar Əliyev
Yusif Səmədov
Adil Minbaşı

Qəzet "Təzadlar"ın kompüter mərkəzində yığılıb səhifələnib.
Ünvan: Bakı, Mətbuat prospekti, 529-u məhəllə
Tel: 510-17-74
E-mail: tezadlar@gmail.com
www.tezadlar.az
TƏSİSÇİ: Redaksiyanın jurnalist kollektivi.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Yazılardakı faktlara cavabdeh müəlliflərdir. Əlyazmalar geri qaytarılmır.

Lisenziya: № B 216

"Təzadlar" qəzetinin hesab nömrəsi:
AZ80AIIB38070019441100467111
VÖEN: 1300456291

Bankın adı:
"Kapital Bank" ASC-nin 1 saylı Nəsimi rayon filialı
Kod: 200112
VÖEN: 9900003611
Müxbir hesabı:
AZ37NABZ01350100000000001944
SWİFT BİK: AIIBAZ2X
Tiraj: 2018
Çapa imzalanmışdır:
17.03.2025